Xalqın qəzeti!

# Xalq qəzeti

№ 154 (30848) 27 iyul 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Orta Dəhlizin reallaşmasında sabitlik əsas amillərdən biridir



**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** Təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq. Təbii ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da, həmçinin bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir. Çünki güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaşdırılması - bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb.

## Qətər Avropaya qaz ixracını dayandıracaqmı?



**Qətər Avropa İttifaqına (Aİ) xəbərdarlıq edib ki, əgər Avropa Komissiyası yeni iqlim normalarını təchizat zəncirinə dair direktivdən çıxarmazsa, ölkə Avropaya mayeləşdirilmiş təbii qaz (LNG) ixracını dayandıra bilər. Bu barədə "Welt am Sonntag" nəşri Qətərin energetika məsələləri üzrə dövlət naziri və "QatarEnergy" şirkətinin rəhbəri Saad bin Şarida əl-Kaabinin məktubuna istinadla məlumat yayıb.**

ardı səhifə ⇨ 11

## Vaşinqtonun maliyyə siyasətində yeni hədəflər



səhifə ⇨ 11

## Türkiyənin çağdaş mübarizə dastanı



səhifə ⇨ 11

## Stokholmda enerji savaşı: İrəvan arbitraj qarşısında

### *Məhkəmənin qərarı Paşinyan hökumətinin planlarına necə təsir edib?*



**Ermənistanda hazırda gündəmdə olan məsələlərdən biri də "Ermənistan Elektrik Şəbəkəsi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) milliləşdirilməsi ilə bağlıdır. Bu məsələ hökumətdə, parlamentdə və media müstəvisində ciddi müzakirələrə səbəb olub. Çünki 2015-ci ilin sentyabr ayından "Ermənistan Elektrik Şəbəkəsi" QSC-nin səhmlərinin 100 faizi "Taşir" şirkətlər qrupunun nəzarətindədir. Şirkətlər qrupunun rəhbəri isə Samvel Karapetyandır. Məlumdur ki, Karapetyan bu ilin iyunundan İrəvanda həbsdədir. O, hakimiyyəti ələ keçirməyə açıq çağırış etməkdə itiham olunur.**

ardı səhifə ⇨ 4

## "Tam gizli" qrifli sənədlər



səhifə ⇨ 3

## Cənab Dekotini, Sünik yox, Zəngəzur dəhlizi!




səhifə ⇨ 3

## Tbilisi NATO-ya "əlvida" deyirmi?



səhifə ⇨ 4

## Dağıstanın, dağlıların xilaskarı



**Adı tarixdə Güney Azərbaycan missiyasının – "Əziz Əliyev qrupu"nun rəhbəri, dağlar diyarı Dağıstanın xilaskarı kimi qalan Əziz Əliyevin siyasi hakimiyyətində Dağıstan dövrü mühüm əhəmiyyətə malikdir.**

Əziz Məmmədkərim oğlu Əliyev Dağıstana rəhbər təyin olunanda orada ictimai-siyasi vəziyyət ağır idi. Dağlıq məmləkətin, sözün həqiqi mənasında, xilaskara ehtiyacı var idi. Çünki Dağıstan bölünmək, parçalanmaq, sürülmək, sürgün edilmək təhlükəsi ilə üz-üzə idi.

ardı səhifə ⇨ 6

## Azad medianın dayağı həqiqət, peşəkarlıq və məsuliyyətdir



səhifə ⇨ 9

## Maldiv Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Muizzuya

**Hörmətli cənab Prezident!**

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Son dövrdə Azərbaycan ilə Maldiv arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. COP29-da iştirak etmək üçün keçən il Sizin Azərbaycana səfəriniz ikitərəfli əlaqələrimizin tarixində yeni səhifə açmışdır.

Əminəm ki, dostluq əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Maldiv xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 23 iyul 2025-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 219** **Bakı şəhəri, 18 iyul 2025-ci il**

**“Xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinin yol vergisindən azad olunması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 269 nömrəli Fərmanının 2.2.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinin yol vergisindən azad olunması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir və 2 (iki) il müddətində qüvvədədir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 204** **Bakı şəhəri, 9 iyul 2025-ci il**

**“Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 183-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 385 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Sosial xidmət müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə və səmərəliliyinə nəzarətin həyata keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 205** **Bakı şəhəri, 11 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 20 fevral tarixli 494 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “I. Büdcədən maliyyələşdirilən qurumlar” bölməsinin “2. Muzeylər” hissəsinə aşağıdakı məzmunda 2.102-1-ci bənd əlavə edilsin:

“2.102-1. “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi Ağdam şəhəri”.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 207** **Bakı şəhəri, 14 iyul 2025-ci il**

**“2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 357 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 357 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1438 (Cild I) 11.7-ci bəndinə “kompüterlərin” sözündən sonra “Azərbaycan Respublikasının şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin (hər birinə bir ədəd olmaqla) və” sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Hikmət Hacıyev “Berliner Zeitung” qəzetinə müsahibə verib



**Almaniyanın aparıcı nəşrlərindən olan “Berliner Zeitung” qəzetində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsi dərc olunub.**

Müsahibədə Hikmət Hacıyevin Ermənistan ilə sülh danışıqları, Rusiya-Ukrayna müharibəsi, Avropanın, o cümlədən Almaniyanın bəzi media orqanlarında Azərbaycan ilə bağlı yayımlanan qərəzli informasiyalar barədə fikirləri əksini tapıb.

Cənubi Qafqazda real sülhə nail olunduğunu vurğulayan Hikmət Hacıyev hazırda Ermənistan ilə Azərbaycan arasında artıq hərbi qarşıdurma və ya eskalasiyanın gündəmdə olmadığını qeyd edib. O, hələ də bəzi fikir ayrılıqlarının mövcudluğunu və bunların aradan qaldırılması üçün dialoqun davam etdirildiyini bildirib.

“Biz sülh bağlamağa və bütün regionu transformasiya etməyə hazırıq”, – deyən Prezidentin köməkçisi sülh sazişinin mətninin Azərbaycan tərəfindən hazırlanaraq Ermənistana təqdim edildiyini və mətnin əsas hissəsinin razılaşdırılmasını müsbət hal kimi vurğulayıb.

Buna baxmayaraq, bəzi detallara aydınlıq gətirilməsinin vacibliyini diqqətə çatdıran Prezident Administrasiyasının şöbə müdiri, ilk növbədə, Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların olduğunu xatırladaraq deyib: “Biz sülh sazişini təkcə Ermənistan hökuməti ilə deyil, həm də erməni xalqı ilə imzalamaq istəyirik. Biz erməni xalqının konstitusiya dəyişiklikləri vasitəsilə Azərbaycana qarşı bütün ərazi iddialarından son qoyduğunu görmək istəyirik”.

Bu məsələnin həllindən sonra sülhə gedən yolda heç bir maneənin qalmayacağına əminliyini ifadə edən Hikmət Hacıyev ATƏT-in Minsk qrupunun 30 il ərzində real həll perspektivi olmayan missiyasını tam diplomatik fiasko adlandıraraq, onun tarixin zibilxanasına atılmasının vacibliyini bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan 30 il ərzində beynəlxalq hüququ kobud şəkildə pozaraq Azərbaycana qarşı zorakılıq tətbiq edib, ərazilərimizi işğal altında saxlayıb və BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyib. Ermənistan işğal dövründə Azərbaycanın şəhərlərini və kəndlərini yerlə-yeksan edib. BMT-nin meyarlarına əsasən aparılan hərtərəfli qiymətləndirmənin nəticəsinə görə, zərərin məbləği təxminən 150 milyard ABŞ dolları təşkil edir.

Azərbaycan xalqının həmişə doğma torpaqlara qayıtmağı arzuladığını deyən Hikmət Hacıyev işğaldan azad edilən ərazilərdə geniş quruculuq işlərinin görüldüyünü, artıq 50 mindən çox azərbaycanlının Qarabağda və Şərqi Zəngəzurda yaşadığını, işlədiyini və təhsil aldığını diqqətə çatdırıb. Həmçinin Qarabağda yaşayan ermənilərin bölgəni tərk etmək qərarını özlərinin verdikləri, onların Azərbaycanın təklif etdiyi geniş reinteqrasiya modelinin bir hissəsi olmağı rədd etdikləri vurğulanıb. Bundan başqa, əsrlərlə indiki Ermənistan ərazisində yaşamış 250 min azərbaycanlının münaqişə ilə əlaqədar tarixi torpaqlarından zorla qovulduğu qeyd edilib.

Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb ki, hazırda Ermənistanda revanşist ideyaların yeni dalğasının baş qaldırdığı, bölgədəki yeni status-kvonu sual altına almaq cəhdləri, Ermənistan gəncliyinin yeni qarşıdurmalar və müharibələr üçün beyin yuyulmasına məruz qaldığı müşahidə olunur. Ermənistan hökumətinin, ilk növbədə, öz cəmiyyətinə fokuslanmasının önəmi vurğulanaraq, konstitusiya islahatının bu məsələlərin qarşısını almaq üçün mühüm addım olacağı bildirilib.

Müsahibədə Əbu-Dabidə keçirilən sülh danışıqlarına da toxunulub və sülh prosesinin artıq tərəflərin öz əlində olması konstruktiv amil kimi dəyərləndirilib. Əbu-Dabi görüşünün sivil dialoq olduğunu vurğulayan Hikmət Hacıyev qeyd edib ki, bizə sülh içində necə yaşamağı və birgəyaşayışı öyrətməyə ehtiyac yoxdur. Diplomatik münasibətlərin hələ də olmamasına baxmayaraq, çox yaxşı (Ermənistanla – red.) danışıqlarımız oldu.

Hikmət Hacıyev Zəngəzur dəhlizi ilə bağlı sualın məhz Ermənistan tərəfindən cavablandırılmalı olduğunu qeyd edərək, Azərbaycanın üzərinə düşən işləri gördüyünü, nəqliyyat infrastrukturunu genişləndirdiyini, bütün qonşularla, o cümlədən Gürcüstan, İran və Rusiya ilə əlaqəni davam etdirdiyini bildirib. Qeyd edib ki, belə layihələr bütün regionun xeyrinə olacaq. Əgər Ermənistan da hazırdırsa, Trans-Qafqaz nəqliyyat dəhlizini birlikdə inkişaf etdirməyə hazırıq.

Prezidentin köməkçisi Azərbaycanın işğalla heç vaxt barışmadığını və BMT qətnamələrinin icrasını daim tələb etdiyini vurğulayaraq, ölkəmizin bir münaqişənin həll modelini və presedent formalaşdırdığını vurğulayıb. Azərbaycanın beynəlxalq əhəmiyyətli çox vacib görüşlərə ev sahibliyi etdiyi diqqətə çatdırılaraq, istənilən tərəfin, o cümlədən Rusiya və Ukraynanın da sülh danışıqlarının keçirilməsi üçün ölkəmizə müraciət edə biləcəyi qeyd olunub.

Müsahibədə Azərbaycan-Rusiya münasibətlərinə toxunulub, ötən ilin sonunda baş vermiş təyyarə qəzasının Azərbaycan cəmiyyətini dərindən sarsıtdığı, hadisənin detallarının məlum olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, Azərbaycan qonşu və tərəfdaş olaraq Rusiyanın məsuliyyət daşımasını və ədalətin təmin edilməsini gözləyir.

Ölkəmizin yerləşdiyi bölgədə hazırda həssas geosiyasi vəziyyətin mövcud olduğunu, bu baxımdan Rusiya-Ukrayna müharibəsini, İsrail ilə İran arasındakı münaqişəni xatırladan Hikmət Hacıyev belə bir şəraitdə Azərbaycanın təhlükəsizlik və sabitlik adası olduğunu ifadə edib. Ölkəmizin həm İsrail, həm də İran ilə açıq kommunikasiya kanalları və yaxşı münasibətlərə malik olduğunu qeyd edən Prezidentin köməkçisi Azərbaycanın öz qonşularının milli maraqlarını və təhlükəsizliklə bağlı legitim narahatlıqlarını da nəzərə aldığını söyləyib.

Müsahibədə Almaniya ilə əlaqələrə də toxunan Hikmət Hacıyev bu ölkənin regionda böyük nüfuzunun olduğunu qeyd edib, Prezident Frank-Valter Ştaynmayerin apreldə Bakıya səfərini xatırladıb və ona Azərbaycanda böyük hörmət bəslənildiyini bildirərək deyib: “Hesab edirəm ki, Almaniya təkcə sülh siyasətində deyil, xüsusilə Cənubi Qafqazın iqtisadi transformasiyasında daha çox şey edə bilərdi. Almaniya Avropa İttifaqının iqtisadi gücüdür və aparıcı qlobal iqtisadiyyatlardan biridir. Alman şirkətlərinin daha fəal olmasını gözləyirik”.

Hikmət Hacıyev Avropanın, o cümlədən Almaniyanın bəzi aparıcı media qurumlarında Azərbaycana qarşı məqsədyönlü təbliğat kampaniyasının aparılmasını təəssüf hissi ilə qeyd edərək bildirib ki, onlar ölkəmizi görmədən, tanımadan təhrif olunmuş reallığı yayırlar. Bəzi media qurumlarının yalnız birtərəfli və öncədən formalaşmış qərəzli məlumatlar təqdim etdiklərini vurğulayan Prezidentin köməkçisi həmin media qurumlarının Azərbaycana cavab verməK və öz baxış bucağını təqdim etmək imkanı yaratmadıqlarını tənqid edib.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 208** **Bakı şəhəri, 14 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 19 dekabr tarixli 207 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları”nda dəyişiklik edilməsi və “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 1 oktyabr tarixli 331 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 294 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 19 dekabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1253 (Cild I) ilə təsdiq edilmiş “Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları”nın 4.1-ci bəndinin ikinci cümləsində “qanunvericiliklə” sözü “qanunla” sözü ilə əvəz edilsin.

**2.** “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 189 (Cild I); 2024, № 3, maddə 294, №7, maddə 931) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 216** **Bakı şəhəri, 16 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 276 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 56 (Cild I); 2024, № 4, maddə 440, № 6 (II kitab), maddə 730, № 9, maddə 1090) ilə təsdiq edilmiş “Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”nın 2.1-ci bəndinə “qeyri-yaşayış binalarını” sözlərindən sonra “(infrastruktur obyektlərini)” sözləri, 4-1.1.1-ci, 4-1.1.2-ci, 4-1.1.4–4-1.1.9-cu yarımbəndlərinə “qeyri-yaşayış binasının” sözlərindən sonra “(infrastruktur obyektinin)” sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Cənab Dekotini, Sünik yox, Zəngəzur dəhlizi!

## Həm də ona görə ki...

**“Cənablar, bu Sünikdir və suveren Ermənistanın ərazisidir. Bunu başa düşün”. Belə bir fikri Fransanın Ermənistandakı səfiri Olivye Dekotini sosial şəbəkə hesabında paylaşıb. Dekotininin ali diplomatik təmsilçidən çox, ermənipərəst olduğunu bilirik. Onun dəfələrlə vəzifə səlahiyyətlərini aşdığını da həmçinin. Onu da bilirik ki, səfir Fransa ermənipərəstliyinin hazırkı çılğın obrazıdır və bu obraz indiyədək bir çox məsələlərə münasibətdə ölkəsinin anti-Azərbaycan mövqeyini göstərib. Özü də xüsusi həyasızlıqla.**






Deməli, Dekotini əsəbləşib. Yuxarıdakı iqtibasdan da bunu hiss etmək mümkündür. Onun əsəbləşməsinə səbəb isə “Azadlıq” radiostansiyasının təqdimatıdır. Əslində, bu media orqanının fəaliyyətinin Azərbaycana əks çoxsaylı təzahürlərindən xəbərdarıq. Onun ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilməsindən də. Yəni, qurum, faktiki olaraq, Birləşmiş Ştatlar administrasiyasının sifarişlərini yerinə yetirir.

Yada salaq ki, sabiq Prezident Co Baydenin zamanında “Azadlıq” Ermənistanı əməlli başlı öyür, ölkəni Cənubi Qafqazda demokratiyanın beşiyi qismində təqdim edir, “avtoritar Azərbaycan” təsəvvürü formalaşdıraraq ikincinin, guya birincini sıradan çıxarmaq, işğalçılıq niyyətlərini qabardırdı. Beləliklə, erməni iqtidarı özünü qlamur hiss edir, Azərbaycana qarşı bütün növ hoqqabazlıqlara baş vurur, ölkəmizlə sülhdən yayınırdı. Doğrudur, bütün bunların heç bir faydası olmurdu. Amma, necə deyərlər, milçək bir şey deyil, könül bulandırır.

Əlqərəz, “Azadlıq” radiostansiyası özünün “X” sosial şəbəkəsindəki hesabında Zəngəzur dəhlizi ilə bağlı kiçik video çarx paylaşıb. Video çarx aşağıdakı sərlövhə ilə yayımlanıb: “İran bundan qorxur, Türkiyə bu barədə xəyal qurur, ABŞ onun yarısını istəyir. Zəngəzura xoş gəlmisiniz”.

Bəli, “Zəngəzura xoş gəlmisiniz” ifadəsini işlədən “Azadlıq” radiostansiyasıdır. Əlbəttə, o qədər sadəlövh deyilik ki, bu media orqanının, nəhayət, obyektiv fəaliyyətə üstünlük verdiyini düşünək. Heç şübhəsiz, Birləşmiş Ştatlarda hakimiyyət dəyişikliyi yaşansa, “Azadlığ”ın obyektivlik meyarının Ağ Ev sahiblərinin baxış bucağına tabe olacağının fərqindəyik.

Amma hesab edirik ki, hər yaşanan hadisə bir tarixdir. Fakt budur ki, “Azadlıq” tarixi həqiqətə işıq salır. Bu yerdə Dekotininin əsəbləşməsi həqiqətin haqsızlığa ironiyasından başqa bir şey deyil və onun Zəngəzurun Sünik olduğunu car çəkməsi, gülməli durum yaradır. O boyda ölkənin ali diplomatik nümayəndəsi özünü elə aparır, sanki, “Azadlıq” radiostansiyası nə yayımladığının fərqində deyil.

Fransa səfirinin açıqlaması nəinki gülməli, eyni zamanda, rəzildir. Dekotini oyuncağı əlindən alınmış uşaq təsiri bağışlayır. Uşaq isə bir qayda olaraq ağlayır. Yəni, Fransa səfirinin yazdıqları ağlamağa oxşayır. Ağlayan isə böyük ölçüdə onun ölkəsidir və tam əminliklə deyə bilərik ki, Dekotininin “Azadlığ”ın Zəngəzur dəhlizi ilə bağlı paylaşımına reaksiyası Fransanın Ermənistan üçün mərsiyəsindəki bir etüddür.

Bəli, “Azadlıq” radiostansiyasının Zəngəzur dəhlizi ifadəsi ABŞ dövlətinin məsələyə münasibətidir. Ancaq başlıca məqam heç bunda da deyil. Başlıca məqam ötən beş ildə Azərbaycan hakimiyyətinin, şəxsən Prezident İlham Əliyevin Zəngəzur dəhlizi məntiqini beynəlxalq miqyasda təbliğ etməsidir. O da məlumdur ki, bu böyük təbliğat işi müəyyən mərhələdə sözügedən ideyanı sadəcə qorudu, onu it-bata düşməməkdən sığortaladı.

Ancaq ölkəmiz öz işini gördü, strateji kursundan bir an belə geri dayanmadı, zamanını gözlədi. Bu gün beynəlxalq aləm Zəngəzur dəhlizindən danışır. Prezident İlham Əliyevin 44 günlük müharibədən sonra Naxçıvana yol xüsusunda dünyanın siyasi terminologiyasına qazandırdığı dəhliz məntiqi artıq tam oturuşmuş anlayışdır.

Artıq, böyük ölçüdə, Sünik deyən yoxdur. Nəinki yoxdur, ümumən Zəngəzur dəhlizi xüsusunda onun Sünik adlı suveren Ermənistan ərazisi olması kimi məsələlər yada salınmır. Çünki beynəlxalq ictimaiyyət daha böyük reallıqla hesablaşmaq məcburiyyətindədir. Söhbət Azərbaycan reallığından gedir. Azərbaycan reallığının diktə etdiyi isə ilahi ədalətdir, xalqımızın zaman-zaman üzləşdiyi haqsızlıqların bir-bir aradan qaldırılması əzmi və iradəsidir. Dünya anlamalıdır ki, biz daha əzilən xalq olmayacağıq. Biz bizim olana mütləq sahiblənəcəyik. Qarabağa və otuz ilə yaxın müddətdə işğal altında qalmış digər torpaqlarımıza sahibləndiyimiz kimi.

Nəzərə alaq ki, Qarabağ dirənişimizə də “olmaz” demiş, inamsızlıq aşılamış, çalışmışdılar ki, başımıza gətirilənləri unudaq, vəziyyətlə barışaq. Amma bacarmadılar. Yenə də haqqımız olanı əldə etmək uğrundakı mücadiləmizə əngəl ola bilməyəcəklər. Zəngəzur dəhlizi, yəni Naxçıvana yol da haqqımızdır. Prezident İlham Əliyevin 31 dekabr 2022-ci ildə xalqa müraciətində bildirdiyi kimi: “Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır”.

Dekotini Prezident İlham Əliyevin iyulun 19-da Xankəndidə III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə dilə gətirdiyi aşağıdakı fikirləri də qulağında sırğa etməlidir: “Bizim üçün isə ən başlıca məsələ odur ki, - mən Əbu-Dabidə həmkarıma dedim, - bizim Azərbaycandan Azərbaycana maneəsiz və təhlükəsiz keçidimiz olmalıdır. Bu, Azərbaycanın bir bölgəsindən ölkənin digər bölgəsinə keçiddir. Bizim yüklər və bizim vətəndaşlar, Azərbaycan vətəndaşları hər dəfə orada sərhədçi erməninin simasını görməli deyil. Budur bizim tələbimiz. Bu, legitim tələbdir, bu, ədalətli tələbdir. Əks təqdirdə bizim vətəndaşlarımız təhlükə altında olacaqdır. Mən yaxşı xatırlayıram, sovet dövründə qatar Bakıdan Naxçıvana hərəkət edərkən məhz Ermənistan ərazisindən Zəngəzurdan keçən bir hissədə qatara daş atılırdı, nəticədə qatarın pəncərələri qırılırdı. Biz bunu çox yaxşı xatırlayırıq və bu, sovet dövrü idi. Bu nizam-intizam və cəza mexanizmlərinin hökm sürdüyü bir dövrdür. Bu gün biz vətəndaşlarımızı riskə ata bilmərik. Ona görə orada heç bir fiziki təmas olmalı deyil və onlar üçün təminatlı tədbirlər həyata keçirilməlidir ki, insanlar və yüklər təhlükəsiz şəkildə hərəkət etsin. Bu, legitim tələbdir”.

Ermənistan və havadarları anlamalıdırlar ki, dəhliz haqqımız Qarabağ haqqımız kimi müqəddəsdir. Çünki başımıza gətirdikləri çeşidli oyunların, yaşatdıqları bütün məhrumiyyətlərin qayəsində bizi bu coğrafiyadan silmək, varlığımızı heçə saymaq niyyətləri dayanmışdı. Unutmamalıyıq ki, Zəngəzuru bizdən qoparan qüvvələr sonradan Qarabağa da tamah saldılar. Çünki Qarabağ və Zəngəzur eyni zəncirin halqaları idilər. Bu səbəbdən Qarabağ davamızın Zəngəzur cəbhəsi var və olmalıdır. Amma hələlik səbr edirik. Yaxşı olar ki, dekotinilər və digər ermənipərəstlər səbrimizi sınamağa, gündəmə gətirdikləri mənasız fikirlərlə ilahi ədalətə kölgə salmağa, Ermənistanın düşdüyü bataqlıqdakı yerini möhkəmləndirməyə cəhd göstərməsinlər. Anlasınlar ki, Sünikdən daha böyük reallıq Zəngəzur dəhlizidir. Dərk etsinlər ki, Sünik Zəngəzurdan keçə bilər, Zəngəzur Sünikdən yox. Əlbəttə ki, qızışdırdıqları Ermənistan bataqlıqda boğulmasa...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Tam gizli” qrifli sənədlər

## Xəyanətlər ermənilərin türk düşmənçiliyinə ayna tutur

**(əvvəli qəzetin 24 iyul sayında)**

Cənubi Qafqazda Rusiya ilə Türkiyə arasında qurulan ittifaq yeni bir siyasi palitra yaratmışdı. Artıq “indiki Ermənistan”dakı (Qafqaz) gələcək sovet idarəsinin yalnız sözdə deyil, praktik olaraq “Böyük Ermənistan” düşüncəsindən vaz keçməsindən sonra Qafqazda qalan Türkiyə ermənilərinin “vətənə” qaytarılması təklif edilirdi. Bundan əlavə, Ermənistanda müsəlmanları sıxışdırmaq, narahat etmək siyasətinə birdəfəlik son qoyulmalı, beləliklə, müsəlman kütlələrinin etimadı qazanılmalı, həm türk xalqı ilə, həm də ermənilərlə müsbət münasibətlər qurmaqla erməniləri Türkiyəyə – yaşadıqları bölgələrə geri qaytarmaq mümkün ola bilərdi. Vəziyyətdən yeganə çıxış yolu kimi bu variant təklif olunurdu. Erməni bolşevik A.Mikoyanın “indiki Ermənistan” ifadəsindən sonra mötərizədə “Qafqaz” yazması yeni geosiyasi reallığı əks etdirirdi.

Ermənistan Kommunist Partiyasının III Kommunist İnternasionalın I Konqresindəki nümayəndəsi olan Mikoyan belə yazırdı: “Ermənistan Respublikası – həyasız bir saxtakarlıq, erməni xalqının öz müqəddəratını həqiqətən təyin etməsinin saxtalaşdırılmasıdır”. Osmanlı İmperiyasını, Türkiyə dövlətini, türkləri ermənilərə qarşı “soyqırımı” törətməkdə ittiham edən ermənilər 1,5–2 milyon soydaşlarının öldürüldüyünü yaymağa davam etdikləri halda, erməni kommunisti beynəlxalq tribunada Türkiyə ermənilərinin 300 min, sonralar isə 500 min qurban verdiyini bildirmişdi. Həm də bu itkilərin daşnakların “irəlini görə bilməyən və macərapərəst siyasətləri” nəticəsində baş verdiyini qeyd edirdi. Bu sənədlərdə ittiham olunan Türkiyə və ya Osmanlı dövləti deyil, Daşnaksütyun partiyası və onun liderləri idi. Bu səbəbdən sənədin yayılmasını erməni siyasi dairələri etirazla qarşılamışdı.

Birinci Dünya müharibəsinin sonunda, 1915-ci il hadisələrinə yaxın bir erməni kommunistinin səsləndirdiyi bu rəqəmlər və səbəblər indiki erməni siyasətçilərinin və ziyalılarının iddiaları ilə tamamilə ziddiyyət təşkil edir. Türkiyənin milli istiqlal savaşı ilə Sovet Rusiyası arasında qurulan müttəfiqlik əlaqələri nəticəsində “Türkiyə Ermənistanı” məsələsi uzun müddətə dondurulmuş oldu. Hətta erməni kommunistlərindən bəziləri Türkiyə erməniləri arasında iş aparmaq üçün erməni kommunistlərinin Türkiyə Kommunist Partiyasında birləşməsini və lazım olarsa bu partiyanın xüsusi erməni fraksiyasının yaradılmasını təklif edirdilər. Onlar Türkiyə erməniləri arasında fəaliyyət göstərmək üçün Ermənistan Kommunist Partiyasının siyasi gücünü kifayət hesab etmirdilər. Bu partiyanı “vahid bir Ermənistan (Qafqaz və Türkiyə) uğrunda mübarizə aparan, kommunizm adı altında erməni millətçiliyini yayan, sovet hakimiyyəti uğrunda mübarizə adı altında müsəlmanları qıran bir təşkilat” kimi dəyərləndirirdilər.







Ortaya çıxarılan yeni sənədlərdə qeyd edilir ki, Ermənistanda “Erməni məsələsi”nə xüsusi yanaşma formalaşmamışdı. Bolşeviklər Rusiyada hakimiyyəti ələ keçirdikdən sonra Rusiyanın “erməni məsələsi”nə baxışının dəyişmədiyini söyləmək mümkündür. Yeni Rusiya üçün “erməni məsələsi” müharibədən əvvəlki vəziyyətdən və “Türkiyə Ermənistanı” ilə bağlı iddialardan ibarət idi.

Təqdim olunan digər “gizli “ sənəd 1920-ci il dekabr ayının 6-da Ermənistan Sovet Sosialist Respublikası İnqilab Komitəsinin sədri S.Kasyan tərəfindən imzalanmış ilk dekret–ümumi qərardır. Bu, erməni tədqiqatçılar tərəfindən aşkarlanmış yeni sənəd idi və Ermənistanda ona “xəyanət sənədi” adı verilmişdi.

Həmin dekretlə Ermənistanda fövqəladə komissiya yaradılır, İnqilab Komitəsinin rəhbərliyinə Ayvazyan gətirilir, onun müavini isə Amatuni adlı bolşevik olacaqdı. Əsas məqsəd əvvəlki daşnak hakimiyyəti liderlərini mühakimə etmək və onları siyasi səhnədən uzaqlaşdırmaq idi. Mərkəzdən – yəni, Stalin tərəfindən göndərilmiş təlimat əsasında hərəkət edən Kasyan Türkiyəyə qarşı düşmənçilik siyasəti yürütmüş 21 nəfəri həbs etdirmişdi. Türklərlə Sərdarabad döyüşündə qəhrəman kimi tanınan Qorqanyan və Hamazasp da daxil olmaqla 21 erməni siyasi və hərbi lider həbsə alındı. 1920-ci il noyabrın 29-da Azərbaycan üzərindən 11-ci qızıl ordu ilə Ermənistana daxil olan Avis Nuricanyan özü adamları döyür, onları alçaldırdı. İndi bu sənədlərin üzə çıxması ermənilərin nə dərəcədə qəddar olduqlarını ortaya qoyur.

Daha bir “gizli” sənəd Rusiya–Türkiyə əməkdaşlığına aiddir. Bolşevik–Kemalist əməkdaşlığının ilk addımları Xəlil Paşa (Menteşe) tərəfindən atılmışdı. Digər paşa – Ali Fuat 1921-ci ilin fevralında ilk səfir kimi Moskvaya yola düşmüşdü. 1919-cu ilin sonlarında Xəlil Paşa Mustafa Kamalın əmri ilə Bakıya gəlmiş, daha sonra Moskvada Çiçerin və Karaxanla görüşmüşdü. Türk vilayətlərindəki vəziyyəti ruslara ətraflı izah edərək ermənilərin və ingilislərin planlarından bəhs etmiş, türklərin İngiltərə hökumətini məğlub etmək əzmini dilə gətirmişdi. Yeni bir hökumətin tezliklə qurulacağı yönündəki fikirlərə bolşevikləri inandırmış, iki ölkə arasında münasibətlərin qurulmasının hər iki tərəf üçün faydalı olacağını vurğulamış və onları Türkiyəyə silah və sursat göndərilməsinə inandırmışdı.

Həmin sənəddən öyrənirik ki, Bakı o illərdə kamalistlərin fəaliyyəti üçün bir mərkəzə çevrilmişdi. 1920-ci il iyulun 20-də Xəlil Paşa Moskvadan Bakıya geri dönmüş və Sovet yetkililəri tərəfindən rəsmi və təntənəli şəkildə qarşılanmışdı. Könüllülərin toplandığı Qusarda qeydiyyat və hərbi hazırlıq işləri sürətləndirilmiş, yeni İslam Ordusu dərhal təşkil olunmuşdu. Sovet hakimiyyəti bu ordunun xərclərini, geyimini, silah və sursatını təmin edərək Xəlil Paşaya dəstək vermişdi. Orduya rəhbərlik edən sovet zabiti idi. Rusiyanın müxtəlif bölgələrindən – Krım, Kazan, Ufa və Türküstandan gələn könüllü müsəlmanlar bu orduya daxil olmuşdular. Xəlil Paşa Sibirdən qayıdan türk əsirlərini də ordusuna cəlb edirdi. Hərbi hissələr sürətlə hazırlanır, ordu Qarabağ və Zəngəzuru keçərək Türkiyə sərhədinə çatmağı planlaşdırırdı. Yəni bolşeviklər yeni bir türk ordusunun qurulmasına yardım edirdilər.

Ermənistanda nəşr olunan “Lragir” adlı qəzetdə Vahram Tokmaçyan ( “Şüurlu Vətəndaşlar Cəmiyyəti” ) imzası ilə dərc olunan yazı “A. Mikoyan və S. Kasyanın anti-insani və anti-erməni səhifələri” adlandırılmışdı. Bundan dərhal sonra “Yelk” adlı siyasi blok paytaxt İrəvanda bolşevik ermənilər – Kasyan, Mikoyan və Frunze adlarını daşıyan küçələrin adlarının dəyişdirilməsini təklif edirlər. Onların fikrincə, bu şəxslər küçə adı daşımağa layiq deyillər. Nümunə kimi göstərilən bir sənədə istinad edirlər. Bəs Kasyanın “anti-erməni fəaliyyəti” nədən ibarət olub? 1920-ci il 2 dekabr müqaviləsi ilə Ermənistandakı hakimiyyət bolşeviklərin əlinə keçmişdi. Hökumətin əsl idarəedici orqanı – Sarkis Kasyanın rəhbərlik etdiyi İnqilab Komitəsi idi. Ermənistanda hakimiyyətə gəlməzdən əvvəl Kasyan ölkədən qaçmağa nail olmuş və hökumət əleyhinə fəaliyyəti səbəbindən Gürcüstanda iki dəfə həbs edilmişdi. Türk–erməni müharibəsi zamanı o və bir neçə digər erməni rəsmisi Ermənistandakı bolşeviklərə məktub göndərmişdilər. İndi həmin “gizli” qrifli məktub ortaya çıxmışdır. Məktubda yazılırdı ki: Erməni bolşeviklərin əsas vəzifəsi bu olmalıdır: “...Müharibə aparan erməni ordusunu hər yolla məhv etmək, yəni:

a) Ordu sıralarının dağılmasını təşkil etmək və orduya səfərbərliyi hər cür şəkildə əngəlləmək;

b) Əsgərlərin cəbhədə bunu anlamasını təmin etmək: onlar irəliləyən türklərə atəş açmasınlar, mövqelərini tərk edərək arxa cəbhəyə qayıtsınlar;

c) Komandirlərin əmrlərinə tabe olmasınlar və lazım gəlsə, onları məhv etsinlər.

Bütün bunlarla yanaşı, daha mühüm bir məsələ vardı: Ermənistan Respublikasının əsgərlərinə izah etmək lazım idi ki, qalib türk əsgəri inqilab əsgəridir, o, sadəcə məğlub olmuş ölkəyə qarşı hər hansı pis hərəkətə yol verməyəcək, eyni zamanda, Ermənistan xalqını imperialist maşası olan Daşnaksütyundan qurtarmaq üçün dəstəkləyəcək. Bir daha başa salmaq lazımdır ki, Daşnaksütyunun hökmranlığından qurtulmaq o deməkdir ki, Ermənistan daim Rusiyaya bağlı olacaq, müharibə bitəcək və aclıqla, münaqişələrlə dağıdılmış ölkə Rusiyanın çörəyinə əl uzada biləcək, dünya inqilabının böyük işinə öz töhfəsini verəcək. Həmin məktuba Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvləri S.Kasyan, A.Mravyan, A.Nuricanyan, Ş.Amirhanyan, İ.Dovlatyan, A.Hovhannisyan imza atmışdılar (No: 218, Bakı, 1920, 20 sentyabr.)”

Məktubun sonunda bir qeyd də var: “Bu yazını yalnız məhdud toplantıda oxumaq və sonra dərhal yandırmaq lazımdır”.

Bu sənədin üzə çıxması erməniləri niyə qəzəbləndirmişdir? 2 dekabr tarixindən dərhal sonra razılaşma müddəalarına baxmayaraq, Sarkis Kasyanın rəhbərlik etdiyi hökumət həbslər əmri vermişdi. İrəvana çatdıqdan sonra bolşeviklər 11-ci Ordunun yardımı ilə dərhal kütləvi həbslərə başladılar, keçmiş hökumətin minə yaxın üzvünü həbs etdilər. 1921-ci ilin yanvarın 24-də sağ qalmış təxminən 1400 erməni zabiti Rusiyaya sürgün edildi. İnqilab Komitəsinin qərarı ilə İrəvan həbsxanasında bir neçə siyasi və hərbi lider güllələnmişdi.

**(ardı var)**

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Stokholmda enerji savaşı: İrəvan arbitraj qarşısında



**(əvvəli 1-ci səhifədə)**

Hələ Karapetyanın həbsindən bir neçə saat sonra baş nazir Nikol Paşinyan "Ermənistan Elektrik Şəbəkələri" şirkətinin milliləşdirilməsi planlarını açıqlamışdı. O qeyd etmişdi ki, Karapetyan elektrik enerjisinin verilməsi məsələsində böhran yaratmaqla əhalini hakimiyyətdən narazı salmaq istəyir. Buna görə də QSC-nin milliləşdiriləcəyini, bununla enerji sektorunun xarici təsirdən azad olunacağını bildirmişdi. Bundan sonra qəbul edilmiş yeni hüquqi vəziyyətə əsasən, Ermənistanın Dövlət Xidmətlərini Tənzimləmə Komissiyası ciddi pozuntular aşkarlandığı halda şirkət rəhbərliyini müvəqqəti olaraq vəzifəsindən kənarlaşdırmaq, enerji və ya idarəetmə sahəsində azı 5 il təcrübəyə malik müstəqil idarəçi təyin etmək səlahiyyətinə malikdir. Komissiya yeni idarəçi kimi Paşinyanın silahdaşı Romanos Petrosyanı təyin edib.

Lakin iqtisadçı ekspertlər bu addımın həm iqtisadi baxımdan riskli, həm də investisiya mühitinə zərər vura biləcəyini qənaətindədirlər. Onların fikrincə, bu cür qərarların siyasi motivlərlə verilməsi uzunmüddətli perspektivdə Ermənistan iqtisadiyyatına problemlər yarada bilər. Bu yanaşmanın müəllifləri hesab edirlər ki, enerji sektorunun milliləşdirilməsi investorlar arasında hüquqi sabitliyə və mülkiyyət toxunulmazlığına dair şübhələr yaradacaq. Ekspertlər öz fikirlərini bununla əsaslandırırdılar ki, Karapetyanın nəzarətində olan strukturun fəaliyyəti beynəlxalq auditdən keçmiş və müəyyən şəffaflıq meyarlarına uyğun hesab olunur. Milləşdirmə prosesi, həmçinin Ermənistanın Rusiyadan asılılığını azaltmaq yerinə, yeni maliyyə və texniki problemlər doğura bilər. Odur ki, bəzi dairələr hakimiyyətin bu addımının Karapatyanın cəzalandırılması və daxili siyasi gündəmin idarə olunması məqsədi daşıdığını düşünürlər.

Ancaq Karapetyanın hüquqlarını müdafiə şurası da boş oturmayıb. Onlar "Ermənistan Elektrik Şəbəkələri" şirkətinin milliləşdirilməsi ilə bağlı Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunda (bu qurum Stokholm Beynəlxalq Arbitraj Məhkəməsi kimi də tanınır–S.H.) Ermənistan hökumətinə qarşı arbitraj mübahisəsi qaldırıblar. Şikayət "Liormand Holdings Limited" şirkətinin, "Taşir şirkətlər qrupunun sahibi S.Karapetyanın, onun həyat yoldaşı Eterinin, oğlu Sarkisin və qardaşı Karenin adından göndərilib.

Fövqəladə hallar üzrə arbitr Patrik Lindfors Ermənistan dövlətindən tələb edib ki, hökumət parlamentin bu yaxınlarda qəbul etdiyi "Energetika haqqında" və "Dövlət xidmətlərini tənzimləyən orqan haqqında" qanunlara düzəlişləri tətbiq etməkdən, həmçinin, şirkətin aktivlərinin ələ keçirilməsinə yönəlmiş hər hansı addımlardan çəkinməlidir. Beləliklə, Karapetyanın müdafiə şurası qərarın onların lehinə çıxarıldığını və bununla qane olduqlarını bildiriblər.

Ancaq Paşinyan hökuməti qərarı fərqli şəkildə interpretasiya edib. Ermənistan Nazirlər Kabinetinin bununla bağlı yaydığı məlumatda deyilir: "Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun EA 2025/121 saylı qərarı ilə bağlı bildiririk ki, təcili qaydada baxılan məsələlərin dairəsi müvəqqəti idarəçinin təyin olunması və onun həyata keçirdiyi tədbirlərin məqsəd və mahiyyətindən fərqlidir".

Xüsusilə, hökumətin qeyd edib ki, müvəqqəti idarəçinin hərəkətlərinin məqsədi qəsdən enerji böhranı yaratmaq risklərinin qarşısının alınmasından, ictimai asayişin təmin edilməsindən, dövlət təhlükəsizliyini təhdid edən risklərin, şirkətdə sui-istifadə hallarının baş verməsinin aradan qaldırılmasından və gələcəkdə qarşısının alınmasından ibarətdir. "Xarici arbitrajlar tərəfindən tətbiq olunan təminat tədbirlərinə hörmətlə yanaşsaq da, hamı eyni zamanda Ermənistan qanunvericiliyi və arbitraj qərarlarının tanınması, icrası və prosedurlarını müəyyən edən beynəlxalq müqavilələrə də riayət etməlidir" – deyə Ermənistan hökumətinin açıqlamasında qeyd olunub. Onu da bildirək ki, Ermənistan prezidenti Vaaqn Xaçaturyan parlamentin QSC-nin dövlət nəzarətinə qaytarılmasını nəzərdə tutan qanunlara etdiyi düzəlişləri imzalayıb.



Ölkənin sabiq ombudsmanı, revanşist kəsimin nümayəndəsi Arman Tatoyan iqtidarın mövqeyini tənqid edərək bildirib ki, Arbitraj İnstitutunun qərarı ilə bağlı Ermənistan hökumətinin iyulun 23-də səsləndirdiyi mövqe nümayiş etdirir ki, rəsmi İrəvanın xarici investorların müdafiəsi ilə bağlı imzaladığı beynəlxalq müqavilələr hökumət başçısını şəxsən və ya siyasi baxımdan qane etməsə, icra olunmayacaq: "Belə məntiq özbaşınalığa yol açır. Aydın olur ki, beynəlxalq məhkəmənin (məsələn, Avropa İnsan Haqları Məhkəməsinin) baş naziri qane etməyən və ya hökumət üçün təhlükəli sayılan istənilən qərarına məhəl qoyulmayacaq. Bu yanaşma xüsusilə sərmayələrin cəlb edilməsi kontekstində Ermənistanın beynəlxalq reputasiyasına ciddi zərbə vurur".

*

Bu istiqamətdə "Joxovurd" qəzetinin yazdıqları maraq doğurur. Nəşr bildirib ki, Arbitraj Məhkəməsinin qərarı Paşinyanın bütün planlarını alt-üst edib. Qeyd olunub ki, hakimiyyət orqanları "Ermənistan Elektrik Şəbəkəsi"ni ələ keçirdiklərini və hər şeyin qaydasında olduğunu göstərməyə cəhd etsələr də, əslində, daxildə vəziyyət kifayət qədər gərgindir: "Mənbələrimiz bildirir ki, Nikol Paşinyan Romanos Petrosyanı məsələləri həll etmək üçün 4 ay müddətinə müvəqqəti idarəçi kimi şirkətə göndərsə də, arbitrajın qərarı onun bütün planlarını alt-üst edib. Məhkəmə təcili yekun qərar çıxara və Petrosyanın bütün addımları uğursuzluqla nəticələnə bilər. Yekun qərar Petrosyanın şirkəti əliboş tərk etməyə məcbur edə bilər. Hakimiyyət hazırda problemlərin həllini sürətləndirmək üçün çıxış yolu axtarır, lakin hələlik uğur əldə edə bilmir".

Bütövlükdə, əldə olunan məlumatlar və baş verən hadisələrin ümumi axarı göstərir ki, Ermənistanın enerji sektorunda baş verənlər sadəcə iqtisadi deyil, həm də hüquqi və geosiyasi xarakter daşıyır. "Ermənistan Elektrik Şəbəkəsi" QSC-nin milliləşdirilməsi ilə bağlı təşəbbüs, ilk baxışdan enerji təhlükəsizliyinin təmin olunmasına yönəlik addım kimi dəyərləndirilsə də, bu proses ətrafında formalaşan müzakirələr və beynəlxalq arbitraj müstəvisində başlayan hüquqi mübahisələr məsələnin daha dərinə gedən çalarlarını ortaya qoyur.

QSC-nin səhmlərinin 100 faizinin "Taşir şirkətlər qrupunun, daha dəqiqi S.Karapetyan ailəsinin mülkiyyətində olması və milyarderin hazırda İrəvanda həbsdə saxlanılması bu qərarı təkcə iqtisadi yox, həm də siyasi ölçülərlə dəyərləndirməyə əsas verir. Məlumdur ki, Karapetyana qarşı yönələn ittihamlar sırf siyasi və təhlükəsizlik kontekstində təqdim olunur. Yəni o, hakimiyyəti ələ keçirməyə çağırışda ittiham edilir. Bu da hökumətin enerji sektorunda həyata keçirdiyi tədbirləri milli təhlükəsizliklə əsaslandırmasına zəmin yaradır. Ermənistan hökumətinin bəyanatlarında da vurğulanır ki, müvəqqəti idarəçinin təyin olunmasında əsas məqsəd ictimai asayişin və dövlət təhlükəsizliyinin qorunmasıdır. Lakin paralel olaraq Karapetyan tərəfi məsələyə hüquqi müstəvidə yanaşaraq, Arbitraj İnstitutunda şikayət qaldırıb və ilkin mərhələdə müəyyən müvəqqəti təminat qərarlarının əldə edilməsinə nail olub. Bu baxımdan yaranan situasiya Ermənistan hökuməti üçün çoxtərəfli problemlər toplusudur. Bir tərəfdən enerji sektorunun dayanıqlılığı, digər tərəfdən isə investisiya mühitinin sabitliyi məsələsi ön plana çıxır. Beynəlxalq arbitrajın prosesi izləməsi və qərarlarının rəsmi İrəvan tərəfindən fərqli şəkildə şərh olunması onu göstərir ki, hökumət həm daxili, həm də beynəlxalq ictimaiyyət qarşısında bu addımı izah etmək üçün çox diqqətli davranır. Həm də hökumətin açıqlamasında arbitrajın qərarlarının tanınması və icrası ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunacağı vurğulanır. Bu, Ermənistanın beynəlxalq öhdəliklər çərçivəsində hərəkət etməyə çalışdığını göstərir.

Digər tərəfdən isə "Joxovurd" qəzetinin yazdıqları daxili idarəetmədə gərginliyin olduğunu üzə çıxarır. Mənbələrin iddiasına görə, müvəqqəti idarəçi təyin olunan R.Petrosyanın fəaliyyəti məhdud çərçivədə qalır və arbitrajın yekun qərarı bu idarəetmənin dayandırılmasına səbəb ola bilər. Bu halda hökumət yeni çıxış yolları axtarmaq məcburiyyətində qalacaq. Bütövlükdə, "Ermənistan Elektrik Şəbəkəsi" ətrafında gedən proseslər təkcə bir şirkət ətrafında formalaşan iqtisadi mübahisə deyil, həm də ölkənin enerji siyasətində yeni istiqamətlər, hüquqi möhkəmlik və investisiya sabitliyi arasında tarazlıq axtarışıdır. Bu prosesin necə yekunlaşacağı hələlik bəlli deyil, lakin istənilən qərar həm daxili siyasi sistemə, həm də Ermənistanın beynəlxalq imicinə təsirsiz ötüşməyəcək.

***Səxavət HƏMİD***
***XQ***

**Gürcüstanın NATO-ya inteqrasiya arzusu uzun illər boyu ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olub. Lakin bu yol, sadəcə, çətin olmadı, həm də nəticəsiz qaldı. Son günlər baş verən hadisələr, xüsusilə, "Gürcü arzusu" partiyası tərəfindən NATO və Avropa İttifaqı (Aİ) üzrə İnformasiya Mərkəzinin rəsmi şəkildə ləğv edilməsi rəsmi Tbilisinin artıq bu istiqamətdə irəliləmək niyyətində olmadığını açıq şəkildə ortaya qoydu. Mərkəzin uzun müddət fəaliyyətsiz qalması, binanın baxımsız vəziyyətdə olması və ictimai diqqətdən kənarda qalması Gürcüstanın NATO ilə münasibətlərinin soyuqlaşdığını təsdiqləyirdi. Hakim "Gürcü arzusu" partiyasının bu mərkəzi ləğv etməsi artıq münasibətlərin formal səviyyədə bitdiyini göstərdi.**



# Tbilisi NATO-ya "əlvida" deyirmi?

## *Gürcüstan bağlı qapı arxasında gözləməkdən yorulub*

Gürcüstanın NATO ilə əlaqələrinin əsası 1990-cı illərin ortalarında qoyulub. SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan bu Cənubi Qafqaz ölkəsi Qərblə inteqrasiya yolunu seçdi. İlk ciddi siqnalı Gürcüstanın ikinci prezidenti Eduard Şevardnadze verdi. Onun rəhbərliyi altında Gürcüstan NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramına qoşuldu. 1997-ci ildə ölkə Qüvvələrin Statusu Anlaşmasını ratifikasiya etdi və 1999-cu ildən etibarən sülhməramlı kontingentlərini Kosovodakı beynəlxalq qüvvələrə yardım üçün göndərdi. 2001-ci ildən başlayaraq Gürcüstan ərazisində çoxmillətli hərbi təlimlər təşkil olunmağa başlandı. 2002-ci ildə isə Gürcüstan rəsmi şəkildə NATO-ya üzv olmaq istədiyini bəyan etdi və Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı (IPAP) hazırlamaq niyyətini bildirdi.



Bu dövrdə Gürcüstan NATO ilə yaxınlaşmanı Rusiya və Qərb arasında manevr imkanı kimi görürdü. Qərblə əlaqələri genişləndirməyə çalışsa da, Moskva ilə açıq qarşıdurmadan yayınmağa çalışırdı. Lakin bu balans siyasəti uzun müddət davam etmədi. Eduard Şevardnadzenin istefası və 2004-cü ildə Mixail Saakaşvilinin hakimiyyətə gəlməsi ilə Gürcüstanın NATO və Qərblə inteqrasiyası daha da sürətləndi. M.Saakaşvili bu məsələyə təkcə siyasi istiqamət kimi deyil, milli strateji prioritet kimi yanaşdı. 2008-ci ildə keçirilmiş ümumxalq sorğusunda seçicilərin 77 faizi Gürcüstanın NATO üzvlüyünü dəstəklədi. Bu nəticə ölkə ictimaiyyətinin qərbyönlü meyillərinin və təhlükəsizlik ehtiyaclarının kollektiv müdafiə sistemi ilə əlaqələndirildiyini göstərirdi.

Lakin həmin il baş verən Rusiya–Gürcüstan müharibəsi bu arzuya ciddi zərbə vurdu. NATO müharibədən sonra Tbilisiyə üzvlüklə bağlı konkret tarix vermədi və vəziyyətin sabitləşməsini gözlədiyini bildirdi. Həmin vaxtdan etibarən Gürcüstan uzun illər gözləmə mövqeyində qaldı. Bu illər ərzində təkcə bəyanatlarla kifayətlənilmədi, konkret addımlar atıldı. Gürcüstan NATO-nun rəhbərlik etdiyi bir sıra beynəlxalq hərbi missiyalarda, o cümlədən Əfqanıstanda və İraqda fəal iştirak etdi, bu ölkələrdə itkilər verdi. NATO standartlarına uyğun islahatlar aparıldı, ikitərəfli hərbi əməkdaşlıqlar quruldu, ölkədə NATO təlimləri keçirildi. Lakin bütün bu səylərə və qurbanlara baxmayaraq, Gürcüstan arzuladığı strateji nəticəni əldə edə bilmədi. Zaman keçdikcə ictimai rəydə də dəyişikliklər hiss olunmağa başlandı. Hakimiyyətlər dəyişsə də, amma NATO xəyalı gerçəkliyə çevrilmədi.

2024-cü ildə NATO üzrə hazırlanan yekun hesabat Gürcüstan üçün vəziyyətin artıq beynəlxalq səviyyədə də dəyişdiyini ortaya qoydu. Həmin hesabatda Gürcüstan nə prioritet tərəfdaş kimi qeyd olunur, nə də onun üzvlüyə yaxınlaşması ilə bağlı ümidverici ifadələr yer alır. Bu, açıq şəkildə NATO-nun Gürcüstanı artıq gələcək planlarına daxil etmədiyini göstərdi. Belə bir vəziyyətdə NATO və Aİ İnformasiya Mərkəzinin bağlanması texniki və ya təsadüfi qərar deyil, Gürcüstan hakimiyyətinin tam şüurlu şəkildə verdiyi strateji qərardır. Bu addım həm daxili auditoriyaya mesaj vermək, həm də beynəlxalq ictimaiyyətə Gürcüstanın geosiyasi oriyentasiyasını dəyişmək niyyətində olduğunu göstərmək məqsədi daşıyır.

Hadisələrin bu fonunda Gürcüstan–Aİ münasibətlərində də gərginlik müşahidə olunur. Bu ittifaqın Gürcüstanın daxili işlərinə qarışması, bir sıra qanunların qəbuluna qarşı çıxması və parlament seçkilərinin təkrar keçirilməsi tələbi ikitərəfli münasibətlərə mənfi təsir göstərdi.

Hazırda Gürcüstan regionlararası balanslaşdırılmış diplomatiya kursunu seçə bilər. Bu kurs çərçivəsində ölkə həm Qərb, həm də Şərqlə eyni dərəcədə əlaqə saxlayaraq, daxili suverenlik və xarici təhlükəsizlik arasında tarazlıq yaratmağa çalışa bilər.

Beləliklə, bu dönüş nöqtəsi, sadəcə, xarici siyasət xəttinin uğursuzluğu kimi deyil, Gürcüstanın gələcək kimliyini müəyyən edəcək strateji seçim kimi qiymətləndirilə bilər. NATO-nun "açıq qapı" prinsipi Gürcüstan üçün artıq yalnız simvolik xarakter daşıyır. Eyni vəziyyət Aİ ilə münasibətlərdə də müşahidə olunur. Tbilisi bu qapıların arxasında çox dayandı, çox gözlədi. İndi isə görünür ki, artıq içəri dəvət olunmayacağını anlayıb və fərqli istiqamət seçmək qərarına gəlib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Lider–dövlət–xalq



**II MƏQALƏ**

## Xalq: Azərbaycan dövlətçiliyinin qaynağı

Azərbaycan dövlətçiliyi ənənəsi ilə az-çox tanışlığı olan hər kəs üçün Prezident İlham Əliyevin M.Qusmanın sualına cavabında ilk tezisinin çox dərin anlamı olduğunun fərqinə varır. "Xalqa yalan danışmamaq, ona doğruları söyləmək və vəd etmək" əsrlərin sınağından gələn çox anlamlı mövqedir. Azərbaycan dövlətinin lideri hər bir halda xalqa arxalanmalı, ona xidmət etməli və onunla dürüst davranmalıdır. Azərbaycan dövlətçilik ənənəsində belə bir qızıl qayda var: "Bəy o kəsdir ki, qövmünə ədalətlidir!". Burada "bəy" hökmdar, rəhbər, lider, başçı mənasında işlədilir. Yəni Azərbaycanda həqiqi Bəy mütləq ədalətli olmalıdır.

Azərbaycan törəsində, xalqın dünyagörüşündə və ayrıca siyasi şüurunda "ədalət"in anlamı doğruluq, dürüstlük, qanuna sayğı, xalqın həyat tərzinə uymaq ("palaza bürün elnən sürün") kimi mühüm sosial-psixoloji və mədəni anlamlarla sıx bağlıdır. Buna görədir ki, Azərbaycan dövlətçilik ənənəsində lider həmişə xalqdan güc almış, onun iradəsini ifadə etmişdir. Əsrlər boyu çoxlu sayda dövlətlər qurmaq potensialı da buradan qaynaqlanır.

Nəhayət, müasir müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında yazılır ki, "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq...".

Müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü qorumağın mənbəyi Konstitusiyanın 1-ci maddəsində açılır. Orada yazılmışdır: "I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir".

Bundan sonra isə hakimiyyətin mənbəyinin xalq olmasının hüquqi aspekti ifadə edilmişdir. Konstitusiyanın 2-ci maddəsində vurğulanmışdır: "I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir".

Konstitusiyanın 9-ci maddəsində lider-dövlət-xalq qarşılıqlı münasibətləri üçün prinsipial konstitusion və hüquqi anlamı olan bir prinsip yer almışdır. Orada yazılmışdır: "II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir".

Beləliklə, baxdığımız aspektdə ümumi mənzərə aydındır: Azərbaycanda dövlətçiliyin mənbəyi xalqdır, dövlət qurmaq xalqın suveren hüququnun əsas anlamıdır və dövlət başçısı (lider) bu prosesdə başlıca rol oynamalıdır. Yəni xalqın və dövlətin suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etməlidir.

Bu fikirlərin işığında Prezident İlham Əliyevin III Şuşa Qlobal Forumunda verilən suala cavabının çox mühüm bir aspekti önə çıxmış olur.

## Xalqın etimadı

Səhv etmiriksə, müasir müstəqil Azərbaycan dövlətçiliyi tarixində ilk dəfədir ki, "xalqın etimadı" və "dövlətçilikdə varisliyin təmini" anlayışları siyasi-nəzəri və kommunikativ aspektlərin qarşılıqlı əlaqəsində gündəmə gətirilir. Burada məntiqi bağlılıq göründüyü kimi sadə deyildir. Əgər situasiyaya ciddi siyasi-nəzəri və elmi prizmada yanaşsaq, qəbul etməliyik ki, "xalqın etimadı"nın bazasında "xalqın etibarı"nı qazanmaq durur. Eyni zamanda, xalqın etibarından xalqın etimadına keçid ayrıca idraki, siyasi və kommunikativ çalarlı mürəkkəb prosesdir. Buradan Prezident İlham Əliyevin yanaşmasının başlıca prinsipi yaranır: xalqın etimadı olmadan gerçəklikdə dövlətçilikdə varisliyi təmin etmək mümkün deyildir.

Belə alınır ki, Şuşada faktiki olaraq Prezident İlham Əliyev tarixi bir tezis irəli sürmüşdür: xalqın etibarından onun etimad göstərməsinə keçid əsasında dövlətçilikdə varisliyi təmin etmək! Bu prosesin motivəedici və istiqamətverici prinsipi isə xalqa doğruları söyləməkdən, onunla səmimi davranmaqdan ibarətdir! Niyə məhz doğruları söyləmək?

Görünür, burada bütövlükdə insan cəmiyyətinin özünüyaratması və mövcud olmasının tarixi təcrübədə formalaşmış və yazılmamış qanunları istiqamətverici rol oynayır. İnsan təbiəti elədir ki, yalnız etibar etdiyi, inandığı insanlarla birgə addımlamağa üstünlük verir. Buradan "ailə", "qonşu", "tayfa", "xalq", "qövm", "cəmiyyət", "millət" kimi birgəyaşam formalarının meydana gəlməsi və dayanıqlı olması məsələsi qarşıya çıxır. Həmin prosesdə insan yanındakından tutmuş toplumun "ən uzaq üzvünə qədər münasibətlərdə etibarı əsas götürür. "Dost" anlayışının mənasında da bu məqam həlledici rol oynayır. Əsl dost yalnız etibarlı adam sayılır.

Etibarlılığın psixoloji duyumu buna görə də insanlararası münasibətlərdə həlledici rol oynayır. Söhbət kollektiv birgəyaşamdan gedəndə bu anlayış daha mürəkkəb məna çalarları alır. Lakin hər bir halda etibarlı olmaq davamlı, qarşılıqlı sayğılı və dayanıqlı münasibətlərin təməlini təşkil edir.

Deməli, fərdlərin və ümumi halda xalqın etibarını qazanmaq çox əhəmiyyətli prosesdir. Ancaq dövlətçilikdə bu, kifayətedici deyildir. Çünki dövlət idarəetməsi sosial-psixoloji anlamda etibardan daha yüksək hüquqi, sosial, kollektivçi mənası olan "etimadı" ehtiva etməlidir. Etimad artıq toplumun konkret bir şəxsə (liderə, başçıya) öz taleyini və təhlükəsizliyini hüquqi kontekstdə etibar etməsi deməkdir. Bu anlamda etimad fərdin ailəsini, yaxınlarını, tayfanı, xalqı və bütövlükdə milləti əhatə etməlidir.

Cəmiyyətin etimadını qazanmağın mənbəyində fərdi etibarlılıq dayanır, lakin dövlətçilik kontekstində onun əyaniləşməsi (yəni səlahiyyətverici hüquqi status alması) ayrıca sosial-psixoloji və siyasi prosesdir. Onun predmetləşməsi (yəni substantivliklə funksional aspektin vəhdətinin yaranması) liderlik fəaliyyətində özünü tapır.

Bununla İlham Əliyevin III Şuşa Qlobal Media Forumunda irəli sürdüyü vacib tezisin bir aspektdə anlamının belə fəlsəfi və siyasi-nəzəri olaraq nə dərəcədə dərin və əhatəli olduğu qənaətinə gələ bilərik.

## Dövlətçilikdə varisliyin təmini

Yuxarıdakı fəlsəfi fikirlərdən İlham Əliyevin tezisinin digər olduqca əhəmiyyətli aspektinə məntiqi keçid etmək mümkündür. Lakin sözün həqiqi mənasında etibarın etimada transformasiyası və onların vəhdətdə dövlətçilikdə varisliyi təminetmədə geniş aspektli funksiyasının elmi dərki dərin tədqiqat tələb edir.

Bu, filosoflar, politoloqlar, sosioloqlar, psixoloqlar, dövlətşünaslar, kulturoloqlar qarşısında böyük bir məsuliyyətli vəzifə qoyur. Çünki dövlətçilikdə varislik yalnız sosial, siyasi, psixoloji və məntiqi xarakterli proses deyildir, onun əsas tərəfi idarəetmədir. Məhz siyasi idarəetmədə varisliklə yeniliyi (və ya müasirliyi) vəhdətdə təmin etmək strateji vəzifədir. Dövlətçilikdə varislik, maraqlıdır ki, bu iki aspektin qarşılıqlı əlaqəsində aktuallaşır və əyaniləşir. Deməli, dövlətçilikdə varislikdə daima yenilik elementi (müasirlik ruhu və parametrləri) mütləq olmalıdır. Ancaq elə olmalıdır ki, tarixi ənənə ilə ziddiyyət təşkil etməsin. Zamanın axarı dövlətçiliyin axırını gətirməsin.

Aydındır ki, bu yanaşma prizmasında dövlətçilikdə varisliyi təminetmə sırf yaradıcı proses kimi görünür. Lider yüksək səviyyədə kreativ (konkret siyasi, sosial, ictimai, geosiyasi və s. istiqamətlərdə müsbət nəticə verən) fəaliyyətə qabil olmalıdır. Lider bu mənada daim ənənə ilə müasirliyin "ortaq psixoloji, siyasi, sosial, idarətmə, xilasetmə və quruculuq sahəsində" fəaliyyət göstərməlidir.

Bəs bu fəaliyyətin özünütəsdiqi harada baş verir? Yəni siyasi lider dövlətçilikdə varisliyi davam etdirdiyini hansı üsulla cəmiyyətə və dünyaya çatdırır? Problemin bu cəhəti bir neçə baxımdan əhəmiyyətlidir. Hər şeydən öncə, liderin verdiyi sözlə əməli arasında fəlsəfi və elmi müqayisə aparmaq şansı yaranır.

Burada dövlət başçısının son Şuşa tezisinin çox mühüm üç aspektinə nəzər salmaq lazım gəlir. Bunun üçün Prezidentin III Şuşa Qlobal Media Forumunda ifadə etdiyi bir fikrə baxaq. İlham Əliyev həmin fikirdə real olaraq 3 istiqaməti vahid məntiqi müstəvidə dövlətçilikdə varislik kontekstində ifadə etmişdir.

Prezident demişdir: "Düşünürəm ki, bu, yəqin ki, əsas prinsiplərdən biridir: ilk növbədə öz xalqıma həqiqəti söyləmək. İnternet və sosial şəbəkələr dövründə yaşadığımız üçün burada dediyiniz hər şey dərhal bütün dünyada rezonans doğurur". Bu, birinci aspekt.

Ondan ikinci aspekt məntiqi olaraq alınır. Dövlət başçısı davam etmişdir: "Düşünürəm ki, bu, mənim Prezident vəzifəsində əldə etdiyim çoxillik əvəzsiz təcrübə ilə bağlıdır və onu başqa cür əldə etmək mümkün deyil. Həm də belə etibarlı münasibətlərin qurulduğu, etimad göstərə biləcəyiniz zaman".

Nəhayət, üçüncü aspektdə vurğulanan məqamların siyasi-nəzəri mənası açıqlanır: "Güvənmək razılaşmaq demək deyil, etimad göstərmək nədənsə müəyyən dərəcədə narazı olmaq və ya müsbət gündəmdən başqa bir şeyə sahib olmaq demək deyil. Güvənmək, sadəcə olaraq inanmaq deməkdir ki, əgər bir insan bunu deyibsə, deməli belə olacaq".

Bu ümumi siyasi-nəzəri xarakterli fikirləri dövlətçilikdə varislik aspektində vahid baxış bucağı altına gətirsək, belə bir məntiqi (idraki, koqnitiv) mənzərə alınır: etibar, etimad və idaretmənin təsdiqi liderin təcrübəsində ifadə olunur.

Hər hansı liderin fəaliyyətinə düzgün qiymət vermək istəyən mütləq onun fəaliyyət təcrübəsini araşdırmalıdır. Həmin kontekstdə dövlətçilikdə varisliklə milli ideya və suverenliyin təmininin siyasi təcrübə ilə dərin daxili bağlantısı üzərində də düşünmək olar. Bu baxımdan Azərbaycan Prezidentinin siyasi liderlik fəaliyyəti dövlət başçılığı ilə vəhdətdə sözün həqiqi mənasında unikal və çox faydalıdır. Problemin bu tərəfi üzərində geniş dayanmaq lazımdır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Şovinistlərə və diletantlara istinad?

## *75 yaşlı Qusmanın vəzifədən azad edilməsi qəribə görünməyə bilərdi, amma...*

**Bütün sahələrə total nəzarət, "cızığından" çıxanları ciddi cəzalandırmaq. Bu, Rusiyada nəinki hakim siyasətə əks mövqe tutanlara, hətta neytral qalanlara belə tətbiq edilən neobolşevik metodunun mahiyyətidir. Ukrayna ərazisində "xüsusi hərbi əməliyyatlara" başlayandan bəri yazılı və elektron mediası, sosial şəbəkəsi şovinizm ideologiyasına köklənmiş Rusiyada sərbəst düşüncəyə yer yoxdur. Media platformalarında ölkənin siyasi-ideolji cəbhəsinin "parlaq nümayəndələrinin" dilindən opponentlərinə münasibətdə aşağılayıcı rəftar, təhqir, hansısa dövlətin, yaxud xalqın ünvanına jarqonlar düşmür. Onlar etiraz edib neqativ atmosferə dözməyərək ölkədən gedən blogerlərə, sənətçilərə "fərari", "Vətən xaini" damğası vururlar. Özü də heç bir tərəddüdsüz.**



Məlum olduğu kimi, həmyerlimiz Mixail Qusman Rusiyanın baş naziri Mixail Mişustinin əmri ilə TASS İnformasiya Agentliyinin baş redaktorunun birinci müavini vəzifəsindən azad olundu. Şübhəsiz, onunla bağlı qərarın səbəbi III Şuşa Qlobal Media Forumunda iştirakı və ən başlıcası, ukraynalı jurnalist Dmitri Qordonun "cavabını verə bilməməsidir". Görünür, Rusiya rəhbərliyi yaşlı və alicənab Qusmandan ukraynalı həmkarı ilə qol güləşdirməsini gözləyirmişlər. Axı söz güləşdirmək mümkünsüzdür. Çünki Rusiyanın davranışı işğalçılıqdır və Qordonun da bildirdiyi bu idi.

O da məlumdur ki, Bakıda anadan olan Mixail Qusman bütün karyerası boyu Rusiya–Azərbaycan münasibətlərinin inkişafına töhfə verib, ikitərəfli əlaqələrdə müəyyən gərginliyin və anlaşılmazlığın yarandığı məqamlarda informasiya sahəsində təxribatların qarşısını almağa çalışıb, həmkarlarını təmkinli davranmağa, obyektivliyə çağırıb. O, sağlam və peşəkar jurnalist mövqeyi ilə Bakı və Moskva arasında, bir növ, körpü rolunu oynayıb. Buna görə Azərbaycanda olduğu kimi, Rusiyada da böyük nüfuz və hörmət sahibidir.

Yeddi ay əvvəl 75 illik yubileyini qeyd edən cənab Qusmanın Azərbaycana və azərbaycanlılara səmimi və təmannasız sevgisini hamı, o cümlədən jurnalist həmkarları çox yaxşı bilir. Yəni, bu, heç bir halda dramatikləşdirilməli hal olmamalı idi. Amma məşhur həmyerlimizin vəzifədən uzaqlaşdırılmasının rəsmi səbəbinin açıqlanmaması fonunda onunla bağlı qərarın verilməsində III Şuşa Qlobal Media Forumunda iştirak məsələsi ön plana çıxarılır. Sanki kimlərsə cənab Qusmanın cəzalandırıldığı ritorikasının təbliğatına girişiblər. Əlbəttə ki, belələri jurnalistlə bərabər ölkəmizi də cəzalandırdıqları təsəvvürünü formalaşdırırlar. Kənardan bu mənzərə çox rəzil görünür. Rusiya–Azərbaycan münasibətlərinin normallaşmasında önəmli statusa və rola malik nüfuzlu şəxs vəzifəsindən uzaqlaşdırılır, ölkənin rəsmiləri isə əllərinə düşən hər fürsətdə ikitərəfli münasibətlərin tezliklə əvvəlki axarına düşəcəyinə əminliklərini bildirirlər. Görəsən, bu cür addımlarla hansı pozitiv dəyişikliyə ümid bəsləyirlər? Bunu necə düşünək? Düşünək ki, müsbət ruhlu bəyanatlar verənlərlə özlərini bolşevizmin ardıcılları qiyafəsində göstərən neoleninlər ayrı-ayrı adamlardır?

Mixail Qusman o şəxslərdəndir ki, istənilən vaxt Azərbaycana gələ, buradakı yerliləri və həmkarları ilə rahat görüşə bilir. Onu doğma vətənində nəinki məsləkdaşları, hətta Prezident İlham Əliyev böyük məmnuniyyətlə qəbul edir, şəxsinə iltifat göstərir. Məhz bu cür yüksək statusa malik, iki ölkə arasında "canlı körpü"nü itirmək kimə lazımdır? Rusiyada obyektiv və neytral mövqedə dayananlara nifrət və qəzəb bu qədərmi güclüdür?

**P.S.** "TASS İnformasiya Agentliyindəki işimdən ayrılmağımla bağlı indi ərtaflı danışmaq istəmirəm. Təxminən bir həftədən sonra məsələ ilə əlaqədar ictimaiyyətə geniş açıqlama verəcəyəm". Bu sözləri Azərbaycan mediasına açıqlamasında Mixail Qusman deyib.

***İmran BƏDİRXANLI***
***XQ***

*Ekspert rəyi*

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



– Bu gün Rusiyada şovinist əhval-ruhiyyə o həddə çatıb ki, bu dalğa Kreml isteblişmentini hansısa məcburi hərəkətlərə sövq edir. Bəzi deputatlar, Telegram kanalları, blogerlər Azərbaycana qarşı, az qala, hərbi əməliyyatlara başlamaq çağırışı səsləndirirlər. Hətta "Oreşnik"lə "Bakını vuranlar", hərbi donanmanı Xəzərin mərkəzinə gətirib hədə-qorxu gələnlər diqqətdən yayınmır. Görünür, Qusmanın Şuşa Forumunda iştirak və çıxış etməsi belələrinin şəstinə toxunub. Kreml isə onların qəzəbi fonunda Qusmanı qurban verməkdən çəkinməyib.

Halbuki Mixail Qusman hazırda Rusiya mediasında ən təcrübəli, ən peşəkar jurnalistlərdən biridir. Mən onu əlli ildən çoxdur tanıyıram və aramızda səmimi münasibət var. Ola bilsin, Kreml indi onu işdən çıxarmaqla, daxildəki millətçi qüvvələrə xoş görünməyi bacardı. Peşəkarları kənarlaşdırıb iyrənc solovyovların, simonyanların ümidinə qalmaq istəyirlərsə, nə deyə bilərik?

Mixail Qusman heç nə itirmədi. 75 yaşı var idi. Hətta mümkündür ki, özü vəzifədən getmək istəyirdi. Amma aşkar anti-Azərbaycan ritorikası fonunda işdən uzaqlaşdırılması yaxşı olmadı. Əlbəttə, anlasalar, bu, Rusiyanın özü üçün də pisdir. Deməli, ölkədə heç bir dəyər, qədirbilənlik qalmayıb. Digər tərəfdən, Rusiyanın düşdüyü ağır durum var. Güman etmirəm ki, cənab Qusman belə bir durumda komandanı tək qoymaq istəyərdi. Amma onu da düşünürəm ki, indiki durumda bakılı Mixail Qusman uzun illər xidmət etdiyi, amma mövqeyi ilə razılaşmadığı komandadan böyük məmnuniyyətlə ayrılır, heyfslənmir. O komandadan ki, üzvlərinin çoxu beynəlxalq sanksiyalar altındadır.

# Dağıstanın, dağlıların xilaskarı

**Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**(əvvəli 1-ci səhifədə)**

SSRİ-yə itaətsizlikdə ittiham olunan dağlılar sürgünlə təhdid edilir, çeçenlərin, inquşların, balkarların, qaraçayların, Axısqa türklərinin, Krım tatarlarının ardınca Dağıstan xalqlarının, Dərbənd türklərinin deportasiyası planlaşdırılırdı. Moskvada, Mərkəzi Komitədə Mikoyan–Beriya cütlüyü Stalini bu məsələyə inandırmışdı. 1938-ci ildə Güneyliləri Azərbaycandan deportasiya etdirən, onları şah rejiminin, fars imperiyasının xəfiyyəsi damğası ilə ləkələyən bu "məşhur"lar indi də Dağıstanı, bu torpaqların tarixi sakinlərini, qürurun, vüqarın, cəsarətin, ləyaqətin nümunəsi olan Şeyx Şamilin varislərini Şura hökümətinin düşməni sayır, Hitler Almaniyasının casusu kimi ləkələyir, şərləyirdi. Hər şeyin zamana, vaxtı ədalətin nəfinə işlədən sərkərdəyə ehtiyacı var idi.

İngilis hərbi birləşmələri İranda Rza şahın himayəsində SSRİ-nin cənub cəlladı kimi görünəndə Mircəfər Bağırov Stalinlə görüşdə cənub səngərini möhkəmlətmək, Bakı neftini ingilis, alman hərbi birləşmələrindən xilas etmək üçün Mərkəzi Komitədə ən etibarlı kadrlarından biri kimi qəbul etdiyi Əziz Məmmədkərim oğlunun sovet qoşunları, hərbi birləşmələri tərkibində siyasi rəhbər kimi Güney Azərbaycana, İrana göndərilməsini təklif edir. Özü də qafqazlı olan və Azərbaycan kişisini cəsarət, ləyaqət nümunəsi kimi qəbul edən Stalin Bağırova inanır. Bu inam, etimad Azərbaycanın cənubunda, tarixi torpaqlarında yaşayan türklərin və kürdlərin tarixi taleyini həll edir. Şah rejiminin, farsların Sovet hökuməti ilə münasibətlərindəki problemlərin çözülməsinə rəvac verir. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə qurulan Milli hökumətdə müsbət izini qoyur. Əziz Əliyevin qüdrətli ictimai-siyasi xadim obrazını yaradır.

Onun dağlar diyarına gəlişi isə Dağıstanın mərd, cəsur, müdrik insanlarının üstündən şər pərdəsini qaldırır, sosial-iqtisadi inkişafının təməlini qoyur. Ən əsası "Göydə Allah, yerdə ağsaqqal" deyən bir məmləkət sürgün köçündən, repressiya, deportasiya burulğanından xilas olur. Qəhrəmanlar və qəhrəmanlıqlar diyarı kimi tarix içərisində tarix yaradır. Dilinin, dininin sahibi kimi dil içində dil, din içində din yaşadır. Rus dilinin hakimi-mütləq olduğu zamanlarda milli kadrların yetişdirilməsinə, elm, təhsil, mədəniyyət mərkəzlərinin qurulmasına nail olur. 130 mindən çox igid oğul və qızı İkinci Dünya müharibəsinin taleyini həll edənlərin sırasında yer alır. Beş mindən çox Sovet İttifaqı qəhrəmanı, sinəsini Şura hökumətinin orden-medalları bəzəyən cəsur, əməksevər insanları ilə tarix yaradır. Qayaların, qalaların quşqonmazında qartala, şahinə dönən, özü də bir sərt qala, sərt keçid olan dağlılar Mozdokdan Berlinə qədər şərəfli döyüş yolu keçir. Bütün bunlar polkovnik Əziz Əliyevin sərkərdə təşkilatçı rəhbər ucalığına bağlıydı.

## Uğurlu seçim

Polkovnik Əziz Əliyevin Dağıstana rəhbərliyə gətirilməsinin əsas səbəblərindən biri, şübhəsiz ki, müharibənin taleyini həll edən Bakı nefti ilə əlaqəli idi. Stalinqradın işğalı, faşist qoşunlarının Moskvanın bir addımlığında manevrlər etməsi, Berlindən Mozdoka qədər irəliləməsi, Qroznı neftini ələ keçirməsi Bakı nefti üçün təhlükə idi. Qarşısıalınmaz, idarəolunmaz vəziyyət yaranmışdı. Belə bir ərəfədə özünəməxsus idarəçilik məktəbi, təşkilatçılıq qabiliyyəti, siyasi rəhbərlik xüsusiyyətləri, hərbçi, həkim kimi nüfuzu kara gələ bilərdi. Odur ki, polkovnik Əziz Əliyevə etimadın göstərilməsi qaçılmaz idi. Bunu daha çox o zamanlar SSRİ rəhbərinin yanında xüsusi nüfuza malik olan, SSRİ Müdafiə Komitəsinin Hərbi Şurasının üzvü, Azərbaycanın 1-ci katibi Bağırov, onun təqdimatına dərkənar qoyub, idarəçilik məharətini etirafda bulunan Ali Baş Komandan Stalin, Əziz Əliyevi Güney Azərbaycan Missiyasının – "Əziz Əliyev qrupu"nun rəhbəri kimi yaxından tanıyan SSRİ Xarici işlər nazirinin müavini Malenkov da anlayırdı. Zaman sübut etdi ki, bu təqdimat və təyinat gerçəkdən Bakı neftinin də, Bakının, Azərbaycanın da, 1941–1945-ci illər müharibəsinin də taleyini sözdə yox, əməldə həll edən amillərdən olub.

## Möhkəm iradəli siyasətçi

Mərkəzi Komitənin qərarını plenum iştirakçılarına təqdim edən SSRİ Mərkəzi Komitəsinin şöbə müdiri Kiselyov dağlıların özü qədər əzəmətli, mərhəmətli rəhbərini, polkovnik Əziz Əliyevi təqdim edəndə nigaran olmadı. Təqdimatda deyilirdi: "Yoldaş Əziz Əliyev möhkəm iradəli partiya işçisidir. O, layiqli, mətin təşkilat olan Azərbaycan, Bakı partiya təşkilatlarında yetişmişdir. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin 3-cü katibi işləmişdir. ÜİK(b)P MK onun bacarıqlı və yetkin partiya işçisi kimi tanıyır və inanmaq olar ki, Dağıstan partiya təşkilatı yeni rəhbərliyi ilə bütün qüvvələrini səfərbərliyə alaraq respublikadakı vəziyyəti nizama salacaqdır".

Kiselyovun Moskvanın adından xüsusi vurğuladığı "Respublikadakı vəziyyəti nizama salacaqdır" ifadəsi elə-belə deyilməmişdi. Polkovnik Əziz Əliyev peşəkar kadr kimi nizam-intizama, qayda-qanunlara təkcə hörmətlə yanaşmamışdı, vicdanının səsi, təşkilatçılıq məharəti ilə elə qərarlar vermişdi ki, yeniliklərə yollar görünmüş, problemlər ortadan götürülmüş, ciddi məsələlər həll edilmişdi. Təqdimatdan sonra polkovnik Əziz Əliyev kürsüyə qalxmış, Dağıstanın və dağlıların önündə söz vermişdi: Dağıstan Vilayət Partiya Komitəsinin sədri üzünü Moskvanın nümayəndəsinə və dağlılara tutub söyləmişdi: "Mənə göstərilən etimada görə öz minnətdarlığımı bildirirəm. Var gücümü əsirgəməyəcəm, sizin etimadınızı doğrultmağa çalışacağam. Elə hesab edirəm ki, 1–2 ildən sonra Dağıstanda geriliyin ləğvi haqda partiyamızın Mərkəzi Komitəsinə hesabat verə bilərik!"

## Hərbi and kimi vəd

Polkovnik Əziz Əliyev sözünə sahib çıxmağı bacaran, vədinə əməl edən qüdrətli şəxsiyyətlərdən, təşkilatçı rəhbərlərdən idi. Bu səbəbdən də pillə-pillə yüksələr, xalq arasında, dövlət qarşısında hörmət qazanar, etimadı doğruldardı. Bu dəfə verdiyi vəd isə bir başqa idi. Hərbi and kimiydi. Çünki vəd verən təkcə bir kommunist, Dağıstan Vilayət Partiya Komitəsinin katibi deyildi. Polkovnik Əziz Əliyev Mahaçqala Müdafiə Komitəsinin sədri olmaqla yanaşı, həm də 47-ci və 58-ci Orduların Hərbi Şuralarının sədr müavini, SSRİ-nin Hava Hücumundan Müdafiə Ordusu Bakı dairəsinin üzvü idi. Onun bir sərkərdə ucalığı olduğu kimi, həm də məsuliyyəti var idi.

O mürəkkəb, ziddiyyətli, eyni zamanda dəhşətli illərdə Dağıstan rəhbərliyinin, Mahaçqala Müdafiə Komitəsinin sədrinin qarşısında gerçəkdən mühüm vəzifələr dururdu. Dağıstanın sənaye obyektlərinin, zavod və fabriklərinin, kənd təsərrüfatı sisteminin, kolxoz və sovxozların pozulmuş ahəngini bərpa etmək, nəqliyyat sektorunu qaydaya salmaq, müdafiə qurğularının, istehkamların tikintisinə nail olmaq, əhalini səfərbər etmək, Zaqafqaziya cəbhəsinin səngər problemi ilə yanaşı, könüllü hərbi hissələrin təşkilinə çalışmaq, ordunun şərq cinahındakı arxa xəttini möhkəmlətmək, hərbi hissələrin yaradılmasını təmin etmək üçün mühüm vəzifələri icra etmək vacibdi.

Belə bir məsuliyyətli, eyni zamanda məşəqqətli, dəhşətli günlərdə faşist hərbi birləşmələri tərəfindən işğal edilmiş sovet respublikalarından, müxtəlif vilayət və şəhərlərdən, dağıdılmış kənd və qəsəbələrdən Dağıstana təxliyə olunan insanlara, səngərlərdə düşmənlə üz-üzə dayanan ölüm-qalım savaşına cəlb olunan əsgər və zabitlərin ailə üzvlərinə diqqət və qayğı göstərmək, ön cəbhədə qanı tökülən, qan tökən igidlərə arxa cəbhənin ehtiramını çatdırmaq, onlarda dövlətə inam hissini qüvvətləndirmək üçün mühüm işlər görmək gərəkdi. Müdafiə Komitəsinin sədri, hərbi şuraların üzvü kimi hərbi səfərbərlik problemlərini önə çəkən, ön cəbhənin uğurlar əldə etməsi üçün arxa cəbhədə siyasi sabitliyə, Dağıstanın və Azərbaycanın milli diviziyalarının təşkilinə nail olan Əziz Əliyev Vilayət Partiya Komitəsinin katibi təyin olunduğu ilk gündən cəsarətli addımları, müdrik qərarları ilə yerli əhalinin diqqətini özünə cəlb edir, xalqın hörmətini qazanır.

## Xalq və qrupların birlik şüarı

Elə ilk gündən muxtar respublikanın təbii şəraitini, yaşayış məntəqələrinin yerləşməsini, ərazidə məskunlaşan xalqların və etnik qrupların kompakt yaşadıqları məntəqələri, Çeçen-İnquş Muxtar Respublikası ilə sərhəd zonalarının zəif nöqtələrini araşdıran Əziz Əliyev bütün fəaliyyətə lazımi, operativ nəzarəti təşkil etmək üçün sənədləri bir araya gətirir. Bəlli olur ki, respublika 50 min kv. km-dən artıq əraziyə malikdir. 50-dən artıq inzibati rayonu, bir neçə min kənd, qəsəbə və aulu var. Buralarda 80-dən çox xalq və etnik qrupun nümayəndələri yaşayır. Ən böyük çətinlik də buradan başlayır. Bu qədər müxtəlif xarakterli, adət-ənənələri olan xalq və qrupların yekdil bir ailədə birləşdirmək, ümumi işin qələbəsinə səfərbər etmək lazım idi. 50-dən artıq inzibati bölgü vahidini, rayonu, 80-dən artıq xalq və etnik qrupu bir araya gətirmək, səfərbər etmək, hərbi xidmətə, vətənə sədaqətə, dövlət idarəçilik sisteminə, xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafına yönəltmək o qədər də asan məsələ deyildi. O, bunu bacarır.



Əziz Əliyevin idarəçilik məktəbini keçən, əyləşdiyi kürsünü uzun müddət şərəfləndirən, adını Dağıstan Respublikasının rəhbərləri sırasına qızıl hərflərlə, dağlıların qəlbinə məhəbbətlə yazan Vilayət Partiya Komitəsinin 1-ci katibi Maqomedsalam Umaxanov Əziz Əliyevlə birgə fəaliyyətini üstündən illər ötəndən sonra yada salaraq keçən əsrin 80-ci illərində onunla bağlı nəşr olunan "Xatirələr" kitabına təqdim etdiyi yazıda qeyd edir: "Onun başçılığı ilə Vilayət Partiya Təşkilatı siyasi və hərbi rəhbərliyi vəhdətdə götürərək, hər iki sahədə səfərbərliyin düzgün gedişatını təmin etmiş, cəbhə üçün sənaye məhsulu buraxılmasını qaydaya salmışdır. Əziz Məmmədkərim oğlu Əliyevin xüsusi diqqət yetirdiyi ən mühüm sahələrdən biri də respublikada ideoloji işin daha da təkmilləşdirilməsi idi. Onun rəhbərlik etdiyi vilayət partiya komitəsi, olduqca çətin hərbi şəraitdə çox münasib və əlverişli ideya-siyasi iş üsulları axtarıb tapırdı. Məsələn, Əziz Məmmədkərim oğlunun təşəbbüsü ilə vilayət partiya komitəsi döyüşən ordunun qızıl əsgərləri qarşısında öz ana dillərində çıxış etmək üçün Dağıstanın bütün xalqlarını təmsil edən ən yaxşı təbliğatçı və mühazirəçiləri seçib ön xətlərə göndərirdi. 1943-cü ilin sentyabrınadək Dağıstan təbliğatçılarının və təşviqat kollektivləri briqadalarının cəbhəyə 111 səfəri təşkil olunmuşdu.

Əziz Məmmədkərim oğlu Əliyev respublika ərazisində hərbi hissələrin təşkil olunmasına ciddi diqqət yetirir, səfərbərlik planlarının yerinə yetirilməsinə müntəzəm olaraq nəzarət edirdi. 15 min dağıstanlı Qızıl Ordu sıralarına könüllü olaraq daxil olmuşdu.

1942-ci ildə Əziz Əliyevin təşəbbüsü ilə Dağıstanda Vətəndaş müharibəsinin qəhrəmanı Qara Qarayevin komandanlığı altında Milli Süvari Eskadronu təşkil olundu. Eskadron cəbhəyə yola salınarkən Vilayət Partiya Komitəsinin 1-ci katibi eskadron üzərində "Ayrıca Dağıstan könüllü süvari eskadronu" sözləri yazılmış Qırmızı bayraq təqdim etdi. Dağıstanlı döyüşçülər öz həmyerlilərinin tapşırıqlarını şərəflə yerinə yetirəcəklərinə, bu bayrağı məğlub edilmiş Reyxstaqa sancacaqlarına söz verdilər və bu sözə sadiq qaldılar. Öz döyüş yolunu Mozdokun şərqindən İşşerskaya stansiyasından başlamış eskadron zəfər yürüşünü Berlində başa vurdu: 416-cı Taqanroq diviziyasının tərkibində zərbə taqımı kimi vuruşan dağıstanlı süvarilər çox məsul döyüş əməliyyatlarını şərəflə yerinə yetirdilər. O vaxt diviziya komandirinin vilayət partiya komitəsinin birinci katibinə göndərdiyi məktubda belə yazılmışdı: "Dağıstanlı döyüşçülər bizim sıralarımızda əzmlə, şücaətlə vuruşur, Vətənimizin düşmənlərinə sarsıdıcı zərbələr endirirdilər. Diviziyanın şanlı zəfər yollarında sizin süvarilər qəfil hücuma keçməklə, düşmən arxasına gözlənilməz reydlər etməklə fərqlənmişlər"...

Bütün bu faktlar yuxarıda qeyd etdiklərimizin dəqiqliyini təsdiqləyir. Ön cəbhədə qəhrəmanlıqlar göstərən, düşmənə amansız, sarsıdıcı zərbələr vuran, Vətənin hər qarışı uğrunda şəhid olmağa hazır olan dağlılar təkcə Şeyx Şamildən, ulu dədələrindən qalan qəhrəmanlıq, mərdlik, cəsurluq tarixini təkrarlamırdılar. Onları xəyanətdə, etibarsızlıqda, Osmanlıya və Hitler Almaniyasına casusluqda ittiham edən, deportasiyalarına, tarixi torpaqlarından köçürülmələrinə qərar verən Stalin-Mikoyan-Beriya üçlüyünə dərs verirdilər. Cəsarətin, ləyaqətin, Vətənə sədaqətin, sonsuz sevginin, qeyrətin dərsini.

## Lider və nüfuz

"Əziz Məmmədkərim oğlu müharibə dövründə olduğu kimi, ondan sonrakı illərdə də özünəməxsus tükənməz enerji ilə çalışmışdır. Onun həmin illərdə Dağıstanda iqtisadiyyatın, mədəniyyətin, elm və təhsilin inkişafına göstərdiyi böyük qayğını Dağıstan xalqları heç zaman unutmayacaqlar. Mahaçqala elmi-tədqiqat bazası olan Akademik Mərkəzin, sonra isə SSRİ Elmlər Akademiyasının Dağıstan filialının yaranmasına o, xeyli səy göstərmişdir. Ali məktəblər bazasının genişləndirilməsində də təsiri az olmamışdır. Dağlı qızların orta və ali təhsil məsələsi, mütəxəssis qadın kadrların hazırlanması, onların respublikanın təsərrüfat və ictimai həyatına cəlb olunması işində Əziz Məmmədkərim oğlu Əliyevin əməyi misilsizdir. Onun bilavasitə iştirakı ilə Dağıstanda Qadın Müəllimlər İnstitutu və Qadın Pedaqoji Məktəbi açılmışdır. Yüksək ziyalı mədəniyyətinə malik olan Əziz Məmmədkərim oğlu yaradıcı ziyalılara da müstəsna qayğı göstərmişdir" –Bunlar Maqomedsalam Umaxanovun sadaladığı nailiyyətlərin bir qismidir.

Əziz Əliyev milli-mənəvi dəyərlər və milli dövlətçilik tariximizdə özünəməxsus yeri olan, İrəvanın elmi-mədəni mühitində yetişmişdi. İbadulla bəy Muğanlinskinin məktəbində dövrünün görkəmli dilçi alimi Fars Abbasdan – Cabbar Məmmədzadədən dərs almışdı. Onun xüsusi qayğısını öz üzərində hiss etmişdi. İrəvan Gimnaziyasının qızıl medalla başa vurduqdan sonra Hacı Zeynalabdin Tağiyevin dəstəyi ilə Petroqrad Hərbi Tibbi Akademiyasına daxil olmuşdu. Mühitin insan şəxsiyyətinə təsirindən xəbərdar idi. Bu səbəbdən də Dağıstanın inkişafı, dağlıların irəliyə getməsi, tarixi əzəmətinə qayıtması üçün elmi-mədəni, ictimai-siyasi mühitin sütunları olan kadrları arayıb-axtarıb tapır, zərgər dəqiqliyi ilə seçir, yetişdirir, irəli çəkir, vəzifə etibar edir. Əbdülvahab Süleymanov, Şahruddin Şamxalov, Maqomedsalam Umaxanov Əziz Əliyev məktəbinin ən qüdrətli müdavimləri kimi sonralar da Dağıstan üçün böyük işlər gördülər.

1946-cı ildə əldə olunan nailiyyətlərə görə Mərkəzi Komitənin, Xalq Komissarları Sovetinin Keçici Qırmızı bayraqlarına, təltifnamələrinə layiq görülən dağıstanlılar daha böyük uğurlar, nailiyyətlər əldə etmək üçün çalışır, xalq təsərrüfatının kompleks inkişafına nail olurdular. 1947-ci ilin yazında Sovet İttifaqı Kommunist Partiyasının "Kənd təsərrüfatının müharibədən sonrakı illərdə yüksəldilməsinə, ölkə iqtisadiyyatının bu vacib sahəsinin tərəqqisinə həsr olunan" plenumda Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi Əziz Məmmədkərim oğlu Əliyevin çıxış etməsi, söz sahibinə çevrilməsi təkcə bir müttəfiq respublikanın rəhbəri kimi hesabat verməsi deyildi, hesabata layiq Lider olmasının təsdiqi idi...

## Mümkün olmayanları mümkünə çevirən Lider

Polkovnik Əziz Əliyev sıradan bir rəhbər, dövlət xadimi deyildi. Onun zabit şərəfi, sərkərdə-xaqan ucalığı vardı. Müharibənin qələbə ilə nəticələnməsi üçün əlindən gələni etmiş, hətta edilməsi mümkün olmayanları belə mümkünə çevirməyə iradəsi, cəsarəti çatmış Lider idi! Dağıstanın, Dağıstan qarışıq Azərbaycanın, Bakı neftinin xilaskarı Sovet İttifaqı qəhrəmanı, Bakı isə qəhrəman şəhər adını haqq etsə də, haqq yerini almadı. Onun tək bir dərdi, problemi vardı. O, Azərbaycanlı, Türk, Müsəlman idi. Məsələnin bu yönü ilə bağlı Hidayət Orucov haqlı olaraq qeyd edir ki, Moskvanın müdafiəsindəki xidmətləri ilə bağlı marşal Jukovun Stalin haqda bir sözü var: "O mümkün olmayan işləri həyata keçirirdi. Bu fikiri eyni ilə böyük eloğlumuzun həyatına, fəaliyyətinə də şamil etmək olar".

Əziz Məmmədkərim oğlu Əliyev dəfələrlə SSRİ-nin, Azərbaycan SSR-nin və Dağıstan MSSR-nin Ali sovetlərinin deputatı olmuş, yüksək rəhbər partiya orqanlarının tərkibinə seçilmiş, iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, bir çox başqa dövlət mükafatları ilə təltif edilmişdi. Azərbaycanın əməkdar həkimi idi. Lakin ən yüksək deputat mandatları və nişanları da, ordenlər və fəxri adlar da şəxsiyyət barədə düşünəndə və danışanda yada düşür, böyük simaların həyatını, fəaliyyətini heç bir mükafat və ya ad (ən ucası olsa da!) bütünlüklə əks etdirə bilmir və bu adlar da, mükafatlar da insansız özü-özlüyündə bir şey demir. Əziz Məmmədkərim oğlunun mükafatı iki qardaş ölkə xalqlarının ona sonsuz məhəbbəti, ən böyük adı Azərbaycan və Dağıstanda qurub yaratdıqlarıdır".

## Əziz Əliyev Azərbaycanın milli dövlət xadimi idi

Əziz Məmmədkərim oğlu Əliyev 1942-ci ildə Azərbaycanın birinci katibi Mircəfər Bağırovun təqdimatı, İosif Stalinin dərkənarı ilə etibarlı, inanılmış kadr kimi Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin olunmuşdu. 1947-ci ilin 14 oktyabrında Dağıstan Vilayət Partiya Komitəsinin plenumu onun təkrar seçkisini alqış sədaları altında təsdiq etmişdi. On minlərlə dağlını Dağlar diyarının Xilaskarından ayıra bilməmişdilər. Marşal Stalin "belini dağlar diyarında bərk saxlamaq", onsuz da inadkar doğulan dağlıları bir daha Şura hökumətindən incik, narazı salmamaq üçün hər cür güzəştə getməyə hazır idi. Bunun həm də bir səbəbi vardı: "Göydə Allah, Dağıstanda Əziz Əliyev, Moskvada Stalin" olduğunu SSRİ məkanında hamı, hər kəs bilirdi!

Əziz Əliyev qüdrətli dövlət xadimi, əvəzolunmaz şəxsiyyət, Böyük Vətən müharibəsinin taleyini dəyişən tarixi simalardan, Sovet xalqlarının monolit birliyini təmin edən liderlərdən idi. O, eyni zamanda iki ölkənin Dağıstan və Azərbaycan xalqlarının dostluğunun, qardaşlığının simvollarından idi. Ulu öndər Heydər Əliyev polkovnik–komissar Əziz Məmmədkərim oğlu Əliyevin 100 illik yubiley mərasimindəki çıxışında haqlı olaraq, bu barədə vüqarla qeyd edirdi: "İkinci Dünya müharibəsi bəşər tarixində ən ağır müharibədir. Böyük Vətən müharibəsi faşizmə, cəhalətə, təcavüzə qarşı müharibə idi. Faşizmə qarşı vuruşanlar, qələbənin təmin olunması işinə öz töhfəsini verənlər, öz fəaliyyəti ilə bu qələbənin çalınmasına kömək edənlər, şübhəsiz, ən yüksək qiymətə və ən yüksək hörmətə layiqdirlər. Belə görkəmli insanlardan biri də Əziz Əliyev idi. O, ön xəttdə, Dağıstanda olmuşdur. Onun qismətinə olduqca çox çətin vəzifələr düşmüş və o, bu vəzifələrin öhdəsindən uğurla gəlmişdir. Dağıstanlılar 1942-ci ilin sentyabrında onların respublikasında vəziyyətin necə olduğunu yaxşı bilirlər. Orada əvvəllər yaşamamış, işləməmiş olan bu adam oraya gəldi və qısa müddətdə bu çoxmillətli diyarı öz ətrafında sıx birləşdirməyə, hamını öz ətrafına toplamağa və onları Dağıstanın müdafiəsinə, deməli, həm də Zaqafqaziyanın, Bakı neftinin müdafiəsinə qaldırmağa müvəffəq oldu. Bu, böyük iş idi və həmin işi Əziz Əliyev gördü. Bu işi o özünün qeyri-adi insani keyfiyyətləri, istedadı, ağıl-zəkası sayəsində həyata keçirdi. Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycanın dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi".

## Azərbaycan və Dağıstan xalqlarının dostluq qaynağı

Polkovnik-komissar Əziz Əliyev 1942-ci ildən 1948-ci ilə qədər Dağıstanda tarix yaratdı. Azərbaycan və Dağıstan xalqlarının dostluğu və qardaşlığının simvoluna çevriləcək qədər müqəddəs bir tarix. İkinci Dünya müharibəsində mümkün olmayanları mümkünə çevirənlərin sırasında yer almasına baxmayaraq, bir anın içərisində milli məsələlərə qurban getdi. Əziz Məmmədkərim oğlu Əliyev Dağıstandakı ali vəzifəsindən 1948-ci ildə Moskvada – Mərkəzdə Mikoyan – Beriya tərəfindən qaldırılan, Stalin tərəfindən icra olunan Qərbi Azərbaycan, Zəngəzur məsələsinə, azərbaycanlıların tarixi torpaqlarından deportasiyasına etirazına görə alındı. Komissar Nəriman Nərimanov 1920-ci illərdə Dağlıq Qarabağ, Naxçıvan, Zaqatala, ulu öndər Heydər Əliyev ötən əsrin 80-ci illərində Qarabağ məsələsinə görə hədəfə alındığı kimi.

1962-ci il iyulun 27-də 65 yaşında dünyaya vida nəğməsi oxuyan polkovnik-komissar Əziz Məmmədkərim oğlu Əliyev varlığı qədər sevdiyi Azərbaycanın birliyi, bütövlüyü uğrunda ürəyindən getdi. Vida mərasiminə minlərlə dağıstanlı gəldi. Bu, onların rəhbər kimi çağırışına müntəzir olduqları, qardaş kimi sevdikləri liderlərinə sonsuz sevgilərinin göstəricisi, əlaməti idi. Əziz Məmmədkərim oğlunun adı bu gün də Dağıstan dövləti və xalqları tərəfindən hörmətlə çəkilir, xatirəsi əziz tutulur. Onun adını daşıyan küçə, tibb texnikumu, Mahaçqalanın mərkəzində ucaldılan abidəsi, haqqında dərc olunan kitablar, elmi-publisistik yazılar dediklərimizə əyani sübutdur.

*Şərəf CƏLİLLİ,*
*yazıçı-publisist*

# Orta Dəhliz dünyanın baş yoluna çevrilir

## *Çin, Aİ və ABŞ bu beynəlxalq nəqliyyat marşrutunu yaxından dəstəkləyir*

**Dünyada və regionda baş verən geosiyasi hadisələrlə əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Bu amil adıçəkilən dəhlizin önəmini artırmaqla yanaşı, geniş bir regionda yerləşən ölkələr arasında əməkdaşlığın daha da inkişafı baxımından unikal imkanlar təqdim edir. Yaxud Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrində respublikamızın rolu getdikcə artır.**




Azərbaycan Qərblə Şərq yolunun üzərində yerləşdiyindən dünyanın ən böyük iqtisadiyyata malik olan tərəfləri–Çinlə Avropa arasında əlaqənin qurulması kimi vacib layihədə başlıca rollardan birini oynayır. Respublikamız bu istiqamətdə qlobal və regional miqyasda mövcud vəziyyətlə (Qırmızı və Qara dənizlərdə, Süveyş kanalında mövcud böhranlı şərait) əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılır.

Orta Dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Xatırladaq ki, bu dəhliz 2014-cü ildən fəaliyyət göstərir və Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə, həmçinin Avropa ölkələrinə qədər uzanır.

Xatırladaq ki, 2024-cü ildə Orta Dəhliz ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə onun 5,2 milyon tona qədər artacağı gözlənilir ki, bunun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu isə neft olacaq. Marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq.

Özbəkistan Nəqliyyat Nazirliyinin layihəsi çərçivəsində hazırlanan və Azərbaycan mediasında da artıq yayılan analitik hesabatda Orta Dəhlizin Azərbaycanın Avrasiya logistikasında əsas həlqə kimi əhəmiyyəti xüsusi qeyd edilir. Sənəddə respublikamızın bu marşrutdakı rolu müasir nəqliyyat infrastrukturuna, Xəzər dənizi sahilində yerləşən dəniz limanlarına və eyni zamanda, adı çəkilən dəhlizin əsas iştirakçılarından olan Türkiyə və Gürcüstanla dayanıqlı əlaqələrə əsaslandığı bildirilir.

Hesabat müəllifləri tərəfindən Azərbaycan – Türkiyə tandeminə xüsusi diqqət yetirilir və bu iki ölkənin geosiyasi və geoiqtisadi layihələrdə hər zaman koordinasiyalı şəkildə çıxış etdiyi vurğulanır. Bu əməkdaşlıq Rusiya və İrana qarşı tətbiq edilən sanksiyalar fonunda Qərbin, xüsusilə Avropa İttifaqının (Aİ) və ABŞ-ın Mərkəzi Asiya ilə əlaqələri gücləndirmək cəhdlərini dəstəkləyən amil kimi qiymətləndirilir.

Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bəri beynəlxalq nəqliyyat habına çevrilmək məqsədilə ardıcıl şəkildə nəqliyyat infrastrukturunun inkişafına yönələn siyasət apardığı vurğulanır. Bu kontekstdə həm Orta Dəhlizin, həm də Şimal-Cənub marşrutunun ölkə üçün strateji önəm daşıdığı xatırladılır.

Hesabatda vurğulanır ki, Azərbaycan Orta Dəhlizə təkcə infrastrukturun inkişafı məqsədilə deyil, həm də gələcək iqtisadiyyatın bir parçası, eyni zamanda, yerli məhsulların ixracı üçün mühüm kanal kimi yanaşır. Bu baxımdan, 2024-cü ilin noyabrında Bakı-Sian dəmir yolu marşrutu ilə yüklərin göndərilməsi mühüm nümunədir.

Sənəddə bildirilir ki, Orta Dəhliz Qazaxıstan üçün də geosiyasi vasitə kimi mühüm önəm daşıyır. Sözügedən marşrutun bu ölkənin qlobal təchizat zəncirlərinə inteqrasiyasına, Avropa İttifaqı (Aİ) və Türkiyə ilə əlaqələrin gücləndirilməsinə, eyni zamanda, “Bir kəmər, bir yol” təşəbbüsündəki rolunun artmasına kömək edir. Marşrutun genişlənməsi Astanaya öz xarici iqtisadi əlaqələrini şaxələndirməyə və Türk dünyası, Avropa, eləcə də Asiya-Sakit okean regionu ölkələri ilə əməkdaşlığı gücləndirməyə əlverişli şərait yaradır. Bundan başqa, Orta Dəhliz çərçivəsində infrastrukturun modernləşdirilməsi regiondaxili əlaqələrin inkişafına və Mərkəzi Asiya ölkələrinin nəqliyyat imkanlarının yaxşılaşdırılmasına mühüm töhfə verir.

Hesabatda əlavə olaraq qeyd olunur ki, həm ABŞ, həm də Aİ Orta Dəhlizi Rusiyadan keçən ənənəvi marşrutlara alternativ kimi nəzərdən keçirir və onun inkişafını strateji prioritet kimi dəyərləndirir. Çin isə Ukrayna münaqişəsi fonunda Orta Dəhlizə geosiyasi riskləri azaldan, daha sabit və dayanıqlı tranzit marşrutu kimi maraq göstərir.

Sənəddə daha sonra deyilir ki, qlobal qeyri-müəyyənliklər şəraitində Orta Dəhliz həm Pekin üçün “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində, həm də Moskva üçün daha təhlükəsiz və səmərəli marşrutdur. Çin və Rusiya arasındakı tərəfdaşlıq Avrasiya nəqliyyat arxitekturasının modernləşdirilməsi və regional inteqrasiyanın dərinləşdirilməsinə xidmət edə bilər.

Hesabatda Tacikistanın maraqları da xüsusi qeyd olunur. Düşənbə Orta Dəhlizi qiymətli metallar, tekstil və tikinti materiallarının ixracı yolu ilə Avropa bazarlarına çıxış imkanı kimi görür. Müəlliflər bildirirlər ki, Tacikistan bu marşrut ətrafında artan fəallıq fonunda Bakı ilə əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib.

Onu da qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə, ümumilikdə, cəmi 18 günə baş verir.

### *Ekspert rəyi*

**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**



Orta Dəhliz çərçivəsində irimiqyaslı infrastruktur layihələrinə beynəlxalq maliyyə qurumlarının da marağı artır. Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) və digər qurumlar dəhlizin inkişafına dair layihələri dəstəkləyir. Bu, bir tərəfdən bölgəyə xarici investisiya axınını sürətləndirir, digər tərəfdən iştirakçı ölkələrin nəqliyyat və logistika imkanlarını dünya standartlarına uyğunlaşdırır.

Orta Dəhlizin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar da xüsusi qeyd olunmalıdır. “Bir pəncərə” prinsipinin tətbiqi, elektron sənəd dövriyyəsinin genişlənməsi və gömrük əməliyyatlarının avtomatlaşdırılması tranzit proseslərinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Bu, həm də korrupsiya risklərini azaldır və yükdaşımalarda şəffaflığın təmin olunmasına xidmət edir.

Orta Dəhliz Rusiya üzərindən keçən Şimal marşrutundan fərqli olaraq daha dayanıqlı və şaxələndirilən tranzit imkanı təklif edir ki, bu da geosiyasi münaqişələr və sanksiyalarla bağlı risklərin azalmasına əlverişli şərait yaradır. Yalnız nəqliyyat funksiyası ilə kifayətlənməyən bu dəhliz, eyni zamanda, regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoruna çevrilərək, infrastrukturun, sənayenin inkişafını və yeni iş yerlərinin yaradılmasını stimullaşdırır.

Sözügedən dəhlizin inkişafı ilə bağlı gözləntilərə AYİB-in proqnozlarında da yer verilir. Bankın hesablamalarına görə, Mərkəzi Transxəzər marşrutu üzrə konteyner daşımalarının həcmi 2022-ci ildəki 18 min TEU-dan 2040-cı ildə 130 min TEU-ya çatacaq. Əgər böyük infrastruktur layihələri həyata keçirilərsə, bu rəqəm 865 min TEU-ya qədər yüksələ bilər ki, bu da mövcud göstəricidən 48 dəfə çoxdur. DB isə 2030-cu ilə qədər yükdaşımaların 3 dəfə artaraq ildə 11 milyon tona çatacağını proqnozlaşdırır.

AYİB-nin hesabatına əsasən, Orta Dəhlizin inkişafına töhfə verən mühüm amillər sırasında nəqliyyat sənədlərinin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, sistemlərin qarşılıqlı uyğunluğunun artırılması və dövlət – özəl tərəfdaşlığının genişləndirilməsi qeyd olunub. Bundan əlavə, sənəddə “Astana” Beynəlxalq Maliyyə Mərkəzində qeydiyyatdan keçmiş şirkətlərin Orta Dəhlizin təşviqində oynadığı fəal rola da toxunulub. Belə ki, Qazaxıstan, Azərbaycan və Gürcüstanın dəmir yolu şirkətlərini birləşdirən “Middle Corridor Multimodal Ltd” birgə müəssisəsinin Çin və Avropa arasında multimodal daşımaların rəqəmsallaşdırılması və optimallaşdırılması üzərində müvafiq layihə reallaşdırdığı bildirilib.

Bütün bunlar deməyə əsas verir ki, son illərdə Avrasiya məkanında nəqliyyat-logistika infrastrukturunun inkişafında baş verən dönüş nöqtələrindən biri Orta Dəhlizin aktuallaşması və geosiyasi əhəmiyyətinin artması ilə bağlıdır. Bu dəhliz Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən strateji multimodal marşrut olmaqla, həm regional, həm də qlobal ticarət münasibətlərində mühüm rol oynayır.

# İqtisadçı alimlər Böyük Qayıdışın bərpa-quruculuq meydanlarında



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nümayəndə heyəti “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasının monitorinq və qiymətləndirilməsi çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa-quruculuq layihələrinin icrası ilə yaxından tanış olub.**

Sözügedən səfər çərçivəsində yaşayış məntəqələrinə və aidiyyəti layihələrə baxış zamanı İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat, Kənd Təsərrüfatı, Elm və Təhsil, Səhiyyə nazirlikləri, müvafiq bərpa, tikinti və idarəetmə xidmətləri, həmçinin 20-dən çox icraçı qurumun əməkdaşları ilə işgüzar müzakirələr aparılıb.

Keçirilən görüşlərdə bildirilib ki, dövlətimizin başçısının rəhbərliyi ilə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığı, müvafiq Dövlət Proqramı çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə davam etdirilir. Eyni zamanda, 2025-ci ilin birinci yarısınadək 15 min nəfərdən çox əhalinin doğma yurd-yuvalarına köçürülməsinin gerçəkləşdirilməsi, ümumilikdə, azad edilmiş ərazilərdə yaşayan əhalinin 50 min nəfəri keçməsi Qarabağın sürətlə məskunlaşmasının bariz ifadəsi kimi dəyərləndirilir.

Görüşlərdə 2025-ci ilin birinci yarısına olan məlumata əsaslanılaraq Dövlət Proqramı çərçivəsində bir sıra mühüm layihələrin icra edildiyi, habelə 1 ali, 14 ümumtəhsil və 6 məktəbəqədər təhsil müəssisəsinin istifadəyə verildiyi, 19 səhiyyə obyektinin, o cümlədən 2 xəstəxana, 6 ailə sağlamlıq mərkəzi, 5 həkim məntəqəsi, 4 modul tipli xəstəxana və 1 poliklinikanın fəaliyyətə başladığı, bütün bunlarla yanaşı, uzunluğu 300 kilometrdən artıq avtomobil yolunun tikintisinin yekunlaşdırıldığı da diqqətə çatdırılıb.

Maliyyə Nazirliyinin müvafiq məlumatına əsasən, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə cari ilin ilk 6 ayında sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında illik nəzərdə tutulmuş vəsaitin 38,8 faizi həcmində və yaxud 1 milyard 552,4 milyon manat istifadə olunub.

Həmin vəsaitin 1 milyard 353,6 milyon manatı infrastruktur təyinatlı, 182 milyon manatı təhsil, səhiyyə, mədəniyyət və idmanyönümlü sosial təyinatlı layihələrin maliyyələşdirilməsinə, 16,8 milyon manatı isə ərazilərin minalardan təmizlənməsi tədbirləri üzrə xərclərə yönəldilib.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə sözügedən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilir.

# Vergi ödənişi asanlaşdırılır

## *220 min subyektə “ASAN imza” sertifikatı verilib*

**Cari ilin yanvar-iyun aylarında vergi ödəyicilərinə, ümumilikdə, 456 min 880 sayda xidmət göstərilib ki, bunun da 158,8 mindən çoxu şifahi xidmətlər (müraciət etmiş şəxslərin vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar suallarının cavablandırılması), 105 mindən çoxu elektron xidmətlər (bəyannamələrin və hesabatların, müxtəlif ərizələrin tərtibatına və elektron formada göndərilməsinə kömək göstərilməsi) olub.**



Dövlət Vergi Xidmətindən XQ-yə bildirilib ki, göstərilən ümumi xidmətlərin 89,3 faizini bəyannamələrin (hesabatların), habelə cari vergi ödəmələrinin hesablanması barədə arayışın vergi orqanlarına təqdim edilməsi, vergi ödəyicisinin fəaliyyətinin dayandırılması (bərpası), sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbzin verilməsi, “ASAN imza” sertifikatlarının verilməsi təşkil edib.

Beləliklə, bu ilin ilk yarısında vergi ödəyicilərindən daxil olmuş 17 mindən çox yazılı müraciət cavablandırılıb, onlara 14 milyona yaxın məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Həmin dövr ərzində 2104 vergi ödəyicisinin iştirakı ilə 205 görüş keçirilib, 2541 vergi ödəyicisinə ünvanlı xidmət göstərilib. Vergi ödəyicilərinin preventiv məlumatlandırılması məqsədilə onların mobil nömrələrinə 1 milyon 583 mindən çox SMS göndərilib. Hesabat dövründə, ümumilikdə, vergi ödəyicilərinə 220 min “ASAN imza” sertifikatı verilib.

# Xarici yatırımlar 30 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-iyun aylarında xarici maliyyə mənbələrindən əsas kapitala 2 milyard manat (ötən ilin müvafiq dövrünə nəzərən 471 milyon manat və ya 30 faiz çox) məbləğində investisiya yatırılıb.**

Xarici mənbələrdən əsas kapitala yönəldilən investisiyaların 1milyard 403 milyon manatı neft-qaz sektoru, 600 milyon manatı isə qeyri-neft-qaz sektoru üzrə həyata keçirilib. 2024-cü ilin ilk 6 ayındakı göstərici ilə müqayisədə xarici maliyyə mənbələrindən Azərbaycanın neft-qaz sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 5,8 faiz, qeyri-neft-qaz sektoru üzrə isə 2,6 dəfə çoxalıb.

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 8 milyard 73 milyon manat və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz az investisiya yönəldilib.

Neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 23,8 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 13,5 faiz artıb. Ümumi sərmayənin 4 milyard 67 milyon manatı və ya 50,4 faizi məhsul istehsalı sahələrinin, 2 milyard 672 milyon manatı (33,1 faizi) xidmət sahələrinin, 1 milyard 333 milyon milyard manatı (16,5 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb.

# Qarabağ və Şərqi Zəngəzura kredit qoyuluşu çoxalıb

**Bu il iyulun 1-nə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 726 min manat və ya 6,5 faiz artaraq 11 milyon 814 min manata çatıb.**

Mərkəzi Bankdan verilən məlumatına görə, hesabat dövründə bu göstərici üzrə orta faiz dərəcəsi 17,55 faiz təşkil edib. Sözügedən dövr ərzində regiona qoyulmuş kreditlərin 11 milyon 117 min manatı milli valyutada, 697 min manatı isə sərbəst dönərli valyutada yerləşdirilib. Eyni zamanda, cari il iyulun 1-nə Qarabağ iqtisadi rayonu üzrə isə kredit qoyuluşlarının həcmi 500 milyon 26 min manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 4 milyon 72 min manat və ya 0,8 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 52 milyon 812 min manat və ya 11,8 faiz çoxdur.

Məlumata əsasən, hesabat dövründə sözügedən region üzrə kredit qoyuluşlarının orta faiz dərəcəsi 19,58 faizə bərabər olub. Dövr ərzində regiona qoyulmuş kreditlərin 498 milyon 761 min manatı milli valyutada, 1 milyon 265 min manatı isə sərbəst dönərli valyutada yerləşdirilib. Qeyd edək ki, 2025-ci ilin iyulun 1-nə Azərbaycanın cəmi regionları üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 86 milyon manat və ya 0,3 faiz azalıb. Bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 3 milyard 43 milyon manat və ya 12 faiz artaraq 28 milyard 472 milyon manata bərabər olub.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

## *Fizika İnstitutu – 80*

# Milli fizika elminin qərargahı

**(əvvəli ötən sayımızda)**

Kvantlayıcı maqnit sahəsində metal və yarımkeçiricilərdə termomaqnit hadisələrinin kvant nəzəriyyəsi verilmişdir. Kristallarda eksiton hallarının dayanıqsızlığı ilə əlaqədar elektron faza keçidi nəzəriyyəsi işlənib hazırlanmışdır.

Akademik Bəhram Əsgərov güclü kvantlayıcı maqnit sahəsində yarımkeçiricilərdəki termomaqnit effektlərinin nəzəriyyəsini vermişdir. O, yarımkeçiricilərdə kinetik effektlərə həsr olunmuş kompleks tədqiqatlarına görə 1974-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Yarımkeçiricilərdə elektron köçürmə hadisələrinin eksperimental və nəzəri tədqiqatlarının həm klassik, həm də kvant nəzəriyyəsi alimin “Yarımkeçiricilərdə elektron köçürmə hadisələri” (1994, ingilis dilində) monoqrafiyasında öz əksini tapmışdır.

Akademik Firudin Haşımzadənin bilavasitə iştirakı və rəhbərliyi altında bir sıra maqnit kristallarında aşqar atomlarının enerji spektrinin və optik xassələrinin nəzəriyyəsi işlənib hazırlanmışdır. İfrat yarımkeçirici qəfəslərdə elektromaqnit dalğalarının yayılmasının nəzəriyyəsi verilmiş, dar qadağanzolaqlı yarımkeçiricilərdə aşqar və səth hallarının nəzəriyyəsi yaradılmışdır. Kvant çuxurlarda və naqillərdə səpilmə mexanizmləri, siklotron-fonon rezonans udulmasının qanunauyğunluqları müəyyən edilmişdir.

Müxtəlif nəzəri modellər tətbiq olunmaqla A3B5 və A2B6 tipli birləşmələrin sferik kvant nöqtələrində elektronların spektrinin real enerji strukturu hesablanmış, Keyn tipli yarımkeçiricilərdə və nanokristallarda kinetik, optik, termodinamik hadisələrin nəzəriyyəsi qurulmuşdur. Yükdaşıyıcıların və fononların qızmasını və onların qarşılıqlı sövqünü nəzərə almaqla güclü elektrik və maqnit sahələrində yarımkeçiricilərdə və yarımmetallarda qeyri-xətti kinetik hadisələrin nəzəriyyəsi qurulmuşdur. “Antiferromaqnetiklərin optik spektroskopiyası” işinə görə 1986-cı ildə F.Haşımzadə, Y.Seyidov, M.Abdudullayev və V.Yeryomenko Azərbaycan Dövlət mükafatına layiq görülmüşlər.

Bərk cisim nəzəriyyəsi sahəsində elmi əlaqələrin yaranmasında 1962-ci ildə Bakıda yarımkeçiricilərin nəzəriyyəsinə həsr olunmuş və SSRİ-nin nəzəri fizika sahəsində tanınmış bir çox alimlərinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın böyük rolu olmuşdur.

Yarımkeçiricilərin kristal qəfəsində əmələ gələn defektlərin mikrosxemlərin elektrofiziki parametlərinə təsirini və onlarda yaratdığı deqradasiya proseslərini aradan qaldırmaq məqsədilə defektlərin inteqral mikrosxemlərdə deqradasiyası və p-n strukturlarda elektron proseslərə təsirinin mikromexanizmi və xüsusiyyətləri aydınlaşdırılaraq bu hadisələrin qanunauyğunluqları müəyyən edilmişdir. Alınan nəticələr əsasında yarımkeçiricilər fizikasında “P-n strukturlarda elektron proseslərinə defektlərin təsiri” adlı yeni elmi istiqamətin əsası qoyulmuş, elmi fundamentallıq və tətbiq baxımından ciddi problem sayılan dislokasiyanın elektrik aktivliyi və ona aşqar atomlarının təsiri problemi həll edilmişdir.

Təklənmiş dislokasiyanın elektrik aktivliyini təyin etmək üçün üsullar hazırlanmış, metaldielektrik keçidi aşkar edilərək onun modeli verilmiş, p-n strukturların deşilmə gərginliyinin fəza yük qatındakı qeyri-bircinsliliyin yükündən və ölçülərindən asılılığının düsturu alınmışdır. Elektron mikroskopu üsulu ilə mikrosxemlərdə elektroaktiv defektlərin aşkarlanması və onların parametrlərinin təyini üsullarının həssaslığı 100 dəfədən çox artırılmış, mikrosxemlərin istehsalında yararlı məmulatların çıxımını artırmağa imkan verən kontakt yaradılmasının yeni üsulu təklif edilmişdir. İlk dəfə olaraq mis xalkogenidləri əsasında diod quruluşlarında idarə olunan aşırma və yaddaş effektləri müşahidə olunaraq izahı verilmişdir.

XX əsrin 60-cı illərində yarımkeçiricilərin optikası və spektroskopiyası sahəsində yüksək səviyyəli elmi tədqiqat işlərinin aparılması ilə respublikada yeni elmi istiqamət yaranmış və bu elmi istiqamətin inkişafında akad. Eldar Salayevin xüsusi rolu olmuşdur. Fizika İnstitutu ilə REA-nın P.N.Lebedev adına Fizika İnstitutunun birgə apardığı tədqiqatlar göstərdi ki, qallium selen monokristalında lazer effekti müşahidə olunur və həmin birləşmə qeyri-xətti optikada tətbiq olunmaq üçün perspektivli materialdır.

Laylı və almazabənzər kristal quruluşlu yeni yarımkeçirici materiallar alınmış və həmin materiallarda stimullaşdırılmış şüalanma, bərk cism fizikasında yeni obyekt olan elektron-deşik mayesi, ikiölçülü elektron qazının mövcudluğunu sübut edən Holl müqavimətinin kvantlanması aşkar edilmişdir. Üçqat laylı birləşmələr əsasında yeni seqnetoelektrik yarımkeçirici materiallar sinfi alınmış, neytronoqrafik tədqiqatlarla onlarda ortaq ölçüsüz fazaların mövcudluğu göstərilmişdir.

“Mürəkkəb yarımkeçirici birləşmələrin alınması, xassələrinin tədqiqi və onlar əsasında müxtəlif çeviricilərin hazırlanması (termoelektrik, yaddaşlı və aşırma mexanizmli cihazlar, spontan və lazer şüa mənbəi, qəbuledici və modulyatorlar)” sahəsindəki nailiyyətlərinə görə 1972-ci ildə Zərifə Əliyarova, Vadim Antonov, Arif Quliyev, Yədulla Nəsirov, Rəhim Nani, Eldar Salayev və “Yeni yarımkeçiricilər, onların əsasında yaradılan çeviricilərə” aid işlərə görə isə 1976-ci ildə Həsən Hüseynov Azərbaycan Dövlət mükafatına layiq görülmüşlər.

Fizika İnstitutunda müxtəlif elektroaktiv aşqarlar daxil edilmiş germanium-silisium bərk məhlullarında aşqar mərkəzlərinin əsas hallarının enerji spektrinin dəyişməsinin xarakteri, elektrikkeçirmə hadisələri və sərbəst yükdaşıyıcıların Holl faktoru virtual kristal modelinə, qəfəs matrislərində komponentlərin xaotik paylanması isə zona quruluşunun transformasiyasına və Bruskun “xəlitədən səpilmə” nəzəriyyəsinə uyğun gəlməsi göstərilmişdir.

Kinematik elektronoqrafiya üsulu tətbiq olunmaqla A1B6, A3B6 və A3B3C6 birləşmələrinin nazik təbəqələrində qarşılıqlı təsirin, fazaəmələgəlmənin və kristallaşmanın bir sıra qanunauyğunluqları müəyyən edilmişdir.

Yarımkeçirici materialların mühüm elektrofiziki parametrlərini ölçmək məqsədilə yüksək tezlikli cərəyanlardan istifadə etməklə materialı zədələmədən kontaktsız ölçü üsullarının elmi əsasları inkişaf etdirilərək yeni üsullar təklif olunmuş və müxtəlif təyinatlı çeviricilər yaradılmışdır. Bu elmi istiqamətin yaranması və inkişafı akademik Arif Paşayevin adı ilə bağlıdır.



25 aprel 1958-ci il

Azərbaycan SSR Elmlər Akademiyasının Fizika və Riyaziyyat institutunun bir qrup əməkdaşları

Soldan sağa

1. (oturanlar) Kazım Ələsgərov, Sultan Zeynalov, Kərim Məmmədov, Əmir Habibzadə, Haşım Ağayev, Həsən Abdullayev, İsa Kərimov, Əli Xəlilov, Lətif İmanov, ..., Dadiani
2. Cəlal Allahverdiyev, Kamil Şərifov, Saleh Hacıyev, Yühənnas Seyidov, Hacıbəy Sultanov, Əkrəm Sultanov, Şamil İskəndərov, Nəcəf Əliyev, Rəşid (tarçalan), Xəlil Xəlilov, Məmmədəli, Əlihüseyn Quliyev, Emin Şahtaxtinski, ..., Emin Bəkirov, Fikrət İsayev, Qasım ..., Zərifə Nuriyeva, Arif Baxışov, Hacı Sultanov, Elmira Axundova, Frunze, Elmira, Qüdrət Axundov, Elmira Səlimova, Sima, Yekaterina Zeynalova, Fəridə Məhərrəmova, Eldar Salayev
3. Niyaz, Əli Məmmədov, Namik İbrahimov, Qalliy, Şmidt Əhmədov, Səyavuş Məmmədzadə, Qurbanəli Əliyev, Yaqub, ..., Bəhlul Əliyev, ..., Ramiz Allahverdiyev, ...

2004-cü ildə akademik A.Paşayev elmi nailiyyətlərinə, kadr hazırlığına və ixtiraçılıq fəaliyyətinə görə Pavlov adına qızıl medala və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalına layiq görülmüşdür.

Diffuziya və elektrodiffuziya sahəsində mühüm tədqiqatlar aparılmış, o cümlədən xalkogenid yarımkeçiricilərdə aşqarların miqrasiya mexanizmi aydınlaşdırılmışdır. Bu sahədə aparıcı rolu olan akademik Təyyar Cəfərovun tədqiqatları nəticəsində silisium, germanium, selen, tellur, A1B6, A3B5, A3B6 tipli yarımkeçiricilərdə və yarımkeçirici cihazlarda defektlərin əmələ gəlməsi və aşqar atomlarının diffuziya mexanizmləri müəyyənləşdirilmiş, nəzəri və eksperimental tədqiqatların nəticələri H.Abdullayev və T.Cəfərovun “Yarımkeçirici strukturlarda atom diffuziyası” (1987, ingilis dilində) kitabında öz əksini tapmışdır.

Nadir torpaq və qələvi torpaq elementləri ilə aktivləşdirilmiş üçqat xalkogenid yarımkeçiricilərin fizikası, texnikası və texnologiyasına dair fundamental tədqiqatlar sayəsində xarici amillərin (elektrik sahəsi, elektron dəstəsi, ultrabənövşəyi və rentgen şüaları və s.) təsiri altında görünən oblastda şüalanan yüksək effektivli lüminessent materiallar yaradılmışdır. Yarımkeçiricilərdə elektrolüminessensiya hadisələri ilə bağlı işlər akademik Bahadır Tağıyevin rəhbərliyi altında aparılmışdır. “Xalkogenid və oksid yarımkeçiricilərin elektron rəqs hallarının spektroskopiyası, elektrik və deformasiya sahələrinin təsiri” işlər silsiləsinə görə BDU-nun və Fizika İnstitutunun bir qrup alimi (Azər Zeynalov, Əmrulla Məmmədov, Şərif Əfəndiyev, Kərim Allahverdiyev, Qriqori Belenki, Rauf Süleymanov, B.Tağıyev) 1988-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Akademik Məhəmmədəmin Şahtaxtinskinin bilavasitə rəhbərliyi və iştirakı ilə yeni kompozit materiallar yaradılmış, polimer-pyezoelektrik və polimer-yarımkeçirici kimi nizamsız sistemlərdə piro-pyezoelektrik, elektret, varistor, pozistor, pyezorezistiv, fotoelektret, fotorezistiv, fotovoltaik və elektrolüminessensiya effektlərinin formalaşmasında anizotropluğun aparıcı rolu müəyyən edilmiş və onların əsasında bir sıra cihazlar hazırlanmışdır.

Aşağı temperaturlarda maqnit qavrayıcılığını ölçmək üçün xüsusi qurğu, istilik tutumunun 2÷300K temperatur intervalında ölçülməsinə imkan verən vakuumlu adiabatik kalorimetr və yüksək həssaslığa malik dilatometr qurğuları yaradılmış, onların köməyilə bəzi A3B6 və A2B32C64 tipli birləşmələrin 10÷300K, amorf selenin isə 60÷330K intervalında istilik tutumu və termodinamik parametrləri, bir sıra xalkogenidlər və onların bərk məhlullarının istidən genişlənmə əmsalı tədqiq edilmişdir.

Yeni kalorimetrik üsul əsasında 100-dən artıq yarımkeçirici maddənin termodinamik parametrləri və rabitə enerjisi təyin edilmiş, qadağan zona ilə atomizasiya enerjiləri arasında korrelyasiya müəyyənləşdirilmiş, bu maddələrin alınma texnologiyasının fiziki-kimyəvi əsasları işlənib hazırlanmışdır.

Aşağı temperaturların alınması və bu sahədə aparılan bir sıra tədqiqatlar müxbir üzv İsa Kərimovun adı ilə bağlıdır.

Bir sıra 3d-keçid elementlərinin xalkogenidlərində maqnit nizamlılığının elektrik xassələrinə təsir mexanizmi aydınlaşdırılmış, nüvə qamma-rezonans üsulu ilə ilk dəfə dəmir tərkibli laylı və zəncirvarı birləşmələrdə kvaziaşağıölçülü maqnetiklərə məxsus xassələrin olduğu aşkarlanmış, diamaqnit qalay ionlarının nüvələrində gətirilmiş maqnit sahəsi müşahidə olunmuş, dəmir ionlarının valent halı və elektrik sahələrinin qradiyenti təyin edilmişdir.

Fizika sahəsindəki elmi tədqiqat işlərinin əksərinin nəticələri yeni cihazlar hazırlamağa və onlardan praktikada istifadə etmək üçün təkliflər verməyə imkan yaratmışdır. Belə ki, selen, onun mürəkkəb birləşmələri, müxtəlif şüşəvari yarımkeçirici sistemlər, polimerlər, kompozit materiallar əsasında bir sıra düzləndiricilər, termo və qalvanomaqnit, akustooptik, tenzo-metrik, pyezoelektrik çeviricilər, qalınlıqölçən, pnevmo-tenzo-rezistor kompleksi, günəş elementləri, şüa mənbələri və qəbulediciləri, yaddaş elementləri, spektrin 3-5 mkm və 8-14 mkm oblastı üçün qurğuşun xalkogenidləri və kadmium-civə-tellur bərk məhlullarının epitaksial təbəqələri əsasında termoelektrik soyuduculu fotoqəbuledicilər, spektrin 0,45-1,10 mkm oblastı üçün laylı yarımkeçiricilər əsasında radiasiyayadavamlı termoelektrik soyuduculu fotoqəbuledicilər, bismut-sürmə sisteminin bərk məhlulları əsasında yüksək effektli termo- və maqnitotermoelektrik materiallar və elektron soyuducuları, polyar molekulların spektrlərini geniş tezlik diapazonunda yazmağa və identifikasiya etməyə imkan verən yüksək həssaslıqlı radiospektrometrlər, kiçik enerjili intensiv ion mənbəyi üçün ionların çıxarılmasının yeni plazmooptik sistemi, hermetik optoelektron cihazlarının tam diaqnostikası üçün yeni universal zədəsiz üsulların və əksetdirməyən uducuların hazırlanmasının fiziki əsasları işlənib hazırlanmış, göstərilən material və çeviricilərin təcrübi nümunələri düzəldilib sınaqdan keçirilmişdir.

Kalsium-qallium-kükürdlü yarımkeçirici birləşmələr əsasında sarı, mavi, yaşıl və qırmızı rəngli lüminessent lampaların laborator nümunələri hazırlanmış, bu birləşmələrin tənzimlənən yaşıl rəngli lazerlər, optik rabitə, infraqırmızı şüaların vizuallaşdırılması üçün perspektivli olduğu göstərilmişdir. Fotoelastik material kimi, daha sadə hazırlanma texnologiyasına malik olan kristallik kvars əsasında akustooptik modulyator hazırlanmışdır.

Optik və akustik dalğaların fotoelastik mühitlərdə qarşılıqlı təsirinə görə, müasir analoqlara nisbətən daha dərin modulyasiya indeksi və xətti modulyasiya xarakteristikası almağa imkan verən düzbucaqlı impulslar ardıcıllığının eninə impuls modulyasiyasının akustooptik üsulu verilmiş və bu üsulu reallaşdıran qurğunun mərkəzi tezlikləri 56 MHs və 80 MHs olan paralel təsirli akustooptik panoram qəbuledicisinin maketi hazırlanmışdır. Aktiv kompozitlər əsasında çoxfunksiyalı çeviricilərin fiziki-texnoloji əsasları işlənmiş, vibro və seysmoçeviricilər, elektroakustik, optoakustik çeviricilər, hidroakustik qəbuledici-verici antenalar, Korotkov ton çeviriciləri hazırlanaraq tətbiq üçün bir sıra müəssisələrə təqdim edilmişdir.

Akademik Cavad Abdinovun rəhbərliyi ilə SSRİ-də ilk dəfə olaraq elektron soyuduculu xüsusi təyinatlı fotoqəbuledicilərin seriyalı istehsalı təşkil olunmuş, həmin fotoqəbuledicilər Moskva şəhərindəki Kurçatov adına Atom Enerjisi İnstitutunda idarə olunan termonüvə sintez aparatında yüksək temperaturlu plazmanın sıxlıq funksiyasına nəzarət qurğusunda, lazer rabitəsi və məsafədən ölçmədə, Yerin təbii sərvətlərini tədqiq edən “Kosmos” seriyalı aparatlarda, Mars planeti və onun Fobos peykinin səthini tədqiq edən “Fobos” avtomatik stansiyasında, yerüstü qurğuları və minalanmış sahələri aşkar edən pilotsuz aparatlarda, Moskva şəhərinin ilk istilik xəritəsinin çıxarılması və Türkiyə Respublikasında təyyarədən xəritə çəkilişində istifadə edilmişdir. Bu fotoqəbuledicilər vasitəsilə ilk olaraq Marsın əks tərəfinin istilik xəritəsi çıxarılmışdır. “Geniş tətbiq olunan elektron cihazlarının istehsal texnologiyasının və konstruksiyalarının elmi əsaslarının işlənib hazırlanması” işinə görə Cavad Abdinov, Kamal Əhmədzadə, Emil Hüseynov, Çingiz Qacar, Fikrət İsmayılov, Kamran Əliyev, Emin Əliyev 1982-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşlər.

İlk dəfə kosmik peykdə çəkisizlik şəraitində bir sıra yarımkeçirici bərk məhlulların monokristalları alınmışdır. A2B6 tipli birləşmələrin nazik təbəqələrində aşqarların diffuziyasına lazer şüaları ilə təsir edərək yüksək effektivli fotoçeviricilər və detektorlar hazırlanmışdır.

Metal-məsaməli silisium əsasında Şottki diodlarında nəmlik-voltaik effekti müşahidə edilmiş, onun fiziki mexanizmi aydınlaşdırılmış və bunların əsasında çox həssas rütubət göstəriciləri, hidrogen və karbon qazı sensorları və hidrogen minibatareyaları, laylı mürəkkəb yarımkeçiricilər əsasında isə rentgen və qamma şüaları detektorları, yüksək həssaslıqlı tenzovericilər hazırlanmışdır.

AMEA-nın müxbir üzvü Səlimə Mehdiyevanın rəhbərliyi ilə aparılan tədqiqatlar nəticəsində selen diodlarında heterokeçidin yaranması və onun yaranma mexanizmi, selendə taraz və qeyri-taraz elektron proseslərinin mexanizmi, selen əsasında şüşəvari sistemlərin fiziki xassələrində yaxın və orta nizam quruluşunun rolu və onun mexanizmi müəyyənləşdirilmişdir.

Fizika İnstitutunda ötən əsrin 50-ci illərindən başlayaraq akademik Lətif İmanovun rəhbərliyi altında təşkil olunmuş radiofizika laboratoriyasında maddənin həm qaz, həm də maye halı molekulyar səviyyədə öyrənilmişdir. Sonradan bu elmi istiqamət akademik Çingiz Qacar tərəfindən davam etdirilmişdir. Qaz radiospektroskopiyası üsulu ilə molekulun quruluşu və dayanıqlı konformer formalarının təsdiqi, dipol momenti, daxili hərəkət parametrlərinin təyini üzrə alınan nəticələr kimyəvi rabitə nəzəriyyəsinin inkişafına təkan verən dəyərli tədqiqatlar kimi dünya elmi ədəbiyyatına daxil edilmişdir. İlk dəfə propil spirti molekulunun üç ekvivalent olmayan rotomer halda olduğu təsdiq edilmişdir.

Etil və izopropil spirti molekullarının 20 mindən çox udulma xətlərinin rezonans tezlikləri yüksək dəqiqliklə ölçülərək onların enerji parametrləri hesablanmış, spektral kataloqları hazırlanmış, molekulların fotohəyəcanlanmasının ən yüksək effektivlik şərti müəyyənləşdirilib təcrübədə istifadə üçün təklif edilmişdir. Mayedə molekulyar və submolekulyar səviyyədə baş verən proseslərə əsaslanaraq maddənin halını mikroskopik səviyyədə müəyyən edən nəzəriyyə hazırlanmış, yaradılan yeni ölçü üsulları ilə maddənin dielektrik xassələri daha geniş intervalda öyrənilmiş, dielektrik relaksasiyası ilə maddənin quruluşu arasında sıx əlaqənin olması aşkar edilmişdir.

Bu illərdə Fizika İnstitutunun “Molekulyar spektroskopiya” laboratoriyasında müxtəlif mürəkkəb üzvü molekullar və onların sərbəst radikallarının lüminessensiya spektrlərinin tədqiqi ilə də məşqul olunurdu. Bu işlər əsasən prof. Xasay Məmmədovun rəhbərliyi ilə aparılırdı. Bu sahədə müxtəlif sinif üzvü birləşmələrin sərbəst radikallarının elektron keçidlərinin enerjisi, əsas və həyəcanlanmış elektron hallarının rəqsi tezlikləri təyin edilmişdir.

Tədqiq olunan radikalların matrisada elektron-rəqsi spektral quruluşunun dəyişməsinin onun dayanıqlı konfiqurasiya formasının stabilləşməsi ilə əlaqəli olduğu göstərilmişdir. Normal parafin matrisalarında dondurulmuş mürəkkəb aromatik molekullarda fotokomyəvi proseslərin kinetikası öyrənilmiş, geniş temperatur intervalında polimorf çevrilmələr müəyyənləşdirilmişdir.

Elementar zərrəciklər və nüvə fizikası sahəsindəki nəzəri tədqiqatlarda aksiomatik, simmetriya və cəbri yanaşmalar geniş tətbiq olunmuş və inkişaf etdirilmişdir. Fəzanın mikroskopik strukturunu (həndəsəsini) xarakterizə edən fundamental uzunluğun varlığı fərziyyəsinə əsaslanan qeyri-lokal kvantlanmış sahə nəzəriyyəsi qurulmuşdur.

Bu nəzəriyyədə impuls təsvirində sabit əyriliyə malik 4 ölçülü fəza reallaşır və lokal kvant sahə nəzəriyyəsinin bütün aksiomları ödənilir. İmpuls təsviri quruluşunun nəticəsi kimi, ifrat yüksək enerjilərdə elementar zərrəciklərin səpilmə kəsikləri üçün konkret davranışlar qabaqcadan xəbər verilmişdir. İxtiyari spinli kvant sahələri üçün işıq konusu üzərində relyativistik kovariant Hamilton nəzəriyyəsi inkişaf etdirilmiş, S-matris üçün unitarlıq şərti və səbəbiyyət prinsipi ifadə olunmuşdur. Kovariant 3 ölçülü diaqram texnikası və dərin qeyri-elastiki lepton-adron səpilmə proseslərini təsvir edən ümumi formalizm təklif edilmişdir.

Alınan nəticələr elmi ədəbiyyatda öz təsdiqini tapmışdır. Relyativistik səpilmə amplitudu və ikizərrəcikli dalğa funksiyası üçün kvazipotensial tipli tənliklər alınmışdır. Qeyri-relyativistik kvant mexanikasının bir sıra mühüm xassələrini özündə saxlayan və relyativistik konfiqurasiya fəzasında dalğa funksiyası sonlu-fərq tənliyini ödəyən kvant sahə nəzəriyyəsində kvazipotensial yanaşma əsasında relyativistik kvant mexanikasının sonlu-fərq variantı inkişaf etdirilmişdir. Relyativistik kvant mexanikası çərçivəsində səpilmə nəzəriyyəsi və kvant mexanikasında istifadə olunan yaxınlaşmaların analoqları qurulmuş, kəsilməz analizin mühüm funksiyalarının sonlu-fərq analoqları alınmışdır.

Sonlu-fərq tənliklərinin xassələrinə əsaslanaraq, kvantların konfaynment (tutulub saxlanma) mexanizmi təklif olunmuşdur.

Geniş tətbiqə malik bir çox dinamik sistemlərin dəqiq həll olunan sonlu-fərq modelləri qurulmuş və tədqiq olunmuşdur. Onların dalğa funksiyaları, enerji spektrləri və dinamik simmetriya qrupları tapılmış, koherent halları, stasionar və termodinamik tarazlıq hallarının Viqner paylanma funksiyaları təyin olunmuşdur. Faktorlaşma, o cümlədən q-faktorlaşma üsulunun köməyilə q-harmonik ossilyatorun müxtəlif modelləri qurulmuş və tədqiq edilmişdir.

Asılı olmayan q-kommutator anlayışı daxil edilmiş, Heyzenberq-Veyl cəbrinin q-analoqunun sonlu-fərq operatorları ilə reallaşdırılmışdır. Klassik və q-ortoqonal çoxhədlilər sinfinin tədqiqi üzrə də sanballı nəticələr əldə edilmişdir. Belə ki, q-ortoqonal çoxhədlilər sinfi üçün ortoqonallıq şərtinin bütün ədəd oxunda sadə və yeni forması alınmış, çoxhədlilər arasında Furye çevirməsinin köməyilə müxtəlif əlaqələr tapılmış, ortoqonal çoxhədlilərin yeni sinfi daxil edilmişdir. Sadalanan elmi nəticələr müxbir üzv Rüfət Mirqasımovun rəhbərliyi ilə aparılmışdır.

Akademik Nəriman Quliyevin rəhbərliyi ilə elektrozəif qarşılıqlı təsirin standart və supersimmetrik genişləndirilmiş nəzəriyyələrinin müxtəlif modelləri təklif olunmuşdur. Bu modellər çərçivəsində lepton-lepton, lepton-adron, foton-lepton, foton-adron və foton-foton səpilmə prosesləri və skalyar Hiqqs bozonları ilə bağlı effektlər tədqiq edilmişdir. Elektron-nuklon dərin qeyri-elastiki toqquşma hadisələri üçün yüksək tərtibli kvant elektrodinamik düzəlişlər müəyyən edilmişdir.

Yeni sürətləndiricilərə aid layihələr ətraflı təhlil edilmiş və tək nüvələrdə polyarlaşma effektlərinin öyrənilməsi kollektiv nüvə hallarının xassələrini təsvir edən modellər qurmağa imkan vermişdir. Göstərilmişdir ki, deformasiya olunmuş cüt nüvələrdə spin qarşılıqlı təsirləri monopol həyəcanlanmaların yeni kollektiv qolunu yaradır.

Onlar təcrübədə müşahidə olunan maqnit dipol və Qamov-Teller rezonanslarının yaranmasının səbəbkarıdır. Harmonik analiz əsasında spiral səpilmə amplitudunun Lorents qrupunun təsvirləri üzrə sıraya ayrılışı alınmışdır. Bu, kinematik məxsusiyyətləri ayırmağa və böyük enerjilərdə səpilmə amplitudunun modelini qurmağa imkan vermişdir. Kvaziortoqonal SO (p, q) ($p \geq q = 1, 2, 3...$) qrupunun invariantlarının nəzəriyyəsi inkişaf etdirilmiş, ixtiyari spin üçün requlyarlaşma üsulu işlənib hazırlanmışdır.

**(ardı var)**

***Arif HƏŞİMOV,***
***AMEA-nın həqiqi üzvü,***
***Səlimə MEHDİYEVA,***
***AMEA-nın müxbir üzvü***

# Azad medianın dayağı həqiqət, peşəkarlıq və məsuliyyətdir

*Müsahibimiz Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevdir*

**Müsahibimiz 1982–1987-ci illərdə Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alıb. “Ədəbiyyat və incəsənət” qəzetində şöbə müdiri olub. 1992-ci ildə Beynəlxalq Avrasiya Mətbuat Fondunu (BAMF) təsis edib və indiyədək onun rəhbəridir. Bu media qurumu 1996-cı ildən BMT agentlikləri və aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. BAMF BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) ən yüksək statuslu üzvüdür. Umud Mirzəyev 2012-2016-cı illərdə Beynəlxalq Mətbuat İnstitutu (IPI) direktorlar şurasının, 2013-2017-ci illərdə isə Beynəlxalq Sülh Bürosu (IPB) ali şurasının üzvü olub. Hazırda Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvüdür. İncə ruhlu şeirlər, aktual mövzuda publisistik yazılar müəllifidir.**

**– Umud müəllim, bugünlərdə xalqımız milli mətbuatımızın əsasının qoyulmasını ümumxalq bayramı kimi qeyd etdi. Ölkə Prezidentinin sərəncamı ilə keçirilən bu yubiley bir neçə ay mediamızda gündəm təşkil etdi. 150 ilin zirvəsindən jurnalistikamızın keçdiyi yol, onun bugünü və sabahı necə göründü?**

– Azərbaycan mətbuatı bu gün 150 illik bir tarixin daşıyıcısıdır. Bu tarix təkcə say deyil – burada mübarizə, düşüncə, azadlıq



arzusu və milli oyanış var. Mənim mətbuata gəldiyim dövr – 1980-ci illərin əvvəli idi. Bu, hələ sovet ideologiyasının sərt senzura mexanizmləri ilə işlədiyi bir dövr idi. O vaxt jurnalist informasiyanı yox, ideologiyanı ötürürdü. Yəni biz faktın deyil, qəlibin içində fəaliyyət göstərirdik. Amma bütün çətinliklərə baxmayaraq, jurnalistikanın peşəkarlığı və etikası yüksək idi – məsuliyyət və sözə hörmət var idi.

1990-cı illər isə tamamilə başqa bir mərhələ idi – müstəqilliklə birlikdə mətbuat azadlığını da qazandıq. Cəmiyyətin nəfəs almağa, sözünü deməyə ehtiyacı vardı və jurnalistika bu ehtiyacın əsas tribunasına çevrildi. Amma bununla yanaşı, hüquqi bazanın olmaması, iqtisadi qeyri-sabitlik və jurnalistlərin sosial təminatsızlığı bir çox problemləri də özü ilə gətirdi.

2000-ci illərdən etibarən artıq media strukturlaşmağa başladı. Azərbaycan Mətbuat Şurasının yaradılması bu baxımdan dönüş nöqtəsi oldu. Media etikasının təşviqi, “reket jurnalistikası”na qarşı mübarizə, ictimai medianın formalaşması, beynəlxalq əməkdaşlıq – bütün bunlar bu mərhələnin əsas meyarları idi.

Son 10–15 ildə isə yeni media reallığı ilə üz-üzəyik. Sosial şəbəkələr, onlayn platformalar, bloqlar informasiya məkanını tamamilə dəyişdi. Bu həm imkanlar yaratdı, həm də problemlər. Dezinformasiya, “klik iqtisadiyyatı”, etik sərhədlərin itməsi… Yəni indi jurnalist təkcə yazı yazan yox, informasiya müharibəsinin döyüşçüsünə çevrilib.



Nəhayət, son 4 onillikdə Azərbaycan mediası senzuralı, ideoloji sistemdən keçərək sərbəst və rəqabətli, amma eyni zamanda çağırışlarla dolu bir informasiya cəmiyyətinə doğru irəlilədi. Biz bu yolda yeni mərhələyə keçməkdəyik: dünya arenasında informasiya savaşına çıxan mübariz jurnalistika yolundayıq. Azad jurnalistikanın dayağı həqiqət, peşəkarlıq və məsuliyyətdir.

**– Siz ədəbiyyat sahəsində də kifayət qədər tanınırsınız, AYB-in üzvüsünüz. Bədii yaradıcılıqla jurnalistika arasında fəaliyyəti necə uzlaşdırırsınız?**

– Ədəbiyyat və jurnalistika bir-birindən ayrı sahələr kimi görünsə də, əslində, onların ruhu, mahiyyəti və məqsədi çox oxşardır – hər ikisi cəmiyyətlə ünsiyyət, insanla dialoq yaratmaq, zamanın ruhunu ifadə etmək missiyasını daşıyır. Əgər jurnalistika gündəmin və reallığın nəbzini tutmaqdırsa, ədəbiyyat onun daha dərin, daha fəlsəfi və emosional qatlarını təqdim edir. Ədəbiyyat sözə ruh, jurnalistika isə hərəkət verir. Əgər ədəbiyyat insanın daxili aləminə səyahətdirsə, jurnalistika cəmiyyətin nəbzini tutmaqdır. Amma hər ikisində əsas şərt – həqiqətə sədaqət və sözün gücünə inamdır.

Azərbaycanın ədəbiyyat və mətbuat tarixində bu vəhdətin gözəl nümunələri çox olub. Həsən bəy Zərdabidən tutmuş Cəlil Məmmədquluzadəyə, Məmməd Arazdan Elçin Əfəndiyevə qədər – onlar həm ədəbiyyatın, həm də jurnalistikanın yükünü çiyinlərində daşıyan simalar idilər. Jurnalist üçün ədəbi düşüncə tərzi həm dilin estetik istifadəsində, həm də mətnin təsir gücünün artırılmasında mühüm rol oynayır. Ədəbiyyat mənə jurnalistikanın sərhədlərini daha geniş görmək imkanı verib.

**– Beynəlxalq Avrasiya Mətbuat Fondu fəaliyyətinizə ictimai-siyasi məzmun da gətirib.**

– Bu media qurumu mənim üçün, sadəcə, media sferası deyil – bu, ideyadan doğan, zamanla formalaşan və artıq beynəlxalq miqyasda nüfuz qazanmış bir missiyadır. BAMF-ı 1992-ci ildə təsis edəndə əsas məqsədim informasiya vasitəsilə dialoq qurmaq, münaqişələrin törətdiyi problemləri beynəlxalq ictimaiyyətə çatdırmaq və media diplomatiyasının gücündən sülh naminə istifadə etmək idi. O vaxtlar Azərbaycan ağır bir dönəmdən – müharibə və informasiya blokadasından keçirdi. Bu şəraitdə obyektiv informasiyanın yayılması və Azərbaycanın haqq səsinin çatdırılması həyati əhəmiyyət daşıyırdı.

Bu gün isə BAMF fəaliyyətini çoxşaxəli şəkildə davam etdirir. Əsas missiyamız – sülhün, dialoqun və inkişafın təşviqidir. BAMF-un mühüm fəaliyyət istiqamətlərindən biri də insan hüquqlarının qorunması və ictimai maarifləndirmədir. Fond, eyni zamanda, vətəndaş cəmiyyəti institutlarının inkişafına dəstək göstərir və onların iştirakçılığını gücləndirmək üçün layihələr həyata keçirir.

25 ilə yaxındır ki, mina təhlükəsi ilə mübarizə proqramında yer almışıq və bu gün də Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) əsas QHT tərəfdaşlarından biriyik. Bununla yanaşı, UNESCO, UNICEF, UNDP, UNHCR, Avropa Şurası, ATƏT, Avropa İttifaqı və digər qurumlarla da əməkdaşlığımız olub. Mən beynəlxalq təmsilçiliyə rəsmi bir diplomat kimi deyil, xalq diplomatı, vətəndaş cəmiyyəti nümayəndəsi, bir jurnalist, bir azərbaycanlı kimi yanaşıram.

Media sahəsində əməkdaşlığımız isə daha genişdir və illərlə qurulan peşəkar etimada söykənir. Əl Cəzirə (Al Jazeera) ilə əməkdaşlığımız xüsusilə münaqişə və post-münaqişə dövründə intensiv olub. Onların müxbir heyətinə sahədə dəstək verməklə yanaşı, yerli jurnalistlər üçün təhlükəsizlik və obyektivlik təlimləri də keçmişik. Bundan əlavə, BBC, CNN, TRT, Deutsche Welle, və digər beynəlxalq media qurumları ilə əməkdaşlığımız olub.

Vətən müharibəsi dövründə jurnalist təhlükəsizliyi məsələsi bizim fəaliyyətimizin əsas prioritetlərindən birinə çevrildi. Hazırda biz işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən media nümayəndələrinin təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi maarifləndirici layihələr və koordinasiya mexanizmləri üzərində işləyirik.

**– Bugünümüzdə çox aktual olan bir məsələdə – ölkə mediasının dezinformasiyaya qarşı mübarizəsində rəhbərlik etdiyiniz qurumun fəaliyyəti necə qurulub?**

– Bugünkü informasiya cəmiyyətində dezinformasiya və saxta xəbərlərin sürətlə yayılması, yalnız jurnalistika üçün deyil, ümumilikdə, ictimai sabitlik, sosial etimad və milli təhlükəsizlik üçün də ciddi təhdid yaradır. BAMF qlobal media forumlarında Azərbaycanın təcrübəsini təqdim etməklə beynəlxalq informasiya təhlükəsizliyi təşəbbüslərinə dəstək verir. “Media və informasiya savadlılığı” anlayışı cəmiyyətə daha geniş formada çatdırmağa çalışırıq. Fondun fəaliyyəti göstərir ki, bu məsələ ilə yalnız jurnalistlər deyil, bütün ictimaiyyət – vətəndaş cəmiyyəti, dövlət və beynəlxalq tərəfdaşlar birlikdə məşğul olmalıdır.

Bu baxımdan yubiley tədbirlərinin zirvəsi olan Şuşa Qlobal Media Forumu artıq təkcə yerli deyil, beynəlxalq media təqviminin də önəmli hadisələrindən birinə çevrilməkdədir. Bu tədbirin bu il Xankəndidə keçirilməsi isə rəmzi baxımdan son dərəcə dərin və anlamlı idi. Çünki uzun illər informasiya müharibəsində erməni təbliğat maşını tərəfindən susdurulmuş, təhrif olunmuş bir coğrafiyada bu dəfə sözün, fikrin, həqiqətin səsi yüksəldi.

Forum göstərdi ki, Azərbaycan yalnız ərazi bütövlüyünü deyil, informasiya suverenliyini də bərpa edib. Bu, sadəcə, texniki tədbir yox, media diplomatiyasının yüksək səviyyəli nümayişi idi. Dünyanın onlarla ölkəsindən gələn media nümayəndələrinin, tanınmış qələm sahiblərinin işğaldan azad olunmuş torpaqlarda bir araya gəlməsi Azərbaycanın qlobal informasiya müstəvisində mövqeyinin möhkəmləndiyinin əyani sübutu və yubileyə önəmli töhfə oldu.

**– Maraqlı müsahibə üçün çox sağ olun.**

*Söhbəti apardı:*
*Namiq QƏDİMOĞLU*
*XQ*

# Elm – fəlsəfə – ədəbiyyat üçbucağı

**Riyaziyyat üzrə fəlsəfə doktoru, fəxri professor, şair-esseist, yazıçı Əli Şirin Şükürlü əhatəli elmi-pedoqoji fəaliyyətlə məşğul olur. Hazırda təsadüfi proseslər nəzəriyyəsi və elm fəlsəfəsi üzrə elmi-tədqiqat işlərini davam etdirir. Onun fəlsəfə üzrə elmlər doktorluğu mövzusu “Bilik fəlsəfəsi” ixtisasına aid olub, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və süni intellektin fəlsəfi təhlilindən ibarətdir. Alimin elm və fəlsəfənin inteqrasiyasında ərsəyə gələn Ədəbi suprematizm – intellektual poeziya haqqında nəzəriyyəsi, Oxşarlıqlar nəzəriyyəsi, Özünüyaratma sənəti və Yuxugörmə barədə, eləcə də digər konsepsiyaları müxtəlif yerli və xarici elmi dərgilərdə və dövri mətbuatda çap edilib.**

Əli Şirin Şükürlü müxtəlif dillərdə çap olunmuş elmi, elmi-publisistik məqalələrin, ali məktəb tələbələri üçün “Ehtimal nəzəriyyəsinin elementləri” adlı metodik vəsaitin, “Ədəbi suprematizm və dünyaya yeni baxış” adlı bir elmi-populyar kitabın, həmçinin 4 şeir kitabının, povest, esse və hekayələrin müəllifi, dünya ədəbiyyatından 5 kitabın tərcüməçisidir. Əsərləri bir neçə dilə çevrilib. Azərbaycan ədəbiyyatında əsasən şeir-esse janrının və ədəbi suprematizm adlı ədəbi-fəlsəfi cərəyanının təmsilçisi kimi tanınır. Onun müəyyən elmi-bədii yaradıcılıq nümunələrini oxuculara təqdim edirik:

Bu model üç komponentdən ibarətdir: elmi informasiya – fəlsəfi düşüncə– bədii təfəkkür (Eİ – FD – BT). Ədəbi suprematizm nəzəriyyəsinin (həmçinin ədəbi-fəlsəfi cərəyanın) əsasını bu model təşkil edir və elmi informasiyanın fəlsəfi düşüncə vasitəsilə bədii mətnə gətirilməsi bu modelin köməyi ilə həyata keçirilir. Bu rubrikada oxuculara elm, fəlsəfə və ədəbiyyatın sinkretik vəhdətinə dair esselər yer alıb.

**1-ci mövzu: Bədii mətnlərdə sonsuzluq anlayışı**

Sonsuzluq anlayışı müəyyən paradokslara, polemikalara qapı açan anlayışlardan biri olub, ətrafında maraqlı və ziddiyyətli düşüncə şəbəkəsi yaratmışdır. Bu anlayış müəyyən elm sahələri ilə yanaşı, fəlsəfi dünyagörüşünün də mərkəzində olmuş, yaratdığı düşüncə şəbəkəsi heyranlıqla qarşılanmaqla yaradıcı sahələrə də təsirsiz ötüşməmişdir. Necə deyərlər, nə qədər anlaşılırsa, anlaşılmazlığa bir o qədər də geniş meydan verir sonsuzluq.

Bu mövzuda sonsuzluq anlayışı barədə müəyyən elmi-fəlsəfi fikirləri bir araya gətirib, formatımıza uyğun olaraq bədii mətnlərə körpü salmağa çalışacağıq. Rast gəldiyim bir mənbədə Soyer adlı mütəfəkkirin bu barədə fikri mənə fəlsəfi, eyni dərəcədə poetik təsir bağışladığından ondan başlamaq qərarına gəldim. O, sonsuzluğun təyinini bu şəkildə verir: Sonsuzluq – mümkün olmayan hadisənin baş verdiyi yerə deyilir. Aydınlıq üçün misal göstərir; hər hansı bir nöqtədən dayanıb müşahidə edirsən – uzaqda yerlə göy birləşib. Nə qədər getsən də, yerlə göyün birləşdiyi yerə çata bilmirsən.

Növbəti maraqlı mülahizə: Sonsuzluqdan sonsuzluğu çıxsan, sonsuzluq alınar (Kantor).



İslam düşüncəsinə görə, sonsuzluq Allahın hifzindədir. Bütün yaranmışlar indisi, keçmişi və gələcəyi ilə bir “an”da yaradılıb və sonsuzluğa qədər mövcuddur.

Sonsuzluq barədə fikirlərlə bağlı kifayət qədər nümunələr göstərmək olar. İndi isə bir qədər öz mülahizələrimiz üzərində dayanaq.“Sonsuzluq nədir?” sualına ilkin cavab belə olacaq: Sonu olmayan – sonlu. Əslində bu cavab nə qədər sadə olsa da, ağlabatandır. İnsan düşüncəsinin əvvəl və axırını qəbul edə biləcəyi nə varsa sonludur. Yəni düşüncədə tam şəkildə proyeksiyalana biləcək nəsnələr sonludur. Kainat sonsuzdur, çünki onun nə əvvəlini, nə də axırını təsəvvürə sığışdıra bilmirik. Yarımçıqlıq, hardasa qırılma baş verir düşüncədə. Düşüncə hər hansı nöqtədən başlasa da, varlığın sonuna gedib çıxa bilmir. Deməli, sonsuzluq həm də bir tərəfin sona qədər ağla sığmamasıdır. Kainatı dayandığımız nöqtədən seyr edə bilərik; qarşımızda bir-birini əvəz edən varlıqlar ardıcıllığı düşüncənin qəbul edə biləcəyi müəyyən sərhədə qədər davam edər və nəhayət, müəyyən həddən o tərəfə bir qaranlıq – anlaşılmazlıq məskən salar.

Bəs sərhədləri düşüncəyə sığan – sonlu olan varlıqlarda sonsuzluq necə iştirak edir. Məsələnin qoyuluşu qəribə oldu: sonluda sonsuzluq axtarmaq. Əgər varlıqlar bölünəndirsə, hissələrdən ibarətdir. Fikir verin, istənilən bir nəsnəni nə qədər istəsən, bölmək mümkündür. Böləndükcə daha çox hissələr əmələ gələcək, amma yox olmayacaq. Hər bölünmədən sonra hissələrin sayı artacaq, əslində. Sonu görünməyən bir proses. Deməli, ilk baxışdan sonlu görünənlər də mahiyyətcə sonsuzluğa bürünüb.

Leybnitsin təsvir etdiyi xəttə nəzər salaq: xətt sonludur. Əvvəli və axırı var. Amma xəttin üzərində qeyd olunan istənilən iki nöqtənin arasında həmişə üçüncüsü mövcuddur. Xəttin üzərində qeyd olunan hər hansı bir nöqtədən sonsuzluq açılır. Yəni xətt sonsuz sayda nöqtələrdən ibarətdir, baxmayaraq, əvvəli və sonu var. Deməli, üzdən sonlu görünən varlıqlar da mahiyyətcə sonsuzluğa bürünüblər.

Sonsuzluq barədə mülahizələri, elmi və fəlsəfi düşüncələr şəbəkəsini istənilən qədər genişləndirmək olar. Lakin məqsədimiz bu anlayışın daşıdığı fəlsəfi anlamdan bədii mətnə qapı açmaqdır. Əvvəlcə bu qapının qarşısında dayanıb bir məsələ barədə düşünək, sonsuzluq anlayışını sadə bir misalla əsaslandıraq və sonra bu qapıdan bədii aləmə daxil olmağa səy göstərək. Bir-birinə yaxın iki ədəd götürək. Məsələn: 0 və 1. Sırada yanaşı dayanan, ilk baxışdan bir-birinə yaxın ədədlərdir. Lakin ədəd oxunda 0 və 1 arasında sonsuz sayda ədədlər mövcuddur. Yəni bu ədədlər bir-birinə yaxın olduğu qədər də uzaqdır – arada sonsuzluq. Sonsuzluğa aid bu sadə misal üzərində qurulmuş bir şeirlə fikrimizi ümumiləşdirək:

**Uzaqlıq**

***0 və 1; bir-birinə***
***Yaxın, çox yaxın ədədlər arasında***
***sonsuzluq - bilirsənmi?***
***Bilirsənmi, dostum, bilirsənmi***
***nə böyük uzaqlıq yaxınlıqlar içində?!***

***İllərcə***
***uzun-uzun məsafələri***
***addım-addım,***
***maşın-maşın,***
***qatar-qatar... adlasaq da,***
***aşa bilmədik aradakı sərhədi.***

***Bir-birimizə yaxın,***
***çox yaxın olsaq da,***
***sonsuz uzaqlıqdayıq fəqət...***

Hər hansı bir anlayışın elmi-fəlsəfi anlamı sayəsində intellektual bədii mətnlər yaratmaq və fərqli bədii təsvir vasitələrinə nail olmaq mümkündür, yetər ki, ilk növbədə, həmin anlayışın həyatla – təsvir olunan hadisə (mövzu) ilə adekvatlığı tapılsın (bu tezisi tez-tez təkrarlamaq onun qarşımıza qoyduğumuz məqsəd üçün nə dərəcə vacib olduğunu gösrərir). Hər bir hadisə barədə isə çoxlu sayda, bəlkə də elə sonsuz fikir variasiyası yaratmaq mümkündür; sonsuzluğun özü barəsində olduğu kimi.

**Sonsuzluq**
**(şeir-esse)**

***1. Başlanğıc***
***Dayanıb, otağın pəncərəsindən***
***seyr edirəm səssizliyi könlümün dəli vaxtında;***
***uzaqda dənizlə sevişən göy üzü...***

***Hər şeyin sonu yox,***
***sonsuzluğu var.***

***Parça-parça edilib küçəyə atılmış şəkil –***
***dayanmış zamanı oynadır külək.***
***Heç nə yox olmur ki, hər şey dəyişir azaldıqca,***
***kiminsə parça-parça edilib, ayaqlar altına atılmış şəkili kimi...***

***Dənizə baxıb***
***xoşbəxtlik barədə düşünərkən***
***qara bir qarğa döyəcləyir maşının pəncərəsini…***
***Hər şeyin sonsuzluğu var...***
***Mən dənizə baxıb sevindim;***
***uzaqda dənizlə sevişən göy üzünə sevindim.***
***Elə o anda acıdım***
***tapdadığım qarışqa taleyinə…***
***Heç nə yox olmur ki,***
***hər şeyin sonu yox,***
***sonsuzluğu var.***

**2. Son**

***Dayanıb,***
***otağın pəncərəsindən seyr edərkən səssizliyi***
***xoşbəxtlik barədə düşündüm,***
***sevindim uzaqda dənizlə sevişən göy üzünə,***
***acıdım tapdadığım qarışqa taleyinə...***

**3. Sonsuzluq**

**Nə axtarırsan, qara qarğa,**
**nə axtarırsan pəncərə şüşəsində,**
**hara uçdunuz, qağayılar,**
**hara uçdunuz?...**

**(ardı var)**

*Əli Şirin ŞÜKÜRLÜ,*
*riyaziyyat üzrə fəlsəfə doktoru, şair*

*Qəbələ Beynəlxalq Musiqi Festivalı*

# Gənc ifaçıların performansı




**Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən 14-cü musiqi bayramı ətraf dağlarda əks-səda verməkdədir.**

Dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr edilmiş budəfəki festivala dünya musiqisinin müxtəlif ünlü simaları toplaşıblar. Qəbələ beynəlxalq mədəni dialoqun bir növ episentridir.

İyulun 24-də start götürmüş bayramın növbəti günündə Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konsert proqramı təqdim olunub. Konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, yerli musiqisevərlər, şəhərin qonaqları iştirak ediblər. Öncə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək orkestrin fəaliyyəti barədə məlumat verib.

Konsert Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Uvertüra" ilə başlayıb. Ardınca Arif Məlikov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Müslüm Maqomayev, Musa Mirzəyev, həmçinin G.Puççini, P.İ.Çaykovski, A.Piazzolla, D.Şostakoviç və digər bəstəkarların əsərləri səsləndirilib. Solistlər – əməkdar artistlər Afaq Abbasova (soprano) və Aleksey Mittixin (cello), Nicat Salmanov (fleyta), Rəfiqə Quluzadə (piano), Cəlal Kərimov (bariton), Şərif Bağırov (klarnet), Hüseynağa Asalanovun (qiraətçi) ifaları, Daniyə Nəsirova (rəqqasə) və Ülvi Əliəhmədlinin (rəqqas) çıxışları alqışlarla qarşılanıb.



Proqrama uyğun olaraq Konqres Mərkəzində "Gənclərə dəstək" layihəsi iştirakçılarının konsert proqramı da təşkil olunub. Konsertdən əvvəl bildirilib ki, layihənin məqsədi gənc və istedadlı ifaçıların, bəstəkarların gələcək böyük sənət həyatına vəsiqə verməkdir. Layihə çərçivəsində gənclərin ilk konserti 2016-cı ilin noyabrında olub. Həmin vaxtdan onlar mütəmadi olaraq hər ay bir neçə dəfə silsilə konsertlər verərək öz dinləyici kütləsini yaradıb, geniş auditoriyanın rəğbətini qazanıblar. "Gənclərə dəstək" layihəsi cəmi 9 ildir yaranmasına baxmayaraq, artıq ölkəmizin hüdudlarından kənarda da tanınır.

Respublika və beynəlxalq miqyaslı müsabiqələrin laureatları konsertdə öz performanslarını göstəriblər. Tenor Cavidan Babazadə, soprano səsli Tamilla Həsənova və Xədicə Həziyevanın ifaları maraqla qarşılanıb. Onları pianoda Svetlana Əhmədova, Samirə Əmiraslanova və Nuridə Novruzova müşayiət ediblər.

Dünən gündüz isə Zəhra Quliyevanın rəhbərliyi ilə "Detaşe-Sabah" violinoçular ansamblının konserti təqdim olunub. Festivalın qarşıdakı günlərində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının istedadlı tələbələrinin, Fuad İbrahimovun dirijorluğu ilə Bakı Dövlət Kamera Orkestrinin, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışları olacaq, kamera musiqisi axşamı təşkil ediləcək.

2009-cu ildən keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı artıq musiqi platformasına çevrilərək, mədəniyyətlərarası körpü rolunda da çıxış edir. Festivalın qonaqları sırasında Gürcüstanın tanınmış musiqi qrupu "Tbilisi Big Band" da var. Kollektiv caz, ritm və enerji dolu əsrarəngiz çıxışı ilə musiqisevərləri sevindirəcək. XVIII əsrin məşhur italiyalı ustalarının hazırladıqları nadiq musiqi alətlərini dilləndirən Litvanın "Ciurlionis" kvartetinin virtuoz təqdimatı da festivalın izləyicilərə növbəti hədiyyəsi olacaq.

Bəli, artıq 4 gündür ki, təbiətlə musiqinin qovuşduğu məkanda – Qəbələdə tanınmış incəsənət ətrafa gur işıq saçır, hər kəsə valehedici musiqi və unudulmaz axşamlar bəxş edilir. Gözəl ənənəyə çevrilən Qəbələ Musiqi Festivalı daha 2 gün davam edəcək.

***XQ***

# Bakıda Türk Sənət Akademiyası

**Dünyaca məşhur "Qurdlar vadisi" türk serialında Polat Alemdarın "sağ əli" olan Güllü Erhan rolunun ifaçısı – aktyor Erhan Ufak artıq bir neçə ildir ki, Azərbaycanda yaşayır. O burada özünün Türk Sənət Akademiyasını yaradıb.**



Əslən elazıxlı Erhan Ufak gənc yaşlarından etibarən səhnə və ekranlarda yer alıb. Populyarlaşması isə 2003-cü ildən çəkildiyi "Qurdlar vadisi" ilə başlayıb. Bir çox başqa layihələrdə də bacarıqlı performans sərgiləyib. "Zəhərli toxumlar: Ölüm yolu", "Təpə əməliyyatı" və "Nisan" filmləri bu qəbildəndir. Gənc həmkarımız Aynur Ədil bu günlərdə Erhan Ufakla görüşərək ondan müsahibə alıb. Bəzi məqamlarından istifadə etdiyimiz söhbətdən anlaşılır ki, ünlü sənətçi ixtisasca ssenarist və aktyordur. Bununla bərabər, gənclərə yön verməyi, onlara sənətlə bağlı sirləri öyrətməyi sevir.

Onun dedikləri: "Mən öncə Türkiyədə akademiya yaratdım. Amma bizdə ora gələn tələbələrdən 70 faizi azərbaycanlı gənclər idi. Onları izləməyə başlayanda gördüm ki, çox istedadlı, brilyant kimi parıldayan gənclərdir. Kimi rejissorluq, kimi aktyorluq, kimi isə şəxsi inkişaf ilə bağlı təhsil almağa gəlirdi. Gözümə bu da sataşdı ki, birinci və ya ikinci aydan sonra onlar itirdilər… Və bunu araşdırdıqdan sonra məlum oldu ki, kiminin maddi gücü çatmır, kimi yaşayış icazəsinə görə qala bilmirdi. Niyə yarımçıq qoyduqlarını soruşdum. Cavabında bildirirdilər ki, bizim əlimizdə olan bir şey deyil. Sonra tamamilə qərara gəldik ki, əgər onlar bura gələ bilmirsə, biz gedək, orada öz məktəbimizi açaq.

Bir həftə, on gün burada dolaşıb, araşdırmasını apardım. Sonra gördük ki, burada akademiyaya həqiqətən ehtiyac var... Burada akademiyanı qurdum və artıq tələbələr gəlməyə başladı. Sonra ailəmi da buraya gətirdim. Onsuz da işimlə bağlı tez-tez gedib-gəlirdim. Düşündüm ki bura da sevdiyimiz bir yerdir. Həmçinin Azərbaycan mənim üçün çox özəl bir yerdir. Uşaq otağımda bəri bu belədir. Bizim otağımızda iki bayraq asılı idi: biri Türkiyə, digəri isə Azərbaycan bayrağı. Rəhmətlik atamdan soruşardım ki, o qədər türk dövlətləri olduğu halda, niyə məhz Azərbaycan? Heç bir zaman niyəsini mənə tam olaraq açıqlamadı. Elə bir an gəlirdi ki, qardaşıq deyirdi, elə bir an da olurdu ki, buranın gözəlliklərindən bəhs edirdi. Bu səbəbdən də Azərbaycan mənim üçün hər mənada özəldir. Akademiyanı da burada açdım. Bu da insanların çoxuna kömək oldu və kömək olmağa da davam edir. Əslində burada olan gənclər üçün gələn çox insan var idi və biri də mən oldum. Artıq dörd ildir ki, Azərbaycanda yaşayıram. Azərbaycanı da həqiqətən çox sevirəm.

İşlərimlə bağlı Türkiyəyə tez-tez gedib-gəlirəm. İndi də yenicə qayıtmışam, 20 gün idi ki, oradaydım. Bir sinema filmimiz var idi. Bir sözlə, işim olduğu təqdirdə gedib gələ bilirəm. Amma buranı sevdiyimə görə həyatıma burada davam etmək istəyirəm".

Hələ ötən ay Türk Ağsaqqalları İctimai Birliyinin Gənclər Təşkilatının təşkil etdiyi görüşdə iştirak edən Türk Sənət Akademiyasının direktoru Erhan Ufak ömürgün dostu və "Türk Dünyası Tarix Yazan Uşaqlar" layihəsinin rəhbəri Süreyya Ufak (Kul) ilə gənclər, uşaqlar və Türk mədəniyyəti mövzusunda geniş fikir mübadiləsi aparılmış, Azərbaycana sevgilərini bir daha dilə gətirmiş, gənclərimizin çox istedadlı olduğunu vurğulamışdı.

Müsahib "Bizim ölkədə gəzəndə insanlar tərəfindən daha çox necə qarşılanırsınız?" sualını belə cavablandırıb: "Heç bir zaman qətiyyən soyuqluq görmədim. Daha çox sevgi gördüm. Açığı, çox gəzmirəm. Ən çox müəyyən yerlərdə gəzirəm. Getdiyim hər yerdə isə çox sağ olsunlar, var olsunlar ki, məni, sözün əsl mənasında, əl üstündə tuturlar".

Bu isə onun "Gələcək üçün Türkiyə–Azərbaycan birliyini əks etdirən film, ya serial çəkməyi düşünürsünüzmü?" sualına cavabıdır: "Əlbəttə. Və hazırda da bu yöndə çalışıram. Hətta bir neçə iş var. Yavaş-yavaş başlayacağıq. Çox böyük büdcəsi olmayan, ancaq hər hansısa məna ifadə edən, gözəl bir səs salacaq ssenarim hazırlanır. Türkiyə və Azərbaycan arasında keçən bir hekayə kimi. Qısa bir film olacaq hələlik".

Erhan Ufak akademiyaya gələn gənclərə tövsiyələrini bildirərək deyib: "Təhsil alsınlar ki, özlərini bir pillə yuxarı qaldırsınlar – sadəcə gənclərə tövsiyəm budur. Özləri üçün yatırım etsinlər. Hansı mövzuda çatışmazlıqları varsa, onu tamamlasınlar. Əgər kompüterləri yoxdursa, onu alsınlar, dil bilgiləri zəifdirsə, təkmilləşdirsinlər, sənətlə məşğuldurlarsa, bilik mədəniyyəti qazansınlar. Bir sözlə, özlərini inkişaf etdirsinlər, öz üzərlərində işləsinlər".

Son olaraq əlavə edib ki, akademiya olaraq 4 ildən bəri yaranan ünsiyyətləri uğurla davam edir. Hazırda isə son dərslərdən sonra, sentyabr ayına kimi məşğələlər və qəbul prosesi dayandırılıb. Sentyabr ayından yeni layihələrə start veriləcək.

***XQ***

# Xalqa xidmətin nüfuzu və dəyəri

**Xəbər verildiyi kimi, bir neçə gün öncə Prezident İlham Əliyevin sərəncamı ilə 26 nəfərə "Əməkdar jurnalist" fəxri adı verilib. Onlar Azərbaycanda milli mətbuatın inkişafında xüsusi xidmətlərinə görə təltif ediliblər.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, respublika üzrə maddi və mənəvi stimul olaraq, "Əməkdar" fəxri adına görə aylıq təqaüd alanların sayı 4 min 470 nəfərə çatıb. "Xalq" fəxri adını daşıyanlar isə 248 nəfərdir.

Qeyd edək ki, bu il iyulun 1-dən Azərbaycanda "Xalq" fəxri adına görə verilən təqaüdün məbləği 300, "Əməkdar" adına görə verilən təqaüdün məbləği isə 200 manata qaldırılıb.

***XQ***

**Yeni kitablar**

# "Qara qan"dan "Böyük devirim"ə

**Son 50 ildə orijinal publisistik yazıları, pamfletləri, bədii esseləri, öygüləri (hekayələri) ilə oxucuların sevimlisinə çevrilən, ədəbiyyat tariximizdə Qarabağ savaşından bəhs edən 1100 səhifəlik "Qara Qan" tarixi roman-trilogiyanın yazarı Fazil Güneyin bu yaxınlarda "Böyük devirim" adlı kitabı işıq üzü görüb.**




"Orxan" nəşriyyatının nəfis şəkildə buraxdığı topluda yazıçının yazdığı öygülər (hekayələr), esselər, pamfletlər və dram əsərindən nümunələr toplanıb. Ulusumuzun son 100 illik ağır və şanlı tarixindən, sovet dönəmində adları layiqincə dəyərləndirilməmiş qələm sahiblərindən, gizli qalmış, yaxud da tam açılmamış olaylardan bəhs edən "Böyük devirim" romanından bir parça, yeni eradan öncələrdə şumerlərdən sonrakı dönəmlərdən bəhs edən dram əsəri və s. orijinal nümunələrin də yaxşı qarşılanacağı şəksizdir.

Yetkin qələm sahibi Fazil Güneyin bu kitabı əlvan güllərdən bağlanmış bir bədii çələng təsiri bağışlayır. Toplu oxucunu ağladıb-güldürür, ən ümdəsi dərin düşüncələr ümmanına atır...

Son 35 ildə Fazil Güney mediamızda beynəlxalq mövzuda yazan, problemlərimizi, Qarabağ olaylarını dünyada yayan ilk aktiv yazarlarımızdandır. Ərəb filologiyası üzrə iki elmi monoqrafiyanın müəllifi, böyük şərqşünas Aida İmanquliyevanın dissertantı olmuş, tanınmış akademiklər Həmid Araslı və Ziya Bünyadovun xeyir-dua verdikləri Fazil Güney Suriya, İraq, Liviyada uzun müddət tərcüməçi kimi çalışıb, Əlcəzair Universitetində bir dərs ili təcrübə keçib, bütün ərəb ölkələrinə səfər edib. Dəməşq, Bağdad və Qahirədə hay-ermənilərlə müxtəlif səviyyələrdə rəsmi yerlərdə qarşılaşaraq dartışıb.

Bunlardan ən maraqlısı hayların ilk partiyalarından biri – 1890-cı illərdə yaradılmış "Hnçaq" partiyasının Beyrutdakı mənzil-qərargahında, Livan parlamentinin erməni deputatı, arvadı erməni olan, ermənilərə özəl imtiyazlar vermiş Livanın prezidenti Emil Lahudla görüşüb suallaşması olub. Buna görə də Qarabağ davasına həsr etdiyi "Mif dağılır" öygüsü son dərəcə böyük maraqla oxunur. Burada olaylar hayların "ikinci paytaxta" çevirdikləri Beyrutda cərəyan edir. Yazıçının təsvir etdiyi, reallıqlara, tarixi gerçəkliklərə söykənən səhnələr çox oxunaqlı alınıb.

Müəllifin 100 yaşlı atasına – Qarabağ köçkününə həsr etdiyi "Gələcək gəldi" essesini də həyəcansız oxumaq olmur. Kitabdakı yazılar oxucunu kədərləndirib hiddətləndirməklə yanaşı, həm də güldürür. "Öz itimizdir", "Metamorfoz", "Balaca yanlışlıq" "Haykanuşun əri kim, aşnası kim" adlı hekayə və pamfletlər böyük Mirzə Cəlil məktəbini xatırladır.

Oxucusunu ağladıb-güldürən yazılar toplusunu sonuclayan "Böyük başlanğıc" adlı iki pərdəli dramla bitirən müəllif özü bu haqda yazır: "44 günlük Vətən müharibəsi ilə adını fars hökmdarı Kirin başını kəsərək qanla dolu tuluğa atıb oğlunun qisasını almış Tomrisdən – dəmir xatundan Atatürkədək böyük Türk sərkərdələrinin siyahısına adını yazmış Prezident İlham Əliyev millətinin, ölkəsinin adını töhmətdən qurtarıb göylərə qaldırdı, Azərbaycan kişisi, əsgər və zabitləri başlarını dik tutmağa başladılar. Kiçik Azərbaycan dövləti qardaş Türkiyənin mənəvi, siyasi dəstəyi ilə Qafqazdan Türküstanı hədəfləyən yeni səlib yürüşünün qarşısını kəsdi".

Fazil Güneyin ədəbi çalışmaları göstərir ki, Azərbaycan rəhbərliyinin, dövlətinin siyasətdə, ordu quruculuğunda qazandığı uğurları humanitar sahələrdə də təkrarlanmalıdır. Sovet dönəmində kommunist və daşnak ideoloqlarının yazdığı və yazdırdığı tarix korrektə edilməli, yenidən yazılmalıdır. Dilimizin saflığı da müqəddəs miras kimi qorunmalıdır.

***Ə.ƏLİYEV***
***XQ***

# Təqvim yada salır

**Bu həftə yubileyləri olan tanınmış mədəniyyət və incəsənət xadimlərini – müğənni Məmmədbağır Bağırzadə və şair Məstan Günəri ehtiramla xatırlayır, kamança ifaçısı Ağacəbrayıl Abasəliyevi təbrik edirik.**

## Məstan Günər – 90



**Milli uşaq ədəbiyyatımızda özünəməxsus yeri olan şair, publisist Məstan Günər (Əliyev) 1935-ci il iyulun 25-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olub. İlk şerləri rayon qəzetində dərc edilib.**

APİ-nin Azərbaycan dili və ədəbiyyatı fakültəsində ali təhsil alıb. "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "İsti köynək", "Körpü" şeirləri ilə respublika mətbuatına çıxıb. Publisistik və tənqidi məqalələr də yazıb. Onun ilk qələm təcrübələri, bir sıra lirik şeirləri "Məstan Dəmirçioğlu", "Məstan Əsrikli", "Məstan Məsum" təxəllüsü ilə çap edilib. İlk kitabları "Qartal", "Məsum Əliyev", "Məstan Əliyev", "Məstan" imzaları ilə, son 3 kitabı "Məstan Günər" təxəllüsü ilə dərc olunub.

Onun "Günəbaxan nənə", "Ağacda leylək", "Sel", "Lovğa Murtaz", "Çoxbilmiş keçi", "Dəcəl dələ, qorxaq dovşan və qorxmaz küçük", "Ürəyin nağılı" kimi poema və nağılları uşaqların böyük marağına səbəb olub.

## Məmmədbağır Bağırzadə – 75



**21 iyul 1950-ci ildə Bakının Nardaran kəndində dünyaya göz açıb. Ulu babaları kərküklü olan müğənninin sənət yolu el şənliklərindən başlayıb.**

Adətən öz mahnılarını oxusa da, klassik, müasir bəstəkar və şairlərin yaradıcılığına müntəzəm müraciət edirdi. Bəstəkar Ələkbər Tağıyev Məmmədbağır Bağırzadəni ilk dəfə televiziyaya gətirərək onun yaradıcılığında xüsusi rol oynayıb. 2002-ci ildə "Xalq artisti" fəxri adını almış müğənninin repertuarına Oqtay Kazımının, Nəriman Məmmədovun, Tahir Əkbərin və digərlərinin mahnıları da daxil idi. Müxtəlif illərdə dövlət filarmoniyasında, "Azkonsert" Birliyində çalışan Məmmədbağır Bağırzadə ecazkar səsi ilə milli musiqi xəzinəmizi zənginləşdirən ifaçılardan olub, Azərbaycanın qüdrətli sənətkarlarının layiqli davamçısına çevrilib.

Məmmədbağır Bağırzadə rəhbərlik etdiyi "Dilkəş" instrumental ansamblı ilə respublikanın bütün bölgələrində çıxış edib. 1985-ci ildən ömrünün sonuna qədər Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində solist kimi çalışıb. İstedadını dünyanın müxtəlif ölkələrində keçirilən mədəniyyət günlərində məharətlə göstərə bilib.

Gözəl səs ustası olan müğənni-bəstəkar 2005-ci ildə dünyasını dəyişib.

## Ağacəbrayıl Abasəliyev – 70



**26 iyul 1955-ci ildə Paytaxt Bakıda müəllim ailəsində anadan olub. 3-cü sinifdə (1965) məktəblilər arasında respublika festivalının laureatı adını qazanıb.**

Asəf Zeynallı adına Musiqi Kollecində oxuyarkən 17 yaşında Almaniyanın Rudolfstat şəhərində Tələbə və Gənclərin festivalının laureatı olub. Həmin ildə (1972) Opera və Balet Teatrına milli üçlüyə dəvət edilib. Konservatoriyanı 3 ixtisas üzrə – ifaçı solist, xalq çalğı alətləri orkestrinin dirijoru və müəllim kimi bitirib. İstedadlı sənətçi 1975-ci ildə opera teatrında ilk dəfə olaraq Azərbaycan Xalq Çalğı Alətləri ansamblnı yaradıb. Bu ansamblla Rübabə Muradova, Qulu Əsgərov, Arif Babayev, Nəzakət Məmmədova və digər tanınmış müğənnilərlə bir çox ölkələrdə qastrollarda müvəffəqiyyətlə çıxış edib.

Ağacəbrayıl Abasəliyevin ifasında bütün muğamlar, təsniflər gözəl səslənir. Adil Bəbirovun "İlk addımlar", Cahangir Cahangirovun "Misir lövhələri" onun böyük istedadının uğurlarıdır. Artıq 10 ildir ki, "Xalq artisti" fəxri adını daşıyır.

O, çoxlu sayda Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini kamança ilə fortepiano üçün işləyib və müxtəlif fənlərə üçün proqramlar işləyərək tədrisə daxil edib. 2019-cu ildən Azərbaycan Milli Konservatoriyası xalq çalğı alətləri kafedrasının professoru vəzifəsində çalışır. Prezidentin fərdi təqaüdçüsüdür.

***Ə.ƏLİYEV***
***XQ***

Beynəlxalq həyat

# Vaşinqtonun maliyyə siyasətində yeni hədəflər



**ABŞ Konqresi kriptovalyutaların hüquqi əsaslarını təsbit edən tarixi qanun paketi qəbul edib. Prezident Donald Trampın ikinci dönəminin ilk yarım ilində baş verən bu hadisə ölkənin rəqəmsal valyutalar sahəsində qlobal supergücə çevrilməsi iddiasını rəsmi şəkildə bəyan edir.**

"Kriptovalyutalar ABŞ maliyyə sisteminin periferiyasından mərkəzinə doğru irəliləyir", – deyə Tramp qanunların imzalanması zamanı bəyan edib. O, ölkənin texnoloji liderliyini möhkəmləndirmək, dolların qlobal rolunu qorumaq və dövlət borcunu nəzarətdə saxlamaq məqsədi daşıyan bu qanunvericilik paketini "tarixi dönüş" adlandırıb.

Qanunvericilik paketinin əsas elementi kimi təqdim olunan "GENIUS Act" ("Stablecoin Tənzimləmə və İstiqamətləndirmə Qanunu") ABŞ-da steyblkoinlərin – dollar, qızıl və ya dövlət istiqrazlarına bağlı rəqəmsal aktivlərin – ilk dəfə federal səviyyədə tənzimlənməsini təmin edir.

Yeni hüquqi çərçivəyə görə, steyblkoinlər (steyblkoin (ing. stablecoin) – adından da göründüyü kimi, sabit dəyərə malik kriptovalyutadır. Yəni bu tip rəqəmsal pul vahidi hansısa sabit aktivə – əsasən ABŞ dolları, qızıl və ya dövlət istiqrazlarına bağlanır. Məqsəd – kriptovalyutaların tipik olaraq dəyişkən olan qiymətini sabitləşdirmək və onları gündəlik ödənişlərdə və maliyyə əməliyyatlarında daha etibarlı vasitəyə çevirməkdir-red.) yalnız 100 faiz likvid aktivlərlə təmin edilməli və emitent şirkətlər aylıq hesabat təqdim etməlidirlər. Bu, həm bank sektorunda, həm də texnologiya nəhəngləri arasında böyük rezonans doğurub. Belə ki, Amazon, Google, Meta kimi şirkətlər artıq öz "rəqəmsal dolları" buraxmağa hazırlaşırlar.



Ən diqqətçəkən məqamlardan biri isə ABŞ-ın dövlət tərəfindən buraxılan rəqəmsal valyuta modelindən imtina etməsidir. Avropa və Çin mərkəzi bankları rəqəmsal avro və yuan layihələrini irəlilədikləri bir vaxtda, ABŞ Konqresi Federal Ehtiyat Sisteminə rəqəmsal dollar buraxmağı qadağan etdi. Rəsmi izahat: "Amerikalıları dövlət nəzarətindən qorumaq".

Ekspertlər xəbərdarlıq edirlər: steyblkoinlərin kütləvi dövriyyəyə daxil olması bank sektoru üçün ciddi təzyiqlər yarada bilər. "Banklar artıq rəqəmsal nəhənglərlə eyni oyun meydanında rəqabətə girməyə məcburdurlar", – deyə "Bloomberg"in eksperti Kristin Harper bildirir.

Banklara qoyulan sərt tənzimləmə tələbləri sabitkoin emitentləri üçün tətbiq olunmur. Bu isə sistemin sabitliyinə dair suallar doğurur. Harper xatırladır: 2008-ci il böhranı da məhz "təhlükəsiz" sayılan maliyyə alətlərinin yarıtmaz şəkildə istifadəsi nəticəsində baş vermişdi.

Yeni qanunlar kriptovalyutanın əsas ideyası olan anonimliyi də sual altına alır. Steybltkoinlər blokçeyn sistemində izlənilə bilən rəqəmsal izlər buraxır. Bu isə gələcəkdə əməliyyatların dövlət qurumları tərəfindən izlənilməsi imkanlarını artırır.

"Qanunlar istifadəçi məlumatlarının izlənməsi məsələsini açıq buraxır. Bu isə maliyyə məxfiliyi prinsipinə ciddi zərbə vura bilər", – deyə Cato İnstitutunun eksperti Cenifer Şalp qeyd edir.

ABŞ-ın rəqəmsal valyuta siyasətində yeni səhifə açılır. Kriptovalyutanın qeyri-rəsmi dünyasından rəsmi iqtisadi strukturuna inteqrasiyası prosesi Trampın siyasi iradəsi ilə sürətlənib. Lakin bu prosesin arxasında duran iqtisadi, texnoloji və hüquqi reallıqlar hələ də müzakirəyə açıqdır. Çünki yeni sistemin vəd etdiyi texnoloji sıçrayışla yanaşı, maliyyə riskləri, qeyri-müəyyənliklər və kriptomaliyyənin mahiyyətinə zidd olan tendensiyalar da mövcuddur.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Qətər Avropaya qaz ixracını dayandıracaqmı?



**(əvvəli 1-ci səhifədə)**

Əl-Kaabi məktubunda bildirib ki, mövcud direktiv Qətər qanunvericiliyi ilə ziddiyyət təşkil edir və Paris İqlim Sazişinin əsas prinsiplərinə ziddir. O xatırladıb ki, saziş hər bir ölkəyə öz milli məqsədlərini müəyyənləşdirmək hüququ verir. Nazir Aİ-nin əlavə iqlim şərtlərinin tətbiqini beynəlxalq öhdəliklərin pozulması kimi qiymətləndirib. Əgər tələblər dəyişməzsə, Qətər Avropa bazarını tərk edib digər alternativ regionlara yönələcəyini istisna etmir.

Qətərin xəbərdarlığı nə deməkdir və Aİ-nin enerji təhlükəsizliyinə necə təsir edə bilər? Qətər ilə Avropa İttifaqı (Aİ) arasında enerji əməkdaşlığı uzun illərdir qarşılıqlı maraqlara əsaslansa da, son günlərdə tərəflər arasında yeni bir gərginlik yaranıb. Səbəb Avropa Komissiyasının təklif etdiyi təchizat zənciri direktividir, hansı ki, iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində enerji idxalçılarına əlavə şərtlər qoyur.

Xatırladaq ki, Avropa İttifaqı "yaşıl keçid" məqsədilə 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq istəyir. Bu baxımdan, enerji idxalında da ekoloji şərtlərin tətbiqi vacib sayılır. Lakin Qətər kimi əsas enerji təchizatçılarının narazılığı Aİ üçün enerji təhlükəsizliyi ilə iqlim məqsədləri arasında seçim dilemması yarada bilər. Belə ki, Qətər hazırda Avropanın LNG ehtiyaclarının 15 faizindən çoxunu qarşılayır. Rusiyadan qaz axınının kəskin azalmasından sonra Qətər Aİ üçün strateji tərəfdaşa çevrilib. Belə bir vaxtda tərəflər arasında siyasi-enerji qarşıdurması böhran riskini artırır.

Bu qarşıdurma, eyni zamanda, beynəlxalq enerji siyasətində yeni gərginlik xəttini göstərir. Əgər Qətər ixrac istiqamətini dəyişərsə, bu, Asiya bazarlarında LNG bolluğu, Avropada qiymət artımı və enerji tədarükündə qeyri-müəyyənlik, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və ABŞ kimi ölkələrin qaz bazarına təsir imkanlarının artması demək ola bilər.

Beləliklə, Qətər və Aİ arasında yaranan bu fikir ayrılığı, sadəcə, texniki və ekoloji mübahisə deyil, enerji siyasətinin geosiyasi ölçüsünü də üzə çıxarır. Aİ-nin diversifikasiya səylərinə baxmayaraq, hələ də bəzi ölkələr (məsələn, Almaniya və İtaliya) üçün Qətər LNG-si mühüm əhəmiyyət kəsb edir. Uzunmüddətli müqavilələrə bağlanmış Aİ ölkələri iqlim tələbləri ilə iqtisadi maraqlar arasında seçim dilemması ilə üz-üzədir. Buna görə də, Avropa "yaşıl keçid"ə gedərkən enerji təminatçılarının maraqlarını da nəzərə almalı olacaq. Əks halda, iqlim məqsədləri ilə enerji təhlükəsizliyi arasında balans pozula bilər.

***SE LAY***
***XQ***

*Məxsusi "Xalq qəzeti" üçün*

# Türkiyənin çağdaş mübarizə dastanı

## *2016-cı il 15 iyulda sınaqdan çıxan milli birlik daha da möhkəmlənir*

**Üstündən düz 9 il keçdi...Amma nə unutduq, nə də unutdurduq, əsla da unutmayacağıq. 2016-cı il 15 iyul gecəsi Türk milləti olaraq Cümhuriyyət tariximizin bəlkə də ən qaranlıq, eyni zamanda, ən işıqlı gecələrindən birini yaşadıq.**

FETÖ adlanan xain təşkilat dövlətin ürəyinə sızaraq millətimizə silah tuşladı, üzərinə tanklar sürdü, hərbi təyyarələrlə xalqımıza və Türkiyə Böyük Millət Məclisinə bomba yağdırdı. O gecə vətənini imperialist güclərin əlaltılarına təslim etmək istəməyən 251 qəhrəman şəhid oldu, minlərlə insan qazilik zirvəsinə ucaldı. Elə buna görə də "15 İyul" tarixə bir dirçəlişin adı kimi düşdü.





O gecəni necə unuda bilərik?

Qadın, kişi, yaşlı, gənc demədən hər kəs, eynilə İstiqlal müharibəsində olduğu kimi, o gecə də Vətəninə və milli iradəsinə sahib çıxdı. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın çağırışı ilə xalq küçələrə axışdı və xain çevriliş cəhdinə yol vermədi.




Türk milləti o gecə tankların, topların, silahların və bombaların qarşısına sinəsini sipər etdi. Ölkəsini və milli iradəni xain əllərə təslim etmədi.

Aradan 9 il keçməsinə baxmayaraq, mübarizə sona çatmayıb. Türkiyə dövləti FETÖ ilə mübarizəsini həm ölkə daxilində, həm də xaricdə qətiyyətlə davam etdirir. Dövlət qurumlarından mülki strukturlardan xeyli dərəcədə təmizlənmiş təşkilat üzvləri ədalət qarşısında cavab verib və verməyə davam edirlər.

FETÖ yalnız silahla çevriliş etmədi. Uzun illər "xidmət hərəkatı" adı altında beyinləri zəhərləyərək dini duyğuları istismar etdi, günahsız insanları toruna saldı. Təhsil pərdəsi altında xainlər yetişdirdi. Bu qurumla mübarizə təkcə hüquqi deyil, eyni zamanda, ideoloji və mədəni müstəvidə də davam edir.

Bəs FETÖ terror təşkilatı tamamilə yox olubmu? Əlbəttə ki, xeyr! Təşkilatın başçısı Fətullah Gülən uzun illər himayə olunduğu və yaşadığı ABŞ-da dünyasını dəyişdi və xidmət etdiyi ölkənin torpağına gömüldü. Gülənin ölümündən sonra təşkilat daxilində liderlik uğrunda çəkişmələr yaşansa da, dağılma və ya özünü buraxma ABŞ-ın maraqlarına uyğun olmadığından bir çox ölkələrdə zəifləsə də, fəaliyyətini hələ də davam etdirir. Türkiyədə ciddi dərəcədə gücdən düşsə də, qalıqları və "yuxuda olan hüceyrələri"nə qarşı dövlətin xüsusi əməliyyatları diqqətlə davam edir.

Xüsusən rəqəmsal mediada – sosial şəbəkələrdə təşkilatın trolları Türkiyə və hökumət üzvləri əleyhinə qarayaxma kampaniyasını davam etdirir. Türkiyə bu sahədə də təşkilatla effektiv mübarizə aparır.

FETÖ, xüsusilə türk dövlətləri və Afrika qitəsində məktəblər açaraq, şirkətlər qurmaqla qlobal maliyyə dairələrində də yer tutmağa çalışır. Bəzi dövlətlər bunun fərqində olmasa da, Türkiyədə olduğu kimi, bir çox ölkədə də FETÖ dövlət strukturlarına sızaraq fəaliyyətini davam etdirir.

Bu baxımdan, Türkiyə bu xainlərlə yalnız öz torpaqlarında deyil, onların fəal olduğu digər ölkələrdə də diplomatiyadan tutmuş kəşfiyyata qədər bütün sahələrdə əməkdaşlıq quraraq ciddi mübarizə aparır. Çünki biz bilirik ki, FETÖ yalnız dini xarakterli bir qurum deyil, xaricdən dəstəklənən qlobal miqyaslı bir təşkilatdır.

Buradan açıq çağırış edirik: FETÖ terror təşkilatına yalnız Türkiyənin daxili məsələsi kimi yanaşmaq böyük yanlışlıq olar. Qardaş və dost ölkələr bu mübarizədə Türkiyəni səmimi şəkildə dinləməli və öz daxilindəki xainləri təmizləməlidirlər. Əks halda, bir gün bizim yaşadığımız çevriliş cəhdindən daha dəhşətlisini özləri yaşaya bilərlər.

Nəticə etibarilə, 15 İyul xain çevriliş cəhdi Türkiyənin yaxın tarixində dönüş nöqtəsidir. FETÖ-nün dövlətin ən dərin strukturlarına necə sızdığı və bu vəziyyətin hansı təhlükələrə yol aça biləcəyi aydın şəkildə ortaya çıxdı. Türkiyə bu və bənzər təhdidlər qarşısında əzmkar mövqe sərgilədi və milli iradəyə sahib çıxdı. Bu hadisə təkcə Türkiyə üçün deyil, bütün dünya üçün ordu – sivil münasibətləri, dini qurumların dövlətlə əlaqələri və demokratiyanın kövrəkliyi baxımından mühüm dərslər ehtiva edir.

Bu gün 9 il keçib. Biz hələ də eyni yerdəyik. Şəhidlərimizin əmanətinə sahib çıxır, o gecəni hər zaman xatırlayırıq. Çünki bu, yalnız bir gecə deyil, nəsillər boyu davam edəcək bir mübarizədir.

***Mövlüd YENİ,***
***Türkiyə Jurnalistlər Konfederasiyasının baş əlaqələndiricisi***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 154 (30848) 27 iyul 2025-ci il, bazar

## İDMAN

### “Avropa cüdo ümidləri” Bakıda



**Abşeron Olimpiya İdman Kompleksində “Avropa cüdo ümidləri” turniri və kodokan mütəxəssislərinin texniki sessiyaları start götürüb. Beynəlxalq yarışda 12 ölkəni təmsil edən 88 klubun 436 idmançısı (364 oğlan, 72 qız) mübarizə aparır.**

U-13 və U-15 yaş kateqoriyalarında keçirilən turnirdə 33 çəki dərəcəsində qaliblər və mükafatçılar müəyyənləşəcək. Yarış klublar arasında keçirilir və qazanılan mükafatlar iştirakçı klubların aktivinə yazılacaq.

Texniki sessiyalara Avropa çempionu, dünya çempionatının gümüş medalçısı serbiyalı Aleksandar Kukoly və yaponiyalı kodokan mütəxəssisi, dünya çempionatının mükafatçısı Tokuno Kazuhiko rəhbərlik edirlər.

### Futzalçılarımız Avropanın universitet çempionudur



**Xorvatiyanın paytaxtı Zaqrebdə şəhərində keçirilən futzal üzrə universitetlərarası Avropa çempionatına yekun vurulub.**

Finalda Azərbaycan İdman Akademiyası ilə İspaniyanın Valensiya Universiteti üz-üzə gəlib. Görüş Azərbaycan təmsilçisinin 7:2 hesablı qələbəsi ilə başa çatıb.

Beləliklə, Azərbaycan İdman Akademiyasının futzalçıları universitetlərarası qitə çempionu olublar.

### 13 boksçumuz Serbiya finalında



**Azərbaycanın 13 boksçusu Serbiyanın Zlatibor şəhərində məktəbli oğlan və qız boksçular arasında Avropa birinciliyində finala vəsiqə qazanıb.**

Boksçularımızdan Nəsrin Abdullazadə (38 kq), Tunca Mürşüdova (42 kq), Fatimə Məmmədli (44 kq), Kəmalə Həsənova (54 kq), Babək Abdullayev (40 kq), Məhəmməd Kazımzadə (42 kq), Nuran Yusibli (46 kq), Abbasəli Məmmədli (48 kq), Elcan Musazadə (50 kq), Sabir Rüstəmov (57 kq), Nurlan Müseyibli (66 kq), Zirəddin Rüstəmli (70 kq) və Yusif Ağakişiyev (75 kq) qızıl medal uğrunda rinqə çıxacaqlar.

Yarımfinalda məğlub olan Aysan Miriyeva (46 kq), Emiliya Beydullayeva (57 kq), Xumar Cəfərli (70 kq), Sahib Baxışlı (44 kq), Məhəmməd Əli (52 kq), Fərhad Quliyev (54 kq), Amid Ələkbərov (60 kq), Mehran Rəsulov (80 kq) və Ərdəm Təkin (90 kq) isə bürünc medala yiyələniblər.

Qeyd edək ki, Avropa birinciliyinə bu gün yekun vurulacaq.

*MH ACIXANLI*
*XQ*

## Elimizdən-obamızdan

# “Pullu masabəyi”



**Yaxşılıq insanın nəcib əxlaqi sifətidir. Həyatda insanlar belə ali keyfiyyətlərinə görə nüfuz qazanırlar. İnsan zahirinin necəliyini güzgüdə gördüyü kimi, onun mənəvi aləmini də nəcib əməlləri müəyyən edir.**

Dünya gör-götür dünyasıdır, – deyiblər. Uşaqlıq və gənclik illərimi xatırlayanda könlümdə iz buraxan yaxşı insanlar gözlərim önünə gəlir. Nəbi müəllimin el şənliklərində məclisi idarə edərkən insanları düşündürən müdrik sözünü, söhbətini kəndimizin yaşlı sakinləri, ağsaqqalları indi də xatırlayırlar.

O, kənd camaatının məsləhətçisi idi. Elin xeyir-şər işi olanda həmişə onun yanına məsləhətə gedər və ondan razı qayıdardılar. O müdrik insanda çox mahir və fitri inandırmaq qabiliyyəti vardı. Mən kəndimizdəki orta məktəbi bitirənədək Nəbi müəllimin etdiyi xeyirxahlıqların canlı şahidi olmuşam. Məktəb direktoru işləyəndə müəllimlər də, şagirdlər də, ümumiyyətlə, kənd camaatı da onu özlərinin yaxın dostu, sirdaşı, dar günlərinin həmdəmi, dayağı hesab edirdilər.

O müdrik insanın siması bugünkü kimi gözümün önündədir. Ucaboylu, enli kürəkli, tökmə bədənli bir kişi idi. Görkəmindən əlavə, ziyalı hərəkətləri, mənalı danışığı onu daha da cazibədar edirdi. Dünyanın hər üzünü görmüş məğrur kişi idi. Başından dağların dumanı keçsəydi də, qürurunu sındırmazdı.

O, orta məktəbdə az bir müddət mənə riyaziyyat fənnindən dərs demişdi. Mən əlaçı şagird olsam da, riyaziyyatdan axsayırdım. Gələcəyin jurnalisti kimi, daha çox humanitar fənlərə üstünlük verirdim. Nəbi müəllim buna görə məni çətinliyə salmırdı. Bilirdi ki, mən riyaziyyatçı olmayacam. Yerli rayon qəzetində vaxtaşırı məqalə və şeirlərlə çıxış edirdim. Nəbi müəllim ilk qələm təcrübələrimi oxuyub bəyənirdi:

–Yaxşı yazırsan, yaz, amma həqiqəti yaz.

Onun sözləri o vaxtdan qulağımdan sırğa kim asılıb. Təkcə o sözləri deyil, Nəbi müəllimin çox sözləri aforizm kimi yadımda qalıb. O, kəndin toylarında yaxşı masabəyi kimi də tanınırdı. Onun sözləri məclis iştirakçılarına, xüsusilə cavanlara qol - qanad verirdi. İndi ahıl yaşında olan həmin cavanlardan biri mənə dedi:

–Mən hər məclisdə Nəbi müəllimin müdrik kəlamlarını dinləyəndə heyrətdən gözlərim dolurdu. O, aydan-aya, ildən-ilə deyil, bəlkə də gündən-günə daha da kamilləşirdi. Təkcə müəllim deyil, həm də nitq mədəniyyəti, davranışı ilə seçilirdi. Məclislərin yaraşığı idi.

Bəli, o, nurlu, qürurlu el ağsaqqalı, qeyrətli, cəsarətli, sadə-səmimi kənd müəllimi, masabəyi kimi də sözü məqamında və cəsarətlə deməkdən çəkinmirdi. Əsl ziyalı kimi, heç bir təmənna, qarşılıq gözləmədən öz işığını, nurunu el-obaya yayırdı. Həm də bu uca keyfiyyətləri insanın mənəvi bəzəyi adlandırırdı. Onun hər hərəkətinin, hər sözünün mahiyyətində müəyyən bir motiv gizlənirdi.

...Son illərdən bəri “pullu masabəyi”lik biznesə çevrilib. Sanki, bunu edənlərin mənəviyyatı tənəzzülə uğrayıb. İndi mühakiməsi bəsit olanlar pul qarşılığında tamadalıq edir. Belələri masabəyliyinin dərin və zəngin mahiyyətini, yaxşı xüsusiyyətini dərk etməkdən çox uzaqdır.

Mikrofon əllərində, ələbaxımlıqla, boğazdan yuxarı sağlıqlar deməklə, guya kimlərinsə ürəyinin sarı siminə toxunur, hissləri coşdurmağa can atırlar. Məclisi xoş olmayan bir tərzdə dirijor kimi idarə edirlər. Bu yolla “hörmət” və pul qazanırlar.

Belə “pullu masabəyi”lərə məsləhət görərdim ki, gözəl şairimiz, rəhmətlik Ənvər Rzanın bu şeirini oxusunlar və ibrət götürsünlər:

**Dayan, toy yiyəsi, bir az səbr elə,**
**Bu təzə dəblərdən təzə halıyam.**
**O masabəyinə söz vermə hələ,**
**Məqamdır izin ver, danışmalıyam.**

**Bir çevir üzünü, bax, bu tərəfə,**
**Bir gör tanışdırmı bu masabəyi?**
**Ömründə görübmü tək bircə dəfə**
**Hardasa gəlini, hardasa bəyi?**

**Oturub hər şeyi pünhan soruşur,**
**Yaxşı ki, tanışlar yetir köməyə.**
**Tez-tez ad soruşur, ünvan soruşur –**
**Kişi hazırlaşır sağlıq deməyə.**

**Toylarda tamada olur o, hər gün,**
**Hirsim paltar oldu əynimə yenə.**
**Haqq alır, muzd alır bu “zəhmət” üçün,**
**Qan vurub sıçradı beynimə yenə.**

**Axı, təhqir olur bəy də, gəlin də,**
**Allah, görəcəkli günümüz varmış!**
**Koroğlu yurdunda, Qorqud elində**
**Xeyir-dua vermək pulla olarmış!**

Əlbəttə, günah həm də özümüzdədir. Belə “pullu tamada”ları hörmətlə, ehtiramla qarşılayırıq, cibinə pul basırıq. Nədi-nədi haqqımızda boğazdan yuxarı təriflər desin. Bir sözlə, nəcib əxlaqi sifəti olmayandan masabəyi olmaz.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# Azərbaycan Dünya Poeziya Festivalında

**Venesuelanın paytaxtı Karakas şəhərində bütün qitələrdən dəvət olunan şairlərin yenicə başa çatan XIX Ümumdünya Poeziya Festivalında ölkəmizi Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Xəzər” jurnalının əməkdaşı, şair-tərcüməçi Mahir Qarayev təmsil edib.**




Venesuela yazıçı və şairləri Anna Mariya Palomaresin “Od və kül arasında” (“De fuego o de ceniza”), Freddi Nyanyesin “Yad ev” (“Casa Ajena”) və Xorxe Rodrigesin “Külə dönmüş çay” (“Río quemado”) kitabları onun tərcüməsində ana dilimizdə nəşr olunub. Festival ərəfəsində Mahir Qarayevin bir neçə şeiri də ispan dilinə tərcümə olunaraq populyar nəşrlərdə yayılıb.

Bir həftə davam edən festival çərçivəsində müxtəlif şairlərin ispan dilində şeirlərinin Azərbaycan, ingilis və digər dillərdə tərcümələri elektron formatda göstərilib, təşkil olunan kitab sərgisində ölkəmizdə ingilis və ispan dillərindən tərcümə kitabları nümayiş edilib. Mahir Qarayev Venesuela Bolivar Respublikasının ölkəmizdəki səfirliyinin dəstəyi ilə reallaşan səfərində otuzdan çox ölkənin yazarları ilə ünsiyyət qurub, klassik və müasir ədəbiyyatımız haqqında onlara məlumat verib, ədəbi əlaqələrin inkişafı məsələləri barədə fikir mübadiləsi aparıb.

*XQ*

# Kişi papağı, qadın örpəyi...



**Hacıqabul Rayon Mədəniyyət Mərkəzində “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyi “Milli baş geyimi və örtükləri” layihəsi üzrə toplantı keçirib.**

İctimai birliyin sədri Güllü Alıyeva bildirib ki, layihənin əsas məqsədi Azərbaycan xalqının qədim və zəngin geyim mədəniyyətinin mühüm tərkib hissəsi olan kişi və qadın baş geyimlərinin – kəlağayı, papaq, araqçın, örpək və digər ənənəvi örtüklərin tədqiqi, təbliği və gələcək nəsillərə ötürülməsidir.

Tədbirdə Hacıqabul Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Xuraman Məmmədova, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Hacıqabul rayon üzrə nümayəndəsi Dövran Həsənov və digər şəxslər layihənin əhəmiyyətindən söz açıblar.

Tədbir çərçivəsində Azərbaycanın kişi və qadın baş geyimlərindən ibarət sərgi nümayiş olunub.

*XQ*

## Hava

# Abşeronda yağmursuz, bəzi bölgələrdə yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-26°, gündüz 32-36° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 755 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 23-27°, gündüz 35-39° isti, dağlarda gecə 10-15°, gündüz 21-26° isti olacağı ehtimal edilir.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Aqrar Universitetinin zoomühəndislik fakültəsinin dekanı, professor Qənbər Abdullayev rektor Zəfər Qurbanova atası

**QƏZƏNFƏR QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3330
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00